1-ci hissə



# AZƏRBAYCAN DİLİ

DƏRSLİK

7

Layihə



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Layihə

Layihə

1-ci hissə

Rafiq İsmayılov
Şəhla Zahidova
Ülkər Nurullayeva
Reyhan Həbibli

# Azərbaycan dili

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik (1-ci hissə)

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **trm@arti.edu.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

7

Layihə

# İÇİNDƏKİLƏR

## bölmə 1 Yurdda sülh, cahanda sülh!


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Fəsil 1 | Nobel sülh mükafatı | Ədat | 6-11 |
| Fəsil 2 | "O mənim bacımdır..." | Ədat və bağlayıcıların qrammatik omonimliyi | 12-15 |
| Fəsil 3 | 17 yaşlı Nobel mükafatı laureatı | Modal sözlər | 16-18 |
| Fəsil 4 | Qara tut ağacı | Modal sözlərin cümlədə vəzifəsi. Ara sözlər | 19-26 |
| | Ümumiləşdirici təkrar | | 27 |


## bölmə 2 Coğrafi kəşflər


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Fəsil 1 | Milyon yalan | Feilin şəkilləri (əmr, vacib) | 28-35 |
| Fəsil 2 | Səyyahlar və onların coğrafi kəşfləri | Feilin şəkilləri (lazım, arzu) | 36-40 |
| Fəsil 3 | Niyə "Amerika"? | Feilin şəkilləri (şərt, xəbər) | 41-46 |
| | Ümumiləşdirici təkrar | | 47 |


## bölmə 3 Detektiv


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Fəsil 1 | Detektiv ədəbiyyat | Vurğu | 48-55 |
| Fəsil 2 | Quba kapriççiosu | Mürəkkəb sözlərin yaranma yolları | 56-63 |
| Fəsil 3 | Qatarda söhbət | Ayrı yazılan mürəkkəb sözlər | 64-68 |
| Fəsil 4 | Ümumiləşdirici təkrar | | 69 |


## bölmə 4 Tarix, yoxsa mif?


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Fəsil 1 | Uşaqlara Şaxta baba haqqında həqiqəti deyəkmi? | Nida | 70-77 |
| Fəsil 2 | Bir eposun izi ilə | Sual, əmr, nida cümlələrinin yaranma yolları | 78-84 |
| Fəsil 3 | Heliosentrizmin əsasını kim qoyub: Aristarx, yoxsa Kopernik? | Mürəkkəb adların yazılışı | 85-92 |
| | Ümumiləşdirici təkrar | | 93 |
| | İzahlı sözlük | | 94-95 |


Layihə

# KİTABINIZLA TANIŞ OLUN

Dərsliyin müxtəlif bölmələrində təkrar olunan başlıqlarla – rubrikalarla qarşılaşacaqsınız.

**Söz boğçası** — Oxuduğunuz mətnlərdə işlənmiş yeni söz və ifadələr

**Yadda saxla** — Dil qaydaları ilə bağlı nəzəri bilgilər

**Diqqət et** — Nitq bacarıqları üzrə müxtəlif məlumat və tövsiyələr

**Xatırla** — Əvvəlki siniflərdə və ya dərslərdə keçilmiş biliklər

**Qlossari** — Müxtəlif sahələrə aid akademik söz və terminlərin izahı

**Orfoqrafiya** — Deyilişi və yazılışı fərqlənən sözlərin orfoqrafik normalara uyğun yazılışı

## Söz ehtiyatı

Mətndə rast gəlinən yeni söz və ifadələrlə bağlı tapşırıqlar

## Nə anladın?

Mətndəki fakt və hadisələrlə bağlı suallar

## Düşün və cavab ver

Şərh, təhlil, münasibət xarakterli tapşırıqlar

## Dinləmə 01

Dinlədiyiniz mətnlə bağlı sual və tapşırıqlar

## Yazı

Oxuduğunuz və ya dinlədiyiniz mətnin mövzusu ilə bağlı yazı tapşırıqları

## Araşdırma/Təqdimat

Mövzu ilə bağlı araşdırma və təqdimat

Layihə

bölmə 1

# Yurdda sülh, cahanda sülh!

1-ci fəsil

**1 a Verilən ifadələri və onların mənaları arasındakı fərqi izah edin.**

vətən müharibəsi • vətəndaş müharibəsi • dünya müharibəsi

**Sizcə, bu müharibələr hansı səbəblərdən baş verir?**

**b Verilmiş fakt və sitatlardan istifadə etməklə "Sülhə gəlin, ey insanlar!" mövzusunda çıxış edin.**

**Giriş** **Müharibələr və onların acı nəticələri**

**FAKT:**

| Müharibələr | Tarix | İnsan tələfatı |
|---|---|---|
| I Dünya müharibəsi | 1914–1918 | 16 milyon |
| II Dünya müharibəsi | 1939–1945 | 70 milyondan çox |

**SİTAT:** *"İnsanlar müharibənin gətirdiyi bəlaları əvvəlcədən görə bilsəydilər, heç vaxt müharibəyə başlamazdılar". (Karol Bunş, Polşa yazıçısı)*

**Əsas hissə** **Müharibələr dayanmasa, dünyamız məhv ola bilər.**

**FAKT:** 21 sentyabr bütün dünyada Beynəlxalq Sülh Günü kimi qeyd olunur. Bu, Birləşmiş Millətlər Təşkilatının (BMT) təsis etdiyi rəsmi bayramdır. Hər il Beynəlxalq Sülh Günü BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında yerləşən "Sülh zəngi"nin çalınması ilə başlayır. Bu zəng dünya ictimaiyyətini sülh uğrunda birliyə səsləyir.

**SİTAT:** *"Mən bilmirəm, 3-cü dünya müharibəsində insanlar hansı silahlarla savaşacaqlar, ancaq əminəm ki, 4-cü dünya müharibəsində onlar çomaq və daşlarla döyüşəcəklər". (Albert Eynşteyn)*

**Sonluq** **Dünyanın bütün insanları müharibəyə "Yox!" deməlidir.**
**Sinif şagirdlərini "Ananın səsi" mahnısını xorla oxumağa dəvət edin.**

**ANANIN SƏSİ (ixtisarla)**

Ana qəlbim odlanır
Söz düşəndə davadan.
Bəs deyilmi, ey insanlar,
Töküldü qan, axdı qan?!
Bəs deyilmi qara torpaq
Su içdi göz yaşından?!

Mən anayam, bu səsimdə
Yerin, göyün dərdi var.
Sülhə gəlin, ey insanlar,
Yoxsa dünya məhv olar!

*Sözləri Novruz Gəncəlinin,*
*musiqisi Ələkbər Tağıyevindir.*

Layihə

**2a** **Nobel mükafatı haqqında nə bilirsiniz? Bu mükafatı almış hansı alim və yazıçıları tanıyırsınız?**

## NOBEL SÜLH MÜKAFATI

*Həyat ana təbiətin bizə bəxş etdiyi qeyri-adi hədiyyə, qiymətli daşdır. Biz bu daşı o qədər cilalamalıyıq ki, onun parıltısı yolumuza işıq salsın.*

Alfred Nobel

1847-ci ildə italyan kimyaçısı Askanio Sobrero nitroqliserin adlanan bir maddə kəşf etdi. Partlayıcı maddə olan nitroqliserinin müalicəvi xüsusiyyətləri də var idi. Askanio öz kəşfindən məhz təbabətdə istifadə etməyə çalışırdı. Bu məqsədlə heyvanlar üzərində təcrübələr aparırdı.

Başqa bir kimyaçı – Alfred Nobel isə nitroqliserinin partlayıcı xüsusiyyətləri ilə maraqlanırdı. Bir müddət sonra Nobel bu maddədən istifadə etməklə dəhşətli silah – dinamit ixtira etdi.



Alfred Nobel ixtiraçı olmaqla yanaşı, həm də bacarıqlı biznesmen idi. O, tez bir zamanda dinamitin istehsalı üçün zavodlar qurdu və onu dünyanın müxtəlif ölkələrinə ixrac etməyə başladı. Dinamitdən daha çox dağ-mədən işlərində, yolların və körpülərin salınmasında istifadə olunurdu. Lakin müharibələr dövründə dinamitə tələbat xeyli artırdı. Nobelin zavodları durmadan işləyir, müharibə zonalarına dinamit çatdırırdı. Alfred Nobel isə bunun hesabına zənginləşirdi. XIX əsrin sonuna yaxın o, dünyanın ən varlı adamlarından birinə çevrildi.

***

1888-ci ildə Nobelin böyük qardaşı Lüdviq[1] Fransada vəfat edir və fransız qəzeti onu Alfred Nobellə səhv salaraq “Ölüm taciri vəfat etdi” adlı **nekroloq** dərc edir. Bunun ardınca bəzi jurnalistlər Alfred Nobeli “dinamit kralı”, “ölüm saçan partlayıcı maddələr alverçisi” adlandırdılar.

“Ölümündən” sonra özü barədə yazılanları oxuyan Nobel çox məyus oldu. “Doğrudanmı bu dünyadan gedəndə heç kim məni yaxşı bir sözlə xatırlamayacaq?” – deyə düşündü. Bu hadisədən sonra o, bizneslə yanaşı, xeyriyyəçiliklə də məşğul olmağa başladı. Cəmiyyətdə əmin-amanlığın, firavanlığın bərqərar olunması naminə bir sıra təşkilatların yaradılmasında iştirak etdi.

[1] Lüdviq Nobel 1876-cı ildə qardaşları Robert və Alfredlə birlikdə Bakıda “Nobel qardaşları” neft şirkətini yaratmışdı. Gələcəkdə Nobel fondunun yaradılmasında bu şirkətin də böyük payı olmuşdur.

Layihə

1889-cu ildə vaxtilə Nobelin yanında işləmiş Berta fon Zuttnerin "Rədd olsun silah!" adlı kitabı nəşr olundu. Müəllif bu əsərində müharibə nəticəsində həyatı puç olmuş bir qadının taleyindən bəhs edirdi. Berta kitabını Nobelə göndərərək xahiş etdi ki, müharibələrin qarşısının alınması naminə **pasifist** layihələri maliyyələşdirsin. Əsərdən təsirlənən biznesmen Bertaya məktub yazaraq bildirdi ki, sülhə görə mükafat təsis etmək fikri var[2].

1895-ci il noyabrın 27-də Paris klublarından birində Alfred Nobel şahidlərin iştirakı ilə vəsiyyətnamə imzaladı:

*"Mənim bütün daşınar və daşınmaz əmlakım* ***vəkillərim*** *vasitəsilə pula çevrilməli, toplanmış bütün kapital etibarlı yerdə saxlanmalı və* ***fond*** *təşkil edilməlidir. Fondun məqsədi il ərzində bəşəriyyətə böyük xidmətlər göstərmiş şəxsləri pulla mükafatlandırmaq olmalıdır... Mükafat fondu beş bərabər hissəyə bölünməli və aşağıdakı qaydada təqdim edilməlidir: bir hissəsi – fizika sahəsində ən mühüm kəşf və ya ixtiraya görə; ikinci hissəsi – kimya sahəsində ən mühüm təkmilləşmə və ya kəşfə görə; üçüncü hissəsi –* ***fiziologiya*** *və tibb sahəsində ən mühüm kəşfə görə; dördüncü hissəsi – ədəbiyyat sahəsində ən görkəmli əsərə görə; nəhayət, beşinci hissəsi – xalqlar dostluğunun möhkəmləndirilməsinə ən böyük töhfəyə görə".*





Bundan bir il sonra 63 yaşlı Alfred Nobel dünyasını dəyişdi. Onun ölümündən sonra vəsiyyətinə əsasən Nobel fondu yaradıldı.

1901-ci ildən etibarən yaradılmış Nobel fondu hər il vəsiyyətnamədə sadalanan **nominasiyalar** üzrə böyük xidmətlər göstərmiş insanlara Nobel mükafatı verir. Maraqlıdır ki, ilk **laureatlar** arasında Beynəlxalq Qırmızı Xaç Komitəsinin təsisçisi Anri Dünan da var idi[3].

Alfred Nobel həyatı boyu 355 ixtiranın **patentini** alıb. Bunların böyük əksəriyyəti partlayıcı maddə və silahlarla bağlı olub. Onun yaratdığı 90-a yaxın zavodda minlərlə insanın ölümünə səbəb olan silahlar istehsal olunurdu. İndi Nobelin həyatı haqqında kitab yazan tarixçi-bioqraflar özlərinə və oxucularına sual verirlər: dünyanın ən nüfuzlu mükafat fondunu yaratmış Alfred Nobelin pasifist görüşləri onun **militarist** fəaliyyətinə haqq qazandırırmı?

**Söz boğçası**

- nekroloq • pasifist
- vəkil • fond • patent
- fiziologiya • laureat
- militarist • nominasiya

[2] Berta fon Zuttner 1905-ci ildə Nobel Sülh mükafatına layiq görülmüş ilk qadın olub.

[3] 1863-cü ildə yaradılmış Beynəlxalq Qırmızı Xaç Komitəsi yeganə təşkilatdır ki, üç dəfə Nobel Sülh mükafatına layiq görülüb.

Layihə

## Söz ehtiyatı

**b** **Kontekstdən və etimoloji izahlardan çıxış edərək sözlərin mənasını izah edin.**

Nümunə

*Nekroloq – kiminsə vəfatı ilə əlaqədar onun həyat və fəaliyyətini əks etdirən məlumat.*

**nekroloq** ⟶ yun. *necros* – ölü, *logos* – söz
**pasifist** ⟶ lat. *pacificus* – dinclik, əmin-amanlıq
**militarist** ⟶ lat. *militaris* – hərbi
**nominasiya** ⟶ lat. *nomen* – ad
**laureat** ⟶ lat. *laurus* – dəfnə (Qədim Romada qaliblərə dəfnədən hörülmüş çələng verirdilər.)

## Nə anladın?

**c** **Mətnə istinad edərək aşağıdakı fikirlərin doğru, yanlış, yoxsa ehtimal olduğunu əsaslandırın.**

**1.** Alfred Nobel dinamiti 1889-cu ildə ixtira etmişdir.
**2.** Nobel fondunun bir hissəsini Bakı neftindən əldə edilən gəlir təşkil edir.
**3.** Nobel mükafatı üzrə nominasiyalar arasında riyaziyyat sahəsində kəşflər xüsusi yer tutur.
**4.** Berta fon Zuttnerə Nobel mükafatını Anri Dünan təqdim etmişdi.

## Düşün və cavab ver

**ç** **Mətndəki məlumatlara əsasən Alfred Nobelin yaşadığı illəri müəyyən edin.**

**3 a** **Mətnin sonunda qoyulmuş suala siz necə cavab verərdiniz? Aşağıdakı sitata münasibət bildirin.**

> “Əgər müharibə tərəflərinin hər biri kütləvi qırğın silahına malik olsa, müharibəni dayandırarlar. Onlar başa düşərlər ki, belə müharibə hər bir tərəf üçün böyük tələfat və məğlubiyyətlə nəticələnəcək”.
>
> *Riçard Qatlinq (çoxlüləli pulemyot ixtiraçısı)*

**b** **Mətnin əvvəlində verilmiş epiqrafı şərh edin. Onu Nobelin həyatı ilə əlaqələndirin.**

**c** **“Nobel Sülh mükafatı” mətnini müşayiət edən illüstrasiyalara nəzər salın. Bu illüstrasiyalar bədii mətnlərə çəkilmiş illüstrasiyalardan nə ilə fərqlənir?**

**Diqqət et**

Qeyri-bədii mətndə verilən illüstrasiya, əsasən, müxtəlif sənədlərin fotosurətlərindən ibarət olur. Bu şəkillər oxucunu mətndə verilən informasiyanın həqiqiliyinə inandırmaq, real varlıq və hadisələrin vizual təsviri ilə tanış etmək məqsədi güdür.



Layihə

**ç** **Şəkilaltı şərhləri mətndəki illüstrasiyalarla uyğunlaşdırın.**

**1.** Alfred Nobelin öz əli ilə yazdığı vəsiyyətnamə (Paris. 1895)
**2.** Nobel fondunun sifarişi ilə hazırlanmış mükafat medalı
**3.** Alfred Nobel. 1891. San Remo

**d** **Haşiyələrdə verilmiş məlumatlara diqqət yetirin.**
- **Nə üçün bu məlumatlar haşiyədə verilmişdir?**
- **Mətndəki hansı şəxs və ya hadisə ilə bağlı əlavə məlumat almaq istəyərdiniz?**

## Dinləmə 01

**e** **Qeyd götürməklə "Sülhməramlı yardım təşkilatı" mətnini dinləyin və mətnin məzmununu əhatə edən beş sual hazırlayın.**

**4 a** **Nobel fondunun əsasnaməsindən seçilmiş maddələri oxuyun. Sizcə, nə üçün mükafatın verilmə qaydaları dəqiqliklə tərtib olunur?**

- Nobel mükafatı laureatı təşkilatlar deyil, ayrı-ayrı şəxslər ola bilər. Yalnız sülh mükafatı həm şəxslərə, həm də təşkilatlara verilə bilər.
- Nobel Sülh mükafatı beş nəfərdən ibarət Norveç Nobel Komitəsi tərəfindən verilir. Bu şəxslər Norveç parlamenti tərəfindən təyin olunur.
- Əgər komitə üzvləri müəyyən nominasiya üzrə iddiaçıları mükafata layiq görməsələr, həmin il müvafiq nominasiya üzrə mükafat verilməyə bilər.
- Mükafat hər il dekabrın 10-da – Alfred Nobelin anım günündə təqdim olunur.

## Yazı

**b** **Birlikdə müzakirə edərək sinfiniz üçün "İLİN ŞAGİRDİ" müsabiqəsinin əsasnaməsini hazırlayın.**
**Aşağıdakı məqamları nəzərə alın.**

**1.** Müsabiqənin qalibi hansı tələblərə cavab verməlidir?
**2.** Qalib kim tərəfindən müəyyənləşdiriləcək?
**3.** Müsabiqə qalibi necə mükafatlandırılacaq?

**Qlossari**
**Əsasnamə** – hər hansı təşkilatın fəaliyyətini, tədbirin keçirilməsini tənzimləyən qaydalar toplusu.

**Nümunə**
**1. Müsabiqənin qalibi aşağıdakı tələblərə cavab verməlidir:**
1.1. Bütün fənlərə dərindən yiyələnməli, dərs zamanı fəallıq nümayiş etdirməlidir.
1.2. Bilik yarışmalarında, layihələrdə iştirak etməli, uğurlu nəticə qazanmalıdır...

- **Sənədi kompüterdə tərtib edin, printerdə çap edərək divardan asın.**

Layihə

## Ədat

**5 a Fərqləndirilmiş sözlərin cümlədəki qrammatik funksiyasını izah edin.**

**1.** Alfred Nobel dünyanın **ən** varlı adamlarından birinə çevrildi.
**2.** Askanio öz kəşfindən **məhz** təbabətdə istifadə etməyə çalışırdı.

**Yadda saxla**

Köməkçi nitq hissəsilərindən biri olan **ədat** söz, söz birləşməsi və cümlələrin təsir gücünü artırır, cümləyə emosionallıq gətirir. Məsələn:
Sual mənasını gücləndirir: ***Bəs** niyə danışmırsan?*
Əmr mənasını gücləndirir: ***Qoy** hamının üzü gülsün!*
Məhdudlaşdırma mənası yaradır: *Biz **yalnız** sənə güvənirik.*
Özündən sonrakı ifadəni dəqiqləşdirir: *Biz **məhz** belə layihələrə üstünlük veririk.*
Özündən sonrakı ifadəni qüvvətləndirir: *Bu kitab **daha** maraqlıdır.*
*Ən, daha, lap* ədatları sifətin çoxaltma dərəcəsini yaradır: *ən böyük, lap balaca və s.*

**b Ədatları seçin və ifadə etdiyi mənanı müəyyən edin.**

| | |
|---|---|
| **1.** Unutma ha, sübhdən yola çıxırıq. | **a.** arzu |
| **2.** Gözəl havadır, bəs deyirdilər, külək olacaq? | **b.** dəqiqləşdirmə |
| **3.** Bu alqışlar məhz müharibə iştirakçılarının şərəfinədir. | **c.** əmr |
| **4.** Barı uğurlarımız bol olsun. | **ç.** sual |

Elə ədatlar var ki, şəkilçiləşərək sözə bitişik yazılır.
**-ca (-cə):** *Məsələni yerində**cə** həll etdik.*
**-mı (-mi, -mu, -mü):** *Bilirsiniz**mi,** biz Qori seminariyasında təzə şöbə açmışıq.*
**-sana (-sənə):** *Gözünü açıb bir ətrafına bax**sana.***

***-mı***$^4$ ədatı ***da, də*** köməkçi nitq hissələrindən sonra işləndikdə ayrı yazılır:
*Şuşaya da **mı** avtobusla gedirsiniz? Siz də **mi** xüsusi dəvət gözləyirsiniz?*
Təsdiq və inkar bildirən ***bəli, xeyr, hə, yox*** ədatları cümlədə vergüllə ayrılır:
***Bəli,** çox çalışmısınız. **Xeyr,** mən gəlmirəm.*

**c Ədatların yazılışında və vergülün işlənməsində buraxılmış səhvləri müəyyən edin.**

**1.** *Bəs*, baş əymədiniz?
– Əymədim *bəli*,
Əyilməz vicdanın böyük heykəli. *(Səməd Vurğun)*
**2.** Mənim nə dərdim var, *təki*, sən yaşa,
Of, Qacar, vicdanın döndü *mü* daşa? *(Səməd Vurğun)*
**3.** *Xeyr* ölməmişəm, hələlik sağam,
İndi mən ölümlə çarpışacağam. *(Səməd Vurğun)*
**4.** Kimə deyim dərdimi,
Qəsbkar namərdə *mi? (Səməd Vurğun)*

Layihə

**1a Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Hərəkatı haqqında bildiklərinizi xatırlayın. Sizcə, bu təşkilatlarda işləyən insanlar hansı keyfiyyətlərə malik olmalıdırlar?**

## "O MƏNİM BACIMDIR..."

Qızıl Aypara Cəmiyyətinin səyyar tibb məntəqəsi cəbhə xəttindən 40 kilometr aralıda – Ağdam rayonunun ərazisində yerləşdirilmişdi. Burada işləyən həkimlərdən biri əcnəbi idi. Əslən şotland olan cərrah Allen Maksvel hər gün bir neçə ağır yaralı üzərində əməliyyat aparmalı olurdu. Tibb bacılarından yalnız Aygün ingilis dilini bildiyindən daim onun yanında olur, yaralılarla ünsiyyətinə kömək edirdi.

Günorta xəbər gəldi ki, düşmən cəbhə bölgəsindəki kəndlərimizdən birini bombardman edib. Bir azdan yaralıları maşınla tibb məntəqəsinə gətirəcəkdilər. Doktor Maksvel göstəriş verdi ki, böyük palatalardan birini onlar üçün hazırlasınlar.

Yaralılar arasında dörd uşaq da var idi. Yeddi yaşlı bir qız uşağının vəziyyəti çox ağır idi. Mərmi qəlpəsi onun çiynini yaralamış, qız xeyli qan itirmişdi. Allen Maksvel ilk növbədə həmin qızı əməliyyat otağına aparmağı tapşırdı. Doktor onu müayinə etdikdən sonra bildirdi ki, yaralıya təcili qan köçürülməlidir. Tərslikdən qızın qanı nadir qan qrupundan idi.

O dəqiqə məntəqəyə xəbər yayıldı: "Yeddi yaşlı qızı xilas etmək üçün qan lazımdır. IV qan qrupu olan könüllülərdən xahiş olunur ki, tibb bacısı Aygünə müraciət etsinlər".

Yeni gələn uşaqlardan biri – doqquz yaşlı bir qız həyəcan içində əməliyyat otağının qarşısında vurnuxurdu. O axsayırdı, bombardman zamanı qaçarkən ayağı burxulmuşdu. Lakin ağrılara fikir vermədən yalvarıcı nəzərlərlə otağa girib-çıxanlara baxır, içəridən bir xəbər bilməyə çalışırdı. Nəhayət, o, əməliyyat otağına daxil olan Aygünün xalatından yapışdı:



– Xala, olar, mən də içəri keçim?

– Yox, balaca, bu otağa girmək olmaz. Get palatana, həkim indi gəlib ayağına baxar.

– Nə olar, qurban olum, qoy keçim də! Axı o mənim bacımdır.

Aygün: "Yox, yox, olmaz", – deyib içəri keçmək istəyirdi ki, birdən ayaq saxlayıb qıza tərəf döndü:

– Doğrudan, sənin bacındır?

– Hə, vallah, bacımdır.

Aygün qızın əlindən tutub doktor Maksvelin yanına gətirdi:

– Doktor, bu qız pasiyentin bacısıdır, – dedi. – Bəlkə, qan qrupları eynidir?

– Axı o lap balacadır.

– Başqa çarəmiz yoxdur, doktor. Məncə, problem olmaz. Sağlam qıza oxşayır.

– Yaxşı, qanını analiz edin.

Layihə

Bir azdan məlum oldu ki, bacıların qan qrupu eynidir. Allen Maksvel qıza yaxınlaşıb soruşdu:

– Adın nədir?

– Nərminə.

Aygün onların danışığını tərcümə edirdi.

– Nərminə, bacın çoxlu qan itirib. Öz qanından ona verməyə razısan?

Nərminənin gözləri yaşardı. Titrək səslə dedi:

– Yoxsa ölər? – deyə soruşdu.

Doktor qeyri-müəyyən tərzdə başını tərpətdi. Qız dedi:

– Hə, razıyam.

Nərminəni çarpayıda uzatdılar. O, bir müddət damarından çıxan qanın şüşəyə necə dolduğuna baxdı. Sonra üzünü yana çevirib hıçqırmağa başladı. Qızcığaz tir-tir əsirdi. Maksvel narahat oldu:

– Nə olub, Nərminə, ağrıdır?

– Yox, – deyə Nərminə ağlaya-ağlaya cavab verdi.

Qanköçürmə əməliyyatı bitdi. Nərminə gözünü yumub çarpayıda uzanmışdı. Doktor yaxınlaşıb Nərminənin başını sığalladı:

– Çox sağ ol, Nərminə, sən yaxşı bacısan.



Nərminə gözlərini açıb soruşdu:

– O sağalacaq?

– Əlbəttə, söz verirəm.

– Bəs mən nə vaxt öləcəyəm?

Aygün bu sözləri tərcümə edəndə Allen Maksvel özünü itirdi.

– Sən niyə ölməlisən ki?

– Axı siz mənim qanımı aldınız.

– Nərminə, biz sənin qanının az bir hissəsini aldıq. Bundan heç nə olmur. Belə şeydən adam ölmür ki.

Sonra qızcığaza baxıb soruşdu:

– Öləcəyini düşünürdünsə, niyə qanını verməyə razı oldun?

– Axı o mənim bacımdır...

Maksvel heyranlıqla başını bulayıb Aygünə dedi:

– Neçə ölkədə işləmişəm, sizin insanlardakı altruizmə heç yerdə rast gəlməmişəm.

*Dilrüba Cəfərova*

## Söz ehtiyatı

**b** **Lüğət vasitəsilə “pasiyent” sözünün mənasını və etimologiyasını araşdırın.**
- **“Pasiyent” sözü ilə “xəstə” sözü arasındakı məna fərqini müəyyənləşdirin.**
- **Sizcə, “xəstə” sözü olduğu halda, dilimizə “pasiyent” sözünü gətirməyə ehtiyac varmı?**

Layihə

**c** **Mətnin sonunda Maksvelin işlətdiyi "altruizm" sözünün mənasını izah edin. Mətndə hansı obrazı "altruist" adlandırmaq olar?**

**ç** **Cütlərlə iş. Lüğətdən istifadə etməklə aşağıdakı antonimlərin mənalarını müəyyənləşdirin, "-izm" və "-ist" şəkilçiləri arasındakı fərqi izah edin.**

*optimizm* → *pessimizm*    *pasifizm* → *militarizm*
↓ ↓    ↓ ↓
*optimist* → *pessimist*    *pasifist* → *militarist*

## Düşün və cavab ver

**2 a** **Səyyar tibb məntəqəsini necə təsəvvür edirsiniz? Nə üçün səyyar tibb məntəqələri məhz döyüş bölgələrində qurulur?**

**b** **Mətndə hansı məlumatlar təhkiyəçinin, hansılar obrazların dilindən verilir?**

**1.** Kəndin bombardman edilməsi
**2.** Bacısını xilas edən qızın adı
**3.** İnsanlarımızın fədakar olması
**4.** Nərminənin ayağının burxulması
**5.** Qızların bacı olması

**c** ***"Fədakarlıq bir insanın başqasına nələr verdiyi deyil, başqasına görə özünün nələrdən imtina etməyidir"* deyimini mətnlə əlaqələndirərək şərh edin.**

## Dinləmə 02

**ç** **"Yurdda sülh, cahanda sülh!" mətnini dinləyin və sualları cavablandırın.**

- Mustafa Kamal Atatürk Türkiyə dövlətinə hansı xidmətləri göstərmişdir?
- "Yurdda sülh, cahanda sülh!" şüarı necə yarandı?
- Bu şüarın Türkiyənin dövlətçilik prinsipinə çevrilməsi hansı faktlarla təsdiq olunur?

**d** **M.K.Atatürkün *"Ən böyük zəfər silahsız qazanılandır"* deyimini izah edin və dinləmə mətni ilə əlaqələndirin.**

## Yazı

**3 a** **"Dünyamıza sülh gərəkdir" mövzusunda esse yazın.**

- Mövzu ilə bağlı fikirlərinizi sistemləşdirərək yazacağınız mətnin planını tərtib edin.
- Fikirlərinizi əsaslandırmaq üçün tarixi faktlardan və sitatlardan istifadə edin.
- Şəxsən tanıdığınız və ya haqqında eşitdiyiniz Qarabağ qazilərinin və şəhidlərimizin həyatından nümunələr gətirin.

Layihə

# Ədat və bağlayıcıların qrammatik omonimliyi

**4 a Cümlələrdə "ki" sözünün funksiyasına diqqət edin və uyğunluğu müəyyənləşdirin.**

**1.** Mən eşitmişəm ki, Çində qırx ilə bir çini qab düzəldirlər.
**2.** Uşaq deyilsən ki.

**a.** Cümlənin təsir gücünü artırır, ədatdır.
**b.** Cümlələr arasında əlaqə yaradır, bağlayıcıdır.

**Yadda saxla** "Ki" bağlayıcı, ədat və şəkilçi kimi

*Ki* bağlayıcısı, adətən, mürəkkəb cümlənin tərkib hissələri arasında işlənir. *Ki* bağlayıcısından sonra **vergül qoyulur:**
- *Yağış yenicə kəsmişdi **ki,** külək başladı.*

*Ki* ədatı cümlənin ortasında və ya sonunda işlənərək ona emosionallıq və sual məzmunu gətirir. *Ki* ədatından sonra **vergül qoyulmur:**
- *Sən **ki** həmişə onu tərifləyirdin.*
- *Sinoptiklərin proqnozunu dinləməmişdin **ki?***

***-ki***$^4$ həm də leksik şəkilçidir və sözə bitişik yazılır: *indi**ki** uşaqlar*

**b "Ki"nin funksiyasını müəyyən edin. Hansı cümlələrdə "ki" sözə bitişik yazılmalıdır?**

**1.** Burada təəccüblü nə var ki?!
**2.** O bilirdi ki, anası narahatdır.
**3.** Bu yol ki kəndə aparır.
**4.** Sən ki tapşırığın öhdəsindən gəlirsən.
**5.** Dünən ki imtahanda iştirak edirdin?
**6.** Sizin ki daha maraqlı təqdimat oldu.

**Yadda saxla** "Da", "də" bağlayıcı, ədat və şəkilçi kimi

***Da***, ***də*** kontekstdən asılı olaraq, həm bağlayıcı, həm də ədat kimi işlənir. Cümlədə ***da, də*** bağlayıcısı iştirak məzmunu ifadə edir:
- *Bizdə şeir **də** var, sənət **də** vardır. (Səməd Vurğun)*
- *Sən danışdıqca mən **də** yavaş-yavaş olanları xatırlayıram.*

***Da, də*** ədat kimi cümlədəki fikri qüvvətləndirir, adətən, cümlənin sonunda işlənir: *Niyə susursan, danış **da!***

***-da***$^2$ həm də yerlik hal şəkilçisidir və sözə bitişik yazılır:
- *Müsabiqə**də** iştirak edən şagirdlər çox məsuliyyətlidirlər.*

**c "Da", "də"-nin funksiyasını müəyyən edin. Hansı cümlədə "da", "də" sözə bitişik yazılmalıdır?**

**1.** Qonaqlarla yanaşı, ev sahibləri də maraqlı gün keçirdilər.
**2.** Həyət də sınan ağacın ətrafına xeyli insan toplaşmışdı.
**3.** Qoy nəticələr açıqlansın, müzakirə edərik də.
**4.** Danışın da, necə gedib gəldiniz, Şuşanı necə gördünüz?
**5.** Mən də öz təcrübəmdən çıxış edirəm.

Layihə

**1a Mətnə göz gəzdirin, illüstrasiyalara baxın.
Sizcə, bu mətn bədii, yoxsa informativ mətndir?**

## 17 YAŞLI NOBEL MÜKAFATI LAUREATI

...Avtobus məktəb həyətindən çıxıb şəhərin dolanbac yolları ilə hərəkət etməyə başladı. 9-cu sinif şagirdi Məlalə arxa sıralardan birində rəfiqəsi Moniba ilə yanaşı əyləşmişdi. Döngələrin birində iki cavan oğlan avtobusun qarşısına çıxıb əl elədi. Sürücü maşını saxlamağa məcbur oldu. Saqqallı üzlərini əl dəsmalı ilə örtmüş cavanlar avtobusa daxil oldular. Onlardan biri qışqırdı:

– Məlalə kimdir?

Heç kimdən səs çıxmadı. Ancaq bəzi qızlar həyəcanla Məlaləyə tərəf baxdılar. Bu, saqqallının gözündən yayınmadı. O, əlindəki qara tapançanı yuxarı qaldırıb Məlaləyə tərəf tuşladı. Atəş səsi eşidildi. Məlalə başında küt ağrı hiss etdi. Gözləri qapandı. Huşunu itirməmişdən əvvəl daha iki atəş səsi və qızların çığırtısını eşitdi...

***



Məlalə Pakistanın Svat vilayətində yaşayırdı. Onun atası Ziyaəddin bu vilayətin tanınmış ziyalılarından biri, təhsil fədaisi idi. Məlalə də atasının açdığı məktəbdə təhsil alırdı.

2007-ci ildə Svat vilayəti Taliban hərbi birləşmələri tərəfindən işğal olundu. Taliban İslam dini pərdəsi altında fəaliyyət göstərən **terrorçu** təşkilat idi. Onlar tutduqları ərazilərdə cəhalət yayır, musiqi dinləməyi, film izləməyi, rəqs etməyi qadağan edirdilər. Taliban 400-ə yaxın məktəbin fəaliyyətini dayandırmış, bəzilərini yerlə yeksan etmişdi.

Bir gün Məlalənin atası talibançılardan məktub aldı: "Cənab, işlətdiyiniz məktəb kafir yetişdirir. Siz qızlara təhsil verir və onlara islama zidd forma geydirirsiniz. Buna son verin, başınıza bəla açmayın". Lakin Ziyaəddin bu **təhdidlərə** qarşı müqavimət göstərir, məktəbin fəaliyyətini davam etdirirdi.

O zaman Məlalənin 10 yaşı vardı. O, dərslərinə səy göstərir, çoxlu mütaliə edirdi. Balaca qız heç cür Talibanın təhsilə qoyduğu qadağalarla barışa bilmir, hər yerdə deyirdi: "Onlar bizə məktəbə getməyi qadağan edə bilərlər, lakin öyrənməyi əlimizdən ala bilməzlər".

Məlalənin 11 yaşı olanda telejurnalistlərdən biri ondan müsahibə aldı. Məlalə öz çıxışında Taliban idarəçiliyi altında olan bölgələrdə qızların acınacaqlı vəziyyəti haqqında danışdı və onların təhsil hüquqlarının müdafiəçisi kimi çıxış etdi. Beləliklə, o nəinki Pakistanda, hətta onun hüdudlarından kənarda məşhurlaşdı. BBC (bi-bi-si) radiokanalı ona həyatı haqqında **bloq** yazmağı təklif etdi və Məlalə 12 yaşından etibarən BBC-nin internet səhifəsi üçün "Gül Makay" **təxəllüsü** altında bloq yazmağa başladı.

Layihə

2012-ci il 9 oktyabr... Məlalə imtahandan çıxıb məktəb avtobusunda evə qayıdarkən terrorçular tərəfindən sui-qəsdə məruz qaldı.

Güllə yarası almış qız xəstəxanaya yerləşdirildi. Daha sonra beynəlxalq təşkilatların köməyi ilə Məlalə İngiltərənin Birmingem şəhər xəstəxanasına köçürüldü.

Bir çox ictimai xadimlər və dövlət başçıları, o cümlədən ABŞ dövlət katibi Hillari Klinton bu sui-qəsdi pisləyir, Məlalənin cəsarətini yüksək qiymətləndirirdilər. BMT-nin baş katibi Pan Gi Mun bu pakistanlı qızın doğum gününü Məlalə Günü elan etdi. Beləliklə, hər il 12 iyul bütün dünyada Məlalə Günü kimi qeyd olunur. Məlalənin BMT-dəki çıxışı bu sözlərlə yadda qaldı: **“Bir uşaq, bir müəllim, bir kitab, bir qələm dünyanı dəyişdirə bilər. Təhsil dünyadakı problemlərin yeganə həll yoludur”.**

Beləliklə, Birmingem Məlalənin ikinci vətəni oldu. O, uşaq hüquqlarının müdafiəsi üzrə Məlalə Fondunu yaratdı. Afrika və Asiyanın geridə qalmış ölkələrini gəzərək uşaq və yeniyetmələrin təhsil, sağlamlıq və digər hüquqlarını müdafiə etməyə başladı.

2014-cü ildə 17 yaşlı Məlalə uşaqların təhsil almaq hüququ uğrunda mübarizəsinə görə Nobel Sülh mükafatına layiq görüldü və bu mükafata layiq görülmüş ən gənc laureat oldu.

2012-ci il oktyabrın 9-da Taliban terrorçusunun “Məlalə kimdir?” sualına cavab olaraq 2013-cü ildə o, “Məlalə mənəm” adlı kitab nəşr etdirdi.



**Söz boğçası**

- terror • bloq
- təhdid • təxəllüs




## Söz ehtiyatı

**b** ***Terror, müharibə, genosid*** **sözləri arasındakı məna fərqini izah edin.**

## Düşün və cavab ver

**c** **Mətndəki məlumatlara əsasən sübut edin ki, Məlalə 1997-ci il iyulun 12-də anadan olub.**

**ç** **Məlalənin BMT-dəki çıxışından sitatı (mətndə fərqləndirilib) şərh edin.**

**d** **Mətndə xronoloji ardıcıllığa riayət olunsa, girişdəki hissə hansı abzasdan sonra verilməlidir? Sizcə, nə üçün müəllif həmin hissəni əvvəldə verib?**

**e** **Bu fəsildə aldığınız məlumatlardan çıxış edərək aşağıdakı sualı cavablandırın. “Nobel Sülh mükafatı hansı fəaliyyətə görə verilir?”**

Layihə

# Modal sözlər

**2 a** **Fərqləndirilmiş sözləri nəzərə almaqla uyğunluğu müəyyən edin.**

**1. Deyəsən,** bütün uşaqlar gəzintiyə çıxacaqlar.
**2. Şübhəsiz,** elmli olan güclü olar.
**3. Beləliklə,** konfrans uğurla başa çatdı.

**a.** Əminlik bildirir.
**b.** Nəticə bildirir.
**c.** Güman, şübhə bildirir.

**Yadda saxla**

**Modal söz** köməkçi nitq hissələrindən biridir. O, cümlənin ümumi məzmunu ilə bağlı olur: fikrə münasibət ifadə edir, fikirlər arasında əlaqə yaradır, fikrin mənbəyini bildirir.

**Danışanın fikrə münasibəti:**
- ***Əlbəttə,*** *mənə verdiyin kitab çox maraqlıdır.* (<u>əminlik</u>)
- *Artıq gecdir,* ***bəlkə,*** *oyunu saxlayaq?* (<u>güman, şübhə</u>)
- ***Sanki*** *bütün bu deyilənlərdən xəbərsizsən.* (<u>bənzətmə, müqayisə</u>)
- ***Əfsus ki,*** *bu qaydalara əməl olunmur.* (<u>təəssüf</u>)

**Fikirlər arasında əlaqə:**
***... Üstəlik,*** *o dövrdə ordumuz da olduqca zəif idi.* (<u>əvvəlki fikirlə əlaqə</u>)
***Beləliklə,*** *Vaqif Mustafazadə muğamı cazla sintez elədi.* (<u>nəticə, ümumiləşdirmə</u>)
***Əvvəla,*** *adam hər şeydən inciməz,* ***ikincisi,*** *onun fikrində həqiqət var.* (<u>sıra, ardıcıllıq</u>)

**Fikrin mənbəyi:**
***Fikrimcə,*** *igid gərək ehtiyatı əldən verməsin.*

**b** **Modal sözləri və onların cümlədəki məna xüsusiyyətlərini müəyyən edin.**

**1.** İnsanlar, heyif ki, şəhərin təmizliyinə riayət etmirlər.
**2.** Məncə, belə həssas məsələyə səbirlə yanaşmaq lazımdır.
**3.** Bəlkə, məlumatsız olduğumuz məsələ haqqında danışmayaq?
**4.** Təbii ki, onun bu davranışı hamının təəccübünə səbəb oldu.
**5.** Xülasə, bu təklifi hamı yekdilliklə bəyəndi.
**6.** Bu sözdən sonra elə bil qurbağa gölünə daş atdılar.

**a.** *fikrin mənbəyi*
**b.** *əminlik*
**c.** *bənzətmə*
**ç.** *təəssüf*
**d.** *güman, şübhə*
**e.** *ümumiləşdirmə*

**c** **Fikirlər arasında əlaqə yaradan modal sözləri cümlələrlə uyğunlaşdırın.**

a) sadəcə b) deməli c) əksinə ç) beləcə

**1.** Otağın işığı yanır, ..., Vüqar hələ yatmayıb.
**2.** Onlar yolboyu xeyli söhbət etdilər, ..., gəlib kəndə çatdılar.
**3.** Yox, özümü yaxşı hiss edirəm, ..., bir az yorğunam.
**4.** Biz ruhdan düşmədik, ..., daha əzmlə növbəti yarışa hazırlaşmağa başladıq.

Layihə

1 **a** **44 gün sürən II Qarabağ müharibəsi və 2023-cü il sentyabrın 19-u və 20-də Qarabağda gedən döyüşlər haqqında bildiklərinizi danışın.**

**b** **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətindən seçilmiş hissələri oxuyun və sualları cavablandırın.**



...Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın **dırnaqarası** rəhbərləri o insanları girov götürmüşdülər, onların beyinlərini zəhərləmişdilər... Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.

...Onların bütün hüquqları təmin ediləcək – təhsil hüquqları, mədəniyyət hüquqları, din hüquqları, munisipal seçki hüquqları... Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq.

*Prezident İlham Əliyevin xalqa müraciətindən*
*2023-cü il 20 sentyabr*

**c** **Qarabağda baş verən faciələrin səbəbkarı kim idi?**

**ç** **Prezidentin müraciətinə istinad edərək Azərbaycanda yaşayan müxtəlif xalqlarla bağlı dövlət siyasətinin təməl prinsiplərini izah edin.**

**d** **Kontekstdən çıxış edərək "dırnaqarası" sözünü izah edin.**

**Qlossari**

**Munisipal** – yerli idarəçilik sisteminə aid olan; bələdiyyə.
**Konfessiya** – dini cərəyan, məzhəb, təriqət.

Layihə

# Qara tut ağacı

**I hissə** *2023-cü il... 20 sentyabr... Unudulmaz tarix. 30 ildən çox düşmən tapdağı altında qalan Qarabağ tam nəzarətə götürüldü. Burada məskunlaşmış bir çox ermənilər Azərbaycanı könüllü tərk edib Ermənistana üz tutdular. Bu görüntülər bütün sosial şəbəkələrdə yayılır, telekanallarda nümayiş olunurdu. Azərbaycan jurnalistləri Qarabağdan köçən ermənilərdən müsahibələr alırdılar...*

**e** **Təsəvvür edin ki, jurnalistsiniz və sizə Qarabağı tərk edən ermənidən müsahibə almaq tapşırığı verilib. Ona hansı sualları verərdiniz?**



– Salam. Siz niyə köçürsünüz?

– Nə bilim... – Yük maşını ilə Ermənistana gedən Aşot təmiz Azərbaycan dilində cavab verdi. – Yəqin, belə lazımdır... Bura qayıdan azərbaycanlıların üzünə necə baxaram? O qonşularım, çörək kəsdiyim türklər deməzlərmi ki?.. Yox, mən qala bilmərəm!

– İki gün əvvəl Prezidentimiz televiziya ilə çıxışı zamanı dedi ki, Azərbaycan vətəndaşı olan ermənilər üçün lazımi şərait yaradılacaq, onların hüquqları, təhlükəsizliyi təmin olunacaq...

– Elədir. Amma daha burada qalmağım mümkün deyil...

– Sizin rahat köçməyinizə şərait yaradılıbmı, nədənsə şikayətçi deyilsiniz?

– Yox, şikayətim yoxdur.

– Sizə dəyib-toxunan yoxdur? Könüllü gedirsiniz?

– Hə... Könüllü...

– Yaşınız az deyil. Yəqin, azərbaycanlıların Qarabağdan necə çıxarıldığını unutmamısınız?

Bayaqdan kədər və üzgün dolu baxışlarla kameradan gözlərini yayındıran Aşot qəfil coşdu:

– Unutmamışam! Elə ona görə də gedirəm!..

– 90-cı illərdə azərbaycanlılara qarşı döyüşmüsünüz?

– Yox, döyüşməmişəm!.. – Aşot daha da əsəbiləşdi.

Amma jurnalist əl çəkmir, müsahibini daha çox danışdırmağa çalışırdı.

– Onda niyə vicdan əzabı çəkirsiniz? Qalın, yenidən dostlaşın, mehriban olun.

– Dedim axı, mən... **Onun yanında üzüm qaradır...** Daha danışmaq istəmirəm! Siz başa düşməzsiniz... – deyib maşının şüşəsini qaldırdı.

Layihə

## Nə anladın?

**ə** **Doğru fikri seçin və mətnə istinad etməklə əsaslandırın.**

**a.** Aşot azərbaycanlıların ondan qisas alacağından qorxduğu üçün Qarabağı tərk edirdi.
**b.** Vicdan əzabı rahatlıq vermədiyi üçün Aşot Azərbaycanda qala bilməzdi.

## Düşün və cavab ver

**f** **Oxuduğunuz mətni mövzu və məzmun baxımından Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 2023-cü il tarixli müraciəti ilə əlaqələndirin.**

**g** **Mətndəki müsahibədə jurnalistin əsas məqsədi nə idi? Sizcə, o öz məqsədinə çata bildimi?**

**ğ** **Oxudan əvvəl tərtib etdiyiniz suallarla jurnalistin suallarını müqayisə edin.**

**Diqqət et**

Müsahibədə əsas məqsəd qarşı tərəfdən mümkün qədər çox informasiya almaqdır. Gəlin bu baxımdan mətndəki müsahibədə jurnalistin suallarını təhlil edək.

**Sual:** – Salam. Siz niyə köçürsünüz?
**Şərh:** "Niyə?", "nə üçün?", "necə?" əvəzliklərinin köməyi ilə qurulan sual cümlələri, adətən, müsahibi ətraflı danışmağa, daha çox informasiya verməyə sövq edir.

**Suallar:** – Sizin rahat köçməyinizə şərait yaradılıbmı, nədənsə şikayətçi deyilsiniz?
– Sizə dəyib-toxunan yoxdur? Könüllü gedirsiniz?
**Şərh:** Sual ədatları və intonasiya ilə yaranan suallar qapalı suallardır. Adətən, müsahib onlara ya "hə", ya da "yox" cavabı verir. Beləliklə, müxbir kifayət qədər informasiya ala bilmir.

**Suallar:** – Yaşınız az deyil. Yəqin, azərbaycanlıların Qarabağdan necə çıxarıldığını unutmamısınız.
– 90-cı illərdə azərbaycanlılara qarşı döyüşmüsünüz?
**Şərh:** İttiham xarakterli suallardır. Müsahibə alan öz mövqeyini büruzə verməməlidir. Göründüyü kimi, bu suallardan sonra qarşı tərəf əsəbiləşdi və müsahibəni davam etdirmək istəmədi.

**h** **Aşağıdakı sualları oxuyun və şərh edin.**

*– Deyəsən, keçmişdə baş vermiş kədərli hadisələr sizə rahatlıq vermir. Bəlkə, o xatirələrinizi bölüşəsiniz, Qarabağı bu ağır dərdlə tərk etməyəsiniz?*

*– Yəqin ki, o qonşularınız, çörək kəsdiyiniz azərbaycanlılar bu müsahibəni efirdə görəcəklər. Onlara nə demək istəyərdiniz?*

- **Suallarla bağlı uyğun variantı seçin və fikrinizi əsaslandırın.**

**a. Qərəzli suallardır.** **b. "Danışdıran" suallardır.** **c. Qapalı suallardır.**

Layihə

**2 a** **Müharibə mövzusunda hansı bədii əsərləri oxumusunuz? Bu əsərlər tarix dərsliklərində müharibələr haqqında yazılmış mətnlərdən nə ilə fərqlənir?**

**Diqqət et**

Bədii əsərin məzmunu insan taleyi və obrazlar arasındakı münasibətlər üzərində qurulur. Müharibə mövzusunda olan əsərlərdə müəllif müharibənin acı nəticələrini məhz insan taleləri vasitəsilə əks etdirir.

**b** **“Qara tut ağacı” mətnində Aşot “Onun yanında üzüm qaradır” deyəndə, sizcə, kimi nəzərdə tuturdu? Nəyə görə o həmin şəxslə görüşməkdən çəkinirdi?**

## II hissə



– Baba, gözün aydın! Xocalı qayıtdı, ermənilər Xankəndini də boşaltdılar.

Əmir kişi kompüterin monitorunda reportaja diqqətlə baxdı. Gözünün yaşını nəvəsindən gizlətməyə çalışaraq kövrək səslə:

– Şükür, Xudaya, şükür! – dedi.

Sonra nə isə xatırlayıbmış kimi bir də gözünü monitora dikdi:

– Qızım, bir də qoy baxım, bu adam mənə tanış gəldi.

Əmir kişi həyəcanla davam etdi:

– Tanıdım! Bu, yuxarı məhəllədən Aşotdur. Şəklini böyüt görüm. Həə, odur, özüdür ki var! Qızım, bu, indi hardadır?

– Xocalıdan Laçın postuna gedirlər. Yollar tıxacdır deyə qalıblar yolda.

Baba tez durub pencəyini götürdü:

– Onu görməliyəm, hökmən görməliyəm!

On səkkiz yaşlı Günay:

– Baba, hara gedirsən? Tək getmə, – deyib onunla bərabər çıxdı.

***

Baba və nəvə birbaşa üz tutdular rayon icra hakimiyyətinə. Rayonun ağsaqqalı olduğundan hamı Əmir kişinin hörmətini saxlayırdı. “Başçı ilə görüşəcəyəm”, – deyib içəri girdi.

– Salam, qadan alım, mən o ermənini görməliyəm.

Başçı söhbətin nədən getdiyini bilmirdi:

– Ay Əmir dayı, bir dayan görək. Kimi görməlisən, niyə görməlisən? Ətraflı danış görüm.

Günay telefonu açıb videonu göstərdi. Əmir kişi bir az sakitləşib aram-aram izah etdi:

Layihə

– Oğlum, bu videoda gördüyün Aşotdur, yuxarı məhəllədən qonşumuz. Biz qaçqın düşəndə oğlum Tuqay yaralanmışdı. Onların evində gizlətdik, özümüzlə gətirə bilmədik. Aşot bizə erməni döyüşçülərdən qaçmaq üçün kömək etdi. Amma sonra oğlumdan heç bir xəbər tuta bilmədim. Bütün əlaqələr kəsildi. Hara yazdım, əlac olmadı. Xəbər-ətər çıxmadı.

Sonra dodaqları əsə-əsə:



– Mən onu görməliyəm ee, görməliyəm, – dedi. – O bilir oğlumun taleyini. Ölübsə də, heç olmasa, qəbrinin yerini deyər. Uzun sözün qısası, qurban olum sənə, başçı, kömək elə. O getsə, bir də məlumat ala bilməyəcəm...

Başçı sarsılmışdı. Nə deyəcəyini, necə edəcəyini bilmirdi. Həm Əmir dayının halına acıyır, həm də onu Aşotla necə görüşdürəcəyini düşünürdü. Əmir kişinin sözləri onun **sinəsini dağlayırdı:**

– Ümidim sənədi, oğul. Anası “balam!” deyə-deyə köçdü bu dünyadan. Tuqay on üç yaşında idi. **Bığ yeri təzəcə tərləmişdi**. Otuz ildir, onun son baxışları yuxuma girir. Dili ilə: “Siz gedin”, – desə də, gözləri: “Məni buraxma, ata!” – deyirdi. Bilirsən, qızlarımdan, namusumuzdan qorxdum. Dedim: “Dalınca qayıdacam!” Qayıda bilmədim...

Başçı yaşarmış gözlərini silib kiməsə zəng vurdu. Vəziyyəti izah etdi. Telefonun o tərəfindən: “Həmin videonu mənə göndər!” – səsi eşidildi. Bir saat keçməmiş iki nəfər maşınla gəlib Əmir kişini götürdü və onlar üzü Qarabağa yola çıxdılar.

Əmir kişi fikirli halda kələ-kötür yollara baxırdı. “Bəlkə də, yaşayır...” – deyə pıçıldadı. “Yəni Aşot ona qıyar ki?! **Bir ton çörək kəsmişik.** Onun qızının müalicəsi üçün o boyda var-dövlətimdən keçmişəm...”

**C Mətnin davamını təxmin edin. Oxuduğunuz hissədə obrazların nitqinə istinad edərək təxminlərinizi əsaslandırın.**

### III hissə

Əmir kişi heç nə demədən Aşotun üzünə baxır, nəsə soruşmağa cəsarəti çatmırdı. Aşot da bir müddət ona baxdı. Sonra başını aşağı salıb dedi:

– Bağışla, Əmir! Bacarmadım. Əmanətinə sahib çıxa bilmədim.

Əmir onun yaxasından tutub silkələdi:

– Necə yəni bacarmadım? Necə yəni?.. Axı onu sənə tapşırmışdım! Oğluma nə etdin? Öldürmüsən?! Heç olmasa, yerini de!.. – Bayaqdan qisas hissi ilə alovlanan Əmir kişi birdən-birə günahkar adamlar kimi yalvarmağa başladı. – Xahiş edirəm, de, yerini de...

Aşotun içindən Əmiri qucaqlamaq, ayaqlarına düşüb yalvarmaq, üzr istəmək keçsə də, bacarmırdı. Üzrxahlığa üzü yox idi. Günahını hiss edirdi, amma bağışlanmağa, az da olsa, ümidli idi.

Layihə

– Çarəsiz qaldım, Əmir! Siz gedəndən sonra oğlun Tuqayı etibarlı yerdə gizlətdim. Hər gün yanına gedib yeməyini, içməyini verirdim. Fikirləşirdim ki, ara sakitləşəndən sonra birtəhər qaçıraram siz tərəfə. Amma, yəqin ki, qonşulardan kimsə **duyuq düşüb** Vitali Abramyana xəbər vermişdi. Bir gün Vitali başının dəstəsi ilə evimə gəldi. Oğlunun yerini soruşdu. Əvvəl demədim. Məni xeyli döysələr də, işgəncələrə dözdüm. Amma sonra tüfəngi arvadımla qızımın başına dirədilər. Deməsəm, onları gözümün qabağında öldürəcəkdilər. Əlacım qalmadı, Əmir, tək idim... Gücüm çatmazdı onlara. Mən də atayam. Mənim yerimə sən olsan, nə edərdin, hə?

Əmir kişi ürəyinin dərinliyində basdırmaq istədiyi həqiqəti indi ucadan eşitdi... Xırıltılı səslə:

– Qəbri... qəbri hanı?! Hardadı?! – bağıra bildi sadəcə...

– Sizin həyətdəki qara tut ağacının yanında **dəfn etdim.** Bilirsən, Əmir, bütün ağaclar qurudu getdi, bircə o qara tut ağacı hələ də qalıb. Amma o ildən sonra bir də bar vermədi. Eləcə **yaşadı** qara tut. Bu otuz ildə nə qədər **qulluq elədim,** baxdım, suladım, budadım, bəhər vermədi ki, vermədi... Nəfəs almadı, amma yaşadı qara tut, – deyib Əmir kişinin qabağında diz çöküb **hönkürdü.** – Məni bağışla!..

*Şəmil Sadiq*



## Nə anladın?

**ç Mətndən nümunələr gətirməklə verilən fikirləri əsaslandırın.**

**1.** Aşot Tuqayı ailəsinə təhvil verə biləcəyinə inanırdı.
**2.** Həm Əmir kişi, həm də Aşot çətin anlarında bir-birinə dayaq durmuşdular.
**3.** Əmir kişi oğlunun taleyi ilə bağlı hələ də ümidini itirməmişdi.
**4.** Əmir kişinin naxələf qonşuları da var idi.
**5.** Aşot Tuqayı asanlıqla düşmənə təslim etmədi.

## Düşün və cavab ver

**d Sizcə, nə üçün müəllif hekayəni "Qara tut ağacı" adlandırıb?**

**e Əmir kişinin yerinə olsaydınız, Aşotu bağışlayardınız?**

**ə Mətndə verilmiş hadisələr hansı dövrü əhatə edir? Hansı dövrə aid hadisələr yalnız obrazların nitqi vasitəsilə çatdırılır?**

Layihə

## Söz ehtiyatı

**f** **Mətndən seçilmiş ifadələrin qarşılığını verilmiş cümlələrdə tapın.**

**a.** sinəsini dağlamaq
**b.** bığ yeri yenicə tərləmək
**c.** bir ton çörək kəsmək
**ç.** duyuq düşmək

**1.** Müharibə başlayanda Arif yenicə həddi-büluğa çatmışdı.
**2.** Onun gizli planından yalnız ertəsi gün xəbər tutduq.
**3.** Xocalı şahidinin xatirələri hər kəsə dərindən təsir etmişdi.
**4.** Atamla Əsəd dayı uzun müddət dostluq etmişdilər.

**g** **Mətndə göy rəngdə verilmiş ifadələrin düzgün yazılışı necə olmalıdır?**

**Diqqət et**

Bədii mətnlər dil-üslub xüsusiyyətlərinə görə qeyri-bədii mətnlərdən fərqlənir. Məsələn:
- Təhkiyəçinin və obrazların nitqində frazeoloji birləşmələrdən geniş istifadə olunur.
- Bəzi hadisələr təhkiyəçinin nitqi ilə deyil, dialoji nitq vasitəsilə təsvir olunur.
- Obrazların nitqində bəzi sözlər adi danışıq formasında verilir.

**ğ** **Verilmiş frazeoloji ifadələri mətnin sonuncu abzasında fərqləndirilmiş ifadələrlə uyğunlaşdırın.**

*ömür sürmək, torpağa tapşırmaq, gözünün yaşını sel kimi axıtmaq, qayğısını çəkmək*

**3 a** **I Qarabağ müharibəsi dövründə azərbaycanlıların doğma yurdlarını tərk etməsi ilə bağlı bildiklərinizi danışın. Bu hadisələri 44 günlük müharibədən sonra ermənilərin Qarabağı tərk etməsi ilə müqayisə edin.**

**b** **“Müharibə ədalətli ola bilərmi?” mövzusunda müzakirə keçirin.**

**c** **Cütlərlə iş. Təsəvvür edin ki, Qarabağa – doğma yurduna qayıdan azərbaycanlıdan müsahibə alırsınız. Aşağıdakı təlimata əməl etməklə suallar hazırlayın.**

**Təlimat**

- Mövzu: “Qarabağın dirçəlişi qarabağlıların gözü ilə”.
- Məqsəd: Qarabağa qayıdan azərbaycanlıların keçirdiyi hissləri əks etdirmək, bu regionun gələcəyi ilə bağlı onların fikirlərini və planlarını öyrənmək, qarşılaşdıqları çətinlikləri aşkar etmək və s.
- Sualları hazırladıqdan sonra bir daha nəzərdən keçirin. Qapalı sualları siyahıdan çıxarın.

Layihə

# Modal sözlərin cümlədə vəzifəsi. Ara sözlər

**4 a Fərqləndirilmiş ifadələrin cümlədəki funksiyasını müəyyən edin. Fikrinizi əsaslandırın.**

**1. Uzun sözün qısası,** həyatda hər şeydən vacib sülhdür.
**2. Bəlkə də,** Tuqay yaşayır.

**Yadda saxla**

Dildə olan bütün modal sözlər cümlədə ara söz funksiyasını yerinə yetirir. Lakin bütün ara sözlər modal söz deyil:

• *Qalib olmaq fikri, **doğrusu,** məni rahat buraxmırdı. (modal söz ⟶ ara söz)*
• ***Atalar demişkən,** sözün düzünü zarafatla deyərlər. (ara söz)*

Modal sözlərdən fərqli olaraq, ara sözlər yalnız söz şəklində deyil, həm də söz birləşməsi (*mən bilən, sözün doğrusu*) və cümlə şəklində (*necə deyərlər, demək olar ki*) ola bilər. Ara sözlər cümlə üzvü rolunda çıxış etmir.

**b Cümlələrdə ara sözləri müəyyən edin.**

**1.** Təzə xəstəxana, sən demə, artıq pasiyentlərini qəbul edir.
**2.** Böyük ehtimalla, bizi çox gözəl anladılar, hələ razılaşdılar da.
**3.** Əlqərəz, söhbəti burda bitirək, sonralar bir də bu məsələyə qayıdarıq.
**4.** Yoldan geri qayıtmaq, bəzi inanclara görə, yaxşı əlamət deyil.
**5.** Birincisi, getməyin mənası yoxdur, ikincisi, onsuz da gecdir.
**6.** Düzdür, eşitdiklərinə inanmaq istəmirsən, amma bu, həqiqətdir.

Ara sözlər cümlədə digər sözlərdən vergüllə ayrılır.
• ***Axır ki,** istəyinə nail oldun.*
• *Sənin dediklərini də, **sözsüz,** düşünməyə dəyər.*
• *İşlər tez yekunlaşarmı, **görəsən?***
Bənzətmə bildirən *sanki, elə bil, guya* sözləri istisnadır:
• *Sanki buradan bir fırtına keçmişdi.*

**Qlossari**

**Punktuasiya** – dildə mövcud olan durğu işarələri sistemi və yazıda onlardan istifadə qaydaları.

**c Uyğun ara sözləri əlavə etməklə cümlələri köçürün. Punktuasiya qaydalarına əməl edin.**

**1.** ... məşhur insanların həyatı çox vaxt maraqlı olur. *(əminlik)*
**2.** Yenicə yağmış qarın üstündə gəzməyi ... hamı sevir. *(güman, şübhə)*
**3.** ... hər işi vaxtında görmək lazımdır. *(fikrin mənbəyi)*
**4.** ... o, qaydaya əməl etməlidir, ... onun özünə də belə sərfəlidir. *(sıra, ardıcıllıq)*
**5.** Yağışa görə evdən çıxmaq mümkün olmadı ... *(təəssüf)*
**6.** Onun çöhrəsi o qədər işıqlıdır ... üzündən nur yağır. *(bənzətmə, müqayisə)*
**7.** ... sizin planlarınızdan xəbərimiz yox idi. *(nəticə)*

Layihə

# Ümumiləşdirici təkrar

**1** **Ədatları seçin və onların ifadə etdiyi mənanı müəyyən edin.**

**1.** Mənmi qocalmışam, ya zəmanəmi? *("Koroğlu" dastanından)*
**2.** Bu belə də olmalı, axı dünya fırlanır. *(Bəxtiyar Vahabzadə)*
**3.** Gəl bizim dağlara, gör nə gözəldir! *(Həmid Abbas)*
**4.** Mənim könlüm bu sözlərə heç yatmaz. *(Mikayıl Müşfiq)*
**5.** Kaş ki gözəl olmayaydın... . *(Aşıq Ələsgər)*
**6.** Sən elə gözəlsən binadan, Pəri. *(Molla Pənah Vaqif)*

**2** **Ədat, yoxsa bağlayıcı?**

**a.** Əlabbas kişi təsbehini çevirə-çevirə fikirləşdi **ki,** istirahət qiyamət şeydir. *(Elçin)*
Ay uşaqlar, əlimdən nə gələr, nə gəlməz, siz **ki** yaxşı bilirsiniz. *(N.Vəzirov)*
**b.** O, çirkin **də** olsa, həqiqət olduğu üçün gözəldir! *(C.Cabbarlı)*
O biri çuvalda **da** qarpızdan başqa heç nə yox idi. *(Ə.Haqverdiyev)*
**c.** Kərim baba gördü **ki,** Qızıl sürünü iki təpənin arasına yığıb. *(A.Şaiq)*
O **ki** özgə yerə gedəcəkdi, bizi niyə qonaq çağırdı? *(C.Məmmədquluzadə)*
**ç.** Hacı Nəsir bir neçə məşhur həkim gətirdisə **də,** onu sağalda bilmədi. *(S.S.Axundov)*
Bu üç teleqramı **da** çatdırım yiyəsinə, gedib kəlləmi atıb yatım. *(Anar)*

**3** **Cümlələrdəki modal sözləri göy hərflərlə verilmiş elə sözlə dəyişin ki, məna fərqi yaranmasın.**

**1.** Doğrudan da, sən heyvanlar aləmi ilə çox maraqlanırsan. *(güman ki, həqiqətən)*
**2.** Heyif ki, teatr mövsümünün başa çatmağına az qalıb. *(bəlkə də, təəssüf ki)*
**3.** Axır ki, ağacların üzərində xırda tumurcuqlar göründü. *(sanki, nəhayət)*
**4.** Zənnimcə, bu qarayanız oğlanın gözəl səsi var! *(yəqin ki, məncə)*
**5.** Əvvəla, "Balaca şahzadə" böyüklərin də sevimli əsəridir. *(əlbəttə, birincisi)*
**6.** Xallı ceyranın gözləri sanki nəsə demək istəyirdi. *(elə bil, deyəsən)*

**4** **Ara sözləri seçin. Punktuasiya səhvlərini müəyyən edin.**

**1.** Deyilənə görə hamı bu hadisədən məyus olub.
**2.** Dayanacaqda adam çox idi deyəsən avtobus gecikmişdi.
**3.** Bununla belə məsləhət dinləsən, düzgün qərar verə bilərsən.
**4.** Bu tamaşaya heyif ki axıra qədər baxmamısınız.

**5** **Cümlələrdə orfoqrafiya və punktuasiya səhvlərini müəyyən edin.**

**1.** Qardaşındamı sənin kimi idman yarışlarında qalib olub?
**2.** Xanım, bu gələnlər deyəsən elə, dünənki qonaqlardır. *(C.Məmmədquluzadə)*
**3.** Firidunun atasıda, babasıda bu obada doğulmuşdu. *(M. İbrahimov)*
**4.** Səadətini tanrım qədər sevdiyim bu xalq, bircə səni yaşatmadı. *(C.Cabbarlı)*
**5.** Başını qaldırıb ətrafına bax sana, gör, nə dəyişib, necə dəyişib.
**6.** Sizki belə məlumatlısınız, bizədə danışın.

Layihə

# bölmə 2 Coğrafi kəşflər

1-ci fəsil

**1 a** **Hansı səyyahları tanıyırsınız? Coğrafi biliklərin zənginləşməsində bu səyyahların rolu haqqında danışın.**

## Dinləmə 03

**b** **Qeyd götürməklə "Emilione" mətnini dinləyin.**
**• Əsas məlumatları, xüsusilə ad və tarixlərlə bağlı faktları açar sözlər şəklində qeyd edin.**
**• Qeydləri yarımbaşlıqlar altında qruplaşdırın.**



**c** **Cütlərlə iş. VII[a] sinif şagirdləri Marko Polo haqqında təqdimat hazırlamışlar. Onların təqdimat slaydlarını nəzərdən keçirin. Qeydləriniz əsasında slaydlarda yol verilmiş səhvləri müəyyənləşdirin.**

**1-ci slayd**
- Venesiyalı tacir və səyyah
- 1254-cü ildə Venesiyada tacir ailəsində doğulub.
- Əmisinin himayəsində böyüyüb.
- Ticarət və yük gəmilərinin idarə edilməsini öyrənib.
- 1271–1295-ci illər arasında Böyük İpək yolu ilə Asiyaya səyahət edib.

**2-ci slayd**
- Ticarətini genişləndirmək məqsədi ilə Çinə səfər edir.
- 1273-cü ildə Venesiyadan Aralıq dənizi sahillərindəki Akka şəhərinə gedirlər.
- İran və Asiyanın səhralarını keçib Pamir dağlarını aşır.
- Çinin Kəşmir şəhərinə çatır və Qobi dağlarından keçərək şimal-şərqə doğru davam edir.

**3-cü slayd**
- 1296-cı ildə Marko Polonun kitabı nəşr olunur.
- Səfərdə olduğu ölkələrin coğrafiyası, etnoqrafiyası, tarixi haqqında məlumat verilir.
- Kitab avropalılara Yaxın Şərq ölkələri haqqında müfəssəl məlumat verir.
- Bu kitabda Azərbaycan, tarixi İpək yolu və s. haqqında da ətraflı məlumatlar var.

**4-cü slayd**
- Yaponiyaya və Sakit okean adalarına ticarət yolları açdı.
- Coğrafiyaçılar Şərqin yeni-yeni ölkə və şəhərlərini tərtib etdikləri xəritələrdə göstərdilər.
- Mədəni-ticari əlaqələr genişləndi, avropalılar kağız pul, barıt kimi ixtiralarla tanış oldular.

Layihə

**ç** **Qruplarla iş.** **Aşağıdakı slaydları "c" tapşırığında verilmiş təqdimat slaydları ilə müqayisə edin. Sizcə, hansı slayd daha uğurludur? Fikrinizi əsaslandırın.**

### I qrup

**1 MARKO POLO KİMDİR?**



*1254–1324*
*Venesiya (İtaliya)*

- tacir
- səyyah
- yazıçı
- 17 il Çində yaşayıb.

### II qrup

**2 ÇİNƏ SƏYAHƏT (1271–1295)**



Venesiya → Akka → İran → Orta Asiya → Pamir dağları → Kaşqar → Qobi səhrası

### III qrup

**3 "EMİLİONE" KİTABI**

**Müəllifi:** Marko Polo
Rustiçello da Piza
**Nəşr tarixi:** 1298-ci il
**Janrı:** səyahətnamə
**Mövzu:** Çin və Yaxın Şərq haqqında məlumatlar




### IV qrup

**4 TARİXDƏ ROLU**

**Avropa və Asiya arasında mədəni-ticari əlaqələrin genişlənməsi**



kağız pul



kompas



barıt



çini qablar

- **Slaydların müqayisəli təhlilindən sonra seçdiyiniz slayd üzrə təqdimat edin.**

**Diqqət et**

Şifahi təqdimat çox zaman əyani (vizual) materiallarla müşayiət olunur. Bu materiallar həm verbal, həm də qrafik informasiyadan ibarət ola bilər.
Təqdimat materialını hazırlayarkən:
- slaydları verbal informasiya ilə yükləməyin;
- geniş cümlələrdən deyil, açar söz və birləşmələrdən istifadə edin;
- hər bir slaydın mövzusunu yarımbaşlıq kimi tərtib edin.

Unutmayın: slaydlar elə dizayn olunmalıdır ki, auditoriya məzmunu tez və rahat qavraya bilsin.

**Qlossari**

**Vizual** – gözlə görünən.
**Verbal** – sözlə ifadə olunan.
**Qrafik informasiya** – şəkil, sxem, cədvəl, diaqram, xəritə və s.
**Slayd** – təqdimat materialının ekranda nümayiş olunan səhifəsi.

Layihə

**2a** **Sağdakı şəklə diqqət yetirin. Bu kitabın adı belə tərcümə olunur: “Marko Polo Çinə səfər edibmi?” Sizcə, müəllif bu kitabda nədən bəhs edir?**




## MİLYON YALAN?

Marko Polonun Çinə səfəri və bu haqda öz kitabında verdiyi məlumatların həqiqiliyi bir çoxlarında şübhə doğururdu. Hətta “Milyon” kitabı nəşr olunduqdan sonra onu “Milyon yalan” adlandıranlar da var idi.

1995-ci ildə Britaniya muzeyinin Çin kolleksiyasının rəhbəri xanım Frensis Vud “Marko Polo Çinə səfər edibmi?” adlı kitab yazdı. Bu kitabda o iddia edirdi ki, Marko Polo heç Qara dənizdən o yana keçməyib. Tədqiqatçının fikrincə, Venesiya taciri “Milyon” kitabını İran tacirlərindən aldığı məlumatlar əsasında yazıb. Bu fikri əsaslandırmağa çalışan xanım Vud kitabda çoxlu sayda yanlışlıqlara yol verildiyini bildirirdi.

Frensis Vudun arqumentlərindən biri budur ki, kitabda Çin heroqlifləri, Çin **farforu,** Böyük Çin səddi haqqında məlumata rast gəlinmir. Ola bilməz ki, 17 il bu ölkədə yaşamış bir avropalını Çin mədəniyyətinin bu özəllikləri maraqlandırmasın.

“Çinli Marko Polo” kitabının müəllifi Stefen Faynştayn Frensis Vudun iddialarını təkzib edir. O bildirir ki, Marko Polo ticarətçi olub; yazı, əlifba onu maraqlandırmaya bilərdi. Bunun əvəzində o, kağız pulların istehsalını ətraflı təsvir etmişdi. O ki qaldı Böyük Çin səddinə, bu tikilinin əsası Miladdan öncə qoyulsa da, yalnız XVII əsrdə indi gördüyümüz möhtəşəm istehkama çevrildi. Marko Polonun zamanında (XIII əsrdə) isə bu divar başqa müdafiə tikililərindən bir o qədər də fərqlənmirdi. Bir avropalı üçün bu cür istehkamlar o qədər də maraqlı olmaya bilərdi.

Frensis Vud Polonun Çində **qubernator** kimi fəaliyyətini də şübhə altına alır. Çində hökmranlıq edən monqollar özlərini avropalılardan daha **sivil** hesab edirdilər. Monqol hökmdarı Xubilayın bir avropalıya sarayda vəzifə verməsi inandırıcı görünmür. Necə olur ki, iyirmi ilə yaxın Çin dövlət qurumlarında fəaliyyət göstərən bir şəxslə bağlı nə Çin, nə də Monqolustan salnamələrində məlumata rast gəlinmir?

Xubilay xan haqqında kitab yazmış Morris Rossabi bu fikrə qarşı çıxaraq xanın **müşavirlərindən** birinin gündəliyinə istinad edir. Həmin məmur 1271-ci ildə öz gündəliyində xanla mehriban münasibətdə olan bir əcnəbidən bəhs edir. Bundan başqa, Polo öz kitabında xan sarayında baş verən elə hadisələrdən xəbər verir ki, bu informasiya yalnız saraya yaxın olan bir adama bəlli ola bilərdi. Məsələn, o, sarayda yüksək dövlət məmuruna qarşı təşkil olunmuş **sui-qəsdi** ətraflı təsvir edir, qatilin adını çəkir. Bu məlumat rəsmi Çin mənbələrinə tam uyğun gəlir. Belə ki, Çin **salnaməçisi** Yuan-şi qeyd edir ki, qətli araşdıran komissiyanın tərkibində Po-Lo adlı bir şəxs də var idi.



Layihə

"Milyon" kitabında Venesiyaya dönüş səyahətinin ətraflı təsviri var. Kitabın bu hissəsi Polo ailəsinin, həqiqətən, Çində uzun müddət yaşadığını və saray məmurları ilə yaxın münasibətdə olduğunu göstərən ən inandırıcı sübutdur. Polo öz kitabında səfərə hazırlığı, səyahətin marşrutunu və iştirakçıların sayını ətraflı təsvir edir ki, bu da Çin salnamələri ilə təsdiqlənir.



Müasir tədqiqatçılar Marko Polonun Çinə səfərini tam uydurması ilə bağlı Frensis Vudun fikirlərini rədd edir, bunu **sensasiya** xatirinə irəli sürülmüş **iddia** hesab edirlər. Onlar qeyd edirlər ki, kitabda Çin və Çinə səyahət marşrutu boyunca digər ölkələrin coğrafiyası haqqında məlumatların əksəriyyəti müasir biliklərə tamamilə uyğundur.

Ola bilər ki, Polonun Çindəki rolu onun kitabında çox şişirdilmiş, bəzi **təhriflərə** yol verilmişdir. Kitabın nüsxələrinin əlyazma yolu ilə çoxaldılmasını, xəttatların və tərcüməçilərin yaradıcı əlavələrini nəzərə alsaq, haqqında danışılan təhriflər anlaşılandır.

Bütün bu mübahisəli məqamlara görə Marko Polonun kitabı dünya tarixində ən çox maraq doğuran kitab sayılır. 1986-cı ildə tərtib olunmuş **biblioqrafiyaya** görə, yalnız Avropada Marko Polo haqqında yazılmış elmi əsərlərin sayı 2300-dən çoxdur. Amma hələ də Marko Polonun şəxsiyyəti və həyatı ilə bağlı bir çox şübhələrə tam aydınlıq gətirmək mümkün olmayıb. Bununla belə, onun Çinə səfər etməsi bu gün heç bir ciddi tədqiqatçıda şübhə doğurmur.

*"Doğru bildiyimiz 101 yanlışlıq"*
*kitabından*

**Söz boğçası**

• qubernator • təhrif • biblioqrafiya
• salnamə • sensasiya • sui-qəsd
• müşavir • sivil • farfor • iddia

## Söz ehtiyatı

**b** **Mətndə fərqləndirilmiş "iddia" sözünün işləndiyi cümləyə diqqət yetirin. Hansı cümlədə bu söz mətndəki mənasında işlənib?**

**a.** Bacarıqları ilə müqayisədə iddiası çox böyükdür.
**b.** Onun bu iddiası elmi dairələrdə qəbul olunmuş fikirləri alt-üst edirdi.

• **Sizcə, "iddialı" sözü "iddia" sözünün hansı mənası ilə bağlıdır?**

**c** **Mətndən və aşağıdakı məlumatlardan istifadə edərək "salnamə" və "sui-qəsd" sözlərinin mənasını izah edin.**

Fars dilində "sal" – *il*, "namə" – *yazı, məktub* mənasını verir. Bir çox dillərdə salnaməyə "xronika" deyirlər.

Ərəb dilində "sui" – *pis, zərərli*, "qəsd" – *niyyət, məqsəd* mənasını verir.

**Orfoqrafiya**

| Düzgün | Yanlış |
|---|---|
| salnamə | səlnamə |
| sui-qəsd | suiqəsd |

Layihə

## Düşün və cavab ver

**ç** **Mətndən Marko Polo haqqında hansı yeni məlumatlar öyrəndiniz?**

**d** **“Emilione” və “Milyon yalan?” mətnlərini müqayisə edin. Hər bir müəllifin məqsədini və bu məqsəddən asılı olaraq mətnlərin növlərini müəyyən edin.**
- **Hansı mətndə hadisələr xronoloji ardıcıllıqla təsvir edilir?**
- **Hansında müəllifin məqsədi həqiqəti aşkar etmək və əsaslandırmaqdır?**

**3 a** **“Milyon yalan?” mətnində müəllif hansı nəticəyə gəlir? Onun mühakimələri ilə razısınızmı? Mətnə istinad etməklə fikrinizi əsaslandırın.**

**Diqqət et**

Bəzən arqumentativ mətndə müəllif problemlə bağlı fikirləri – tezisləri qarşılaşdırır. Bu halda o, bir tezisi dəstəkləyən arqumentləri digər tezisin əks-arqumentləri ilə təkzib edir.

**b** **Sxemi şərh edin. Mətnə istinad etməklə tezis və arqumentləri genişləndirib danışın.**

**PROBLEM:**
**Marko Polo doğrudanmı Çinə səfər edib?**

**1-ci TEZİS** (Frensis Vud): **Marko Polo Çinə səfər etməyib.**

**Arqument:** Öz kitabında Çin mədəniyyətinin özəllikləri (farfor, heroqlif, Çin səddi və s.) haqqında heç nə yazmayıb.

**Arqument:** Xubilayın sarayında yüksək vəzifə tutması inandırıcı deyil.

**2-ci TEZİS** (Stefen Faynştayn, Morris Rossabi): **Marko Polo Çinə səfər edib və orada uzun müddət yaşayıb.**

**Əks-arqument:** Onu maraqlandıran özəlliklər (məs.: kağız pulun istehsalı) haqqında yazıb.

**Əks-arqument:** Çin dövlətində yüksək vəzifə tutması tarixi mənbələrlə təsdiq olunur.

**NƏTİCƏ**
**Marko Polonun kitabında xırda təhriflər və yanlışlıqlar ola bilər. Lakin müəllifin Çinə səfər etməsi və orada yaşaması tarixi həqiqətdir.**

Layihə

**ç** **Frensis Vudun 1-ci arqumentini təkzib etmək üçün mətndə verilən hansı əks-arqumentlər sizə daha inandırıcı göründü? Səbəbini izah edin.**

**a.** Marko Polo tacir olduğuna görə onu heroqliflər maraqlandırmırdı.
**b.** "Milyon" kitabında Çində kağız pulun istehsalından bəhs edilir.
**c.** Böyük Çin səddi Marko Polonun diqqətini çəkməmişdi.

**ç** **Frensis Vudun 2-ci arqumentini təkzib etmək üçün mətndə verilən hansı əks-arqumentlər sizə daha inandırıcı göründü? Səbəbini izah edin.**

**a.** Xubilay xanın müşavirinin gündəliyindəki məlumatlar
**b.** "Milyon yalan?" kitabında sui-qəsdlə bağlı məlumatlar
**c.** Çin salnaməçisi Yuan-şinin qeydləri

**Diqqət et**

Tarixi şəxsiyyət və hadisələrlə bağlı arqumentativ mətnlərdə ilkin mənbələrə istinad etməklə irəli sürülən arqumentlər daha inandırıcı təsir bağışlayır. "İlkin mənbə" dedikdə aşağıdakılar nəzərdə tutulur:
- tarixi abidələr
- arxeoloji qazıntılar
- həmin dövrə aid salnamələr
- müasirlərin hadisə ilə bağlı yazılı qeyd və xatirələri

**d** **Sizcə, aşağıdakı məlumatdan Frensis Vudun hansı arqumentinə qarşı əks-arqument kimi istifadə etmək olar?**

Çin tədqiqatçısı Yan Çidzyu qədim Çin mənbələrində maraqlı fakta rast gəlib: "Monqol şahzadə xanımı Kokaçin İrana səfər edərkən onu müşayiət edənlər arasında Marko Polo adlı bir avropalı da var idi".

**4 a** **"Böyük İpək yolu" haqqında təqdimat hazırlayın.**

**Təlimat**

Araşdırma aparın:
- "İpək yolu" adlandırılmasının səbəbi
- Böyük İpək yolunun əhatə etdiyi ərazilər
- Bu xəritədə Azərbaycanın yeri
- Böyük İpək yolunun əhəmiyyəti

Əldə etdiyiniz məlumatları yarımbaşlıqlar altında qruplaşdırın. Əsas faktları açar söz və birləşmələrlə ifadə edin. Slaydlarda vizual informasiyaya üstünlük verin. Faktları şərh etmək üçün cəlbedici nitq hazırlayın.

Layihə

# Feilin şəkilləri (əmr, vacib)

**5 a** **Feilin hansı təsriflənməyən formalarını tanıyırsınız? Cümlələrdə işlətməklə hər birinə dair nümunələr söyləyin.**

**b** **Cümlələrdəki feilləri cədvəl üzrə qruplaşdırın.**

**1.** Özünə güvənən insan çətinlikdən qorxmur.
**2.** Göz baxmaqdan doymaz, ağıl öyrənməkdən.
**3.** Axşam düşəndə hamı ocaq başına yığışardı.

**Xatırla**

**Təsriflənməyən feillər** – şəxsə görə dəyişməyən feillər: məsdər, feili sifət və feili bağlama.

| Təsriflənməyən feillər | | | Təsriflənən feillər |
|---|---|---|---|
| məsdər | feili sifət | feili bağlama | |
| | | | |

**Yadda saxla** Feilin şəkilləri

Təsriflənən feillər müxtəlif şəkilçilər vasitəsilə danışanın hərəkətə münasibətini ifadə edir.

| Danışanın hərəkətə olan münasibəti | Nümunə |
|---|---|
| **Əmr,** xahiş, tövsiyə və s. ifadə edir. | *Sözləri düzgün **yazın.*** |
| Hərəkətin **vacibliyini** bildirir. | *Sadə feillərdən yeni sözlər **düzəltməliyik.*** |
| Hərəkətin **lazım** olduğunu bildirir. | *Bizim sənədlərə sabah **baxılasıdır.*** |
| **Arzu** olunduğunu göstərir. | *Dağ kimi **ucalasan.*** |
| Digər bir hərəkətin müəyyən **şərtlə** mümkünlüyünü bildirir. | *Məsələnin şərtini diqqətlə **oxusa,** asanlıqla həll edər.* |
| Müxtəlif zamanlarda icrası haqda **xəbər** verir. | *Qələbə münasibətilə silsilə tədbirlər **keçirilir.*** |

Təsriflənən feil formaları feilin şəkilləri adlanır.

**c** **Təsriflənən feillərin neçənci şəxsə aid olduğunu müəyyən edin. Mötərizədə verilmiş şəxsə uyğun dəyişin.**

**1.** Dərsə **gecikməyin.** (II şəxsin təki)
**2.** Bu gün sinif iclası **keçirəcəyik.** (III şəxsin cəmi)
**3.** Sabah **gəlsələr,** sözümü deyərəm. (I şəxsin təki)
**4.** Gərək deyək ki, işlərini **planlaşdırsınlar.** (III şəxsin təki)
**5.** Sabaha qədər öz **qərarını verməlidir.** (I şəxsin cəmi)

Layihə

**6 a Hansı cümlədə feil əmr mənasını ifadə edir?**

**1.** Təki ərizəni qəbul edələr.
**2.** Dostla su iç, düşmənlə bal yemə.
**3.** Qəfildən şimşək çaxdı, şiddətli yağış başladı.

**Yadda saxla** **Feilin əmr şəkli**

**Feilin əmr şəkli** əmr, xahiş, nəsihət, tövsiyə və s. bildirir. Feilin kökünə və ya başlanğıc formasına şəxs şəkilçiləri artırmaqla düzəlir. 2-ci şəxsin təkində şəxs şəkilçisi olmur. Bu, feilin başlanğıc formasına uyğun gəlir.

| Şəxs | Tək | Cəm |
|---|---|---|
| 1-ci | *Başını el içində həmişə uca* ***görüm.*** | *Gəlin həyətyanı sahəni* ***belləyək.*** |
| 2-ci | *Balıq* ***vermə****, balıq tutmağı* ***öyrət.*** | *Sakit, təmkinlə, asta-asta* ***danışın.*** |
| 3-cü | *Qoy ön sıralarda* ***dursun.*** | *Qaliblər mükafatla* ***təltif edilsinlər.*** |

Feilin əmr şəkli, adətən, *qoy*, *bax, di, ha* ədatları ilə işlənir:
***Qoy*** *həmişə günəş* ***olsun! Di*** *tez* ***olun,*** *gecikirik.*

**b Əmr şəklində işlənən feillərdə şəxs şəkilçilərini müəyyən edin.**

**1.** Başını el içində həmişə uca görüm.
**2.** Çörək verən əlin kəsilməsin.
**3.** Zəhmət olmasa, kitabı mənə verin.
**4.** Get və yenə də yaz, yarat.
**5.** Gəl səninlə bir eksperiment edək.
**6.** Qoy bir daha nəzərdən keçirsinlər.

**c Sizcə, hərəkətin vacibliyini göstərmək üçün nöqtələrin yerinə hansı şəkilçilər yazılmalıdır?**

**1.** Məncə, bir daha cəhd et...sən.
**2.** Biz cənuba doğru get...yik.

**Yadda saxla** **Feilin vacib şəkli**

**Feilin vacib şəkli** hərəkətin icrasının vacibliyini bildirir. Feilin kökünə və ya başlanğıc formasına *-malı*$^2$ şəkilçisini və şəxs şəkilçisini artırmaqla düzəlir: *get**məli**yik, bil**məli**sən.*
Vacib şəklinin inkarı həm *-ma*$^2$ şəkilçisi, həm də *deyil* sözü vasitəsilə yaranır: *baxmalıyam – bax**ma**malıyam, baxmalı* ***deyiləm.***

**ç Vacib şəklində olan feillərin şəxsini, təsdiq və ya inkarda işləndiyini müəyyən edin.**

**1.** Fikrini əsaslandırmaq üçün arqumentlər düşünməlisən.
**2.** Sabah məktəbdə keçiriləcək tədbirdə çıxış etməliyəm.
**3.** Vətənin bir qarış torpağını da düşmənə verməməliyik.
**4.** Biz bu sırada dayanmalı deyilik, bura onların yeridir.
**5.** Bu qaydaları bir daha təkrarlamalıdırlar.

Layihə

**1 a** **Hansı coğrafi kəşflər haqqında məlumatınız var? Sizcə, coğrafi kəşflərin əsas məqsədi nə olub?**

**b** **Qruplarla iş. Məlumat vərəqlərinə əsasən səyyahlar və onların coğrafi kəşfləri haqqında məlumatları rabitəli mətn şəklində təqdim edin.**

## 1 XRİSTOFOR KOLUMB (1451–1506)




**Ekspedisiyanın məqsədi:** Avropadan Asiyaya dəniz yolu tapmaq. Hindistan və digər zəngin Asiya ölkələri ilə ticarət əlaqələrini genişləndirmək.

**Ekspedisiyanın nəticəsi:**
Amerika qitəsi kəşf olundu. Amerikada müstəmləkəçilik siyasətinin başlanğıcı qoyuldu. "Köhnə" və "Yeni dünya" arasında mədəni-ticari əlaqələr yarandı.

## 2 VASKO DA QAMA (1460–1524)




**Ekspedisiyanın məqsədi:** Avropadan Hindistana dəniz yolu tapmaq.

**Ekspedisiyanın nəticəsi:**
Avropadan Hindistana dəniz yolu tapıldı. Afrika sahil məntəqələrinin xəritəsi müəyyənləşdi. Portuqallar Asiya-Avropa arası ticarətdə üstünlük əldə etdilər, Asiya və Afrikada müstəmləkə imperiyası yaratdılar.

## 3 FERDİNAND MAGELLAN (1480–1521)




**Ekspedisiyanın məqsədi:** İspaniyadan Asiyaya qərb istiqamətində dəniz yolu tapmaq.

**Ekspedisiyanın nəticəsi:**
Yer kürəsi ətrafına ilk səyahət baş tutdu. Yer kürəsinin təsəvvür ediləndən daha böyük olduğu və onun ətrafına dəniz yolu ilə dövr etməyin mümkünlüyü sübut olundu.

Layihə

## 4 CEYMS KUK (1728–1779)

**Ekspedisiyanın məqsədi:** Naməlum Cənub torpağını (Terra Australis) tapmaq.

**Ekspedisiyanın nəticəsi:** Avstraliya materikini, Yeni Zelandiyanı və Havay adalarını kəşf etdi. Dünya xəritəsi Asiyanın cənub və şərq hissəsindəki bir çox torpaqlar, eləcə də Sakit okeandakı adalarla zənginləşdi.




## Söz ehtiyatı

**c** **Lüğətdən istifadə edərək “ekspedisiya”, “kruiz”, “qastrol” sözlərinin mənasını izah edin. Bu sözləri hiponim adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.**

**ç** **“Quru yol” və “quru yolu” ifadələrini izah edin. Bu birləşmələrdə “quru” sözünü leksik və qrammatik məna cəhətdən fərqləndirin.**

**d** **“Boğaz” sözünü coğrafi termin kimi izah edin. Bu sözün həm də çoxmənalı olduğunu əsaslandırın. Aşağıdakı birləşmələrdə “boğaz” sözünün mənalarını və bu mənalar arasındakı yaxınlığı izah edin.**
- **pişiyin boğazı**
- **qrafinin boğazı**
- **çəkmənin boğazı**
- **Dardanel boğazı**

## Düşün və cavab ver

**e** **Məlumat vərəqlərindəki informasiyanı ümumiləşdirərək aşağıdakı suallara cavab verin.**

**1.** Haqqında danışılan coğrafi kəşflər hansı dövrləri əhatə edir?
**2.** Səyyahların əsas məqsədi nə idi?
**3.** Ekspedisiyaları daha çox hansı ölkələr təşkil edirdi?
**4.** Ekspedisiyalar hansı nəticələri verdi?

**ə** **Hər bir səyyah və onun kəşfi ilə bağlı məlumatları bir cümlə ilə elə ifadə edin ki, onun tarixdə rolu aydın olsun.**

**f** **Aldığınız məlumatlardan, eləcə də coğrafiya və tarix fənləri üzrə biliklərinizdən istifadə etməklə aşağıdakı sualları cavablandırın.**
- **Nə üçün XV–XVI əsrləri “Böyük coğrafi kəşflər dövrü” adlandırırlar?**
- **Nə üçün o dövrdə səyyahlar Avropadan Asiyaya dəniz yolu axtarırdılar?**

Layihə

**2a Vasko da Qama haqqında bildiklərinizi xatırlayın. Mətni oxuyun və tanış olduğunuz yeni məlumatları qeyd edin.**

## Manuel Vasko da Qama



Kolumbun coğrafi kəşflərindən sonra Portuqaliya da sərvət toplamaq üçün yeni torpaqlar axtarışına başladı. Portuqallar Afrikanın cənubundan dəniz yolu ilə Hindistana çatmaq planı hazırladılar. Bu məqsədlə Portuqaliya kralı 1497-ci ildə 4 gəmi, 170 nəfərlik heyətlə Lissabondan Hindistana ekspedisiya göndərdi. Ekspedisiyaya rəhbərliyi 28 yaşlı gənc dənizçi Manuel Vasko da Qamaya tapşırdılar.

Ekspedisiya üzvləri dörd ay üzdükdən sonra Afrikanın cənub sahillərinə çıxdılar. Onlar **Ümid burnundan** Hind okeanına keçərək daha 3 ay Afrikanın şərq sahilləri ilə irəlilədilər.

Nəhayət, 1498-ci il mayın 20-də Portuqaliya gəmiləri Hindistanın Kalikut şəhərinə yaxınlaşıb lövbər saldı. Hindistanla ticarəti öz əllərində saxlayan ərəb tacirləri avropalıların bura gəlişindən narahat oldular. Müsəlman tacirləri hər yerdə Vasko da Qamanın dəniz qulduruna oxşadığını deyirdilər. Onun gətirdiyi hədiyyələrə – parçalara, şlyapalara, mərcan muncuqlara lağ edirdilər. Avropalılar gətirdikləri malları çoxlu ədviyyata – darçın, mixək və qara istiota dəyişib tələsik şəhəri tərk etdilər.

1499-cu ilin sentyabrında Vasko da Qama Portuqaliyaya qayıtdı. Ekspedisiya heyətinin yalnız üçdə biri qayıtmışdı. Amma qazanc çox idi. Portuqaliyalılar gətirdikləri ədviyyatı sataraq ekspedisiyaya xərclədikləri puldan dəfələrlə çox qazanc götürdülər. Beləliklə, tapşırıq yerinə yetirildi: Hindistana Afrikanın cənubundan su yolu tapıldı.

Vasko da Qama ikinci dəfə Hindistana 1502-ci ildə 20 gəmidən ibarət güclü donanma ilə yollandı. Portuqallar odlu silahdan istifadə edərək Afrikanın Hind okeanı sahillərini, Ərəbistan və Hindistan yarımadalarını müstəmləkəyə çevirdilər. Onlar Kəlküttə şəhərini top atəşinə tutaraq darmadağın etdilər. Ədviyyatı, qızılı, gümüşü, daş-qaşı silah gücünə alıb gəmilərə doldurdular. Bu haqda ərəb dənizçisi Əhməd ibn Məcid öz xatirələrində yazırdı: *"Hindistana səfər zamanı Vasko da Qamaya bələdçilik etməyi mənə tapşırmışdılar. Vasko da Qamanı ticarət əlaqələri çox maraqlandırırdı. Ölkələr arasında iqtisadi əlaqələr yaratmaq məni də çox sevindirirdi. Lakin çox keçmədən portuqaliyalılar burada qətllərə başladılar. Onlar əhalini qırır, çapıb-talayır, kəşf etdikləri torpaqları müstəmləkəyə çevirirdilər. Dünya dənizçilik elminə bəxş etdiyim bu töhfədən xəcalət çəkirəm... insanlar qorxuya və təşvişə düşdülər... təəssüf, onların nələr törədəcəyini mən bilsəydim..."*

Beləliklə, böyük coğrafi kəşflər müstəmləkə işğallarının başlanmasına zəmin yaratdı. 1524-cü ildə Vasko da Qama Hindistana vitse-kral təyin olunsa da, onun ölümü gələcək müstəmləkə planlarını həyata keçirməyə mane oldu.

Layihə

## Söz ehtiyatı

**b** **"Burun" sözünü həqiqi və məcazi mənalarda, eləcə də coğrafi termin kimi işlədin. Mənalar arasındakı yaxınlığı izah edin.**

**c** **Mətndə altından xətt çəkilmiş cümlədə hiperonim və hiponimləri müəyyən edin. Hiponimlərə aid bir neçə nümunə əlavə edin.**

## Düşün və cavab ver

**ç** **Vasko da Qamanın ikinci ekspedisiyası birincidən nə ilə fərqlənirdi?**

**d** **Əhməd ibn Məcidin xatirələri Vasko da Qama haqqında hansı fikri təsdiq edir?**

**3a** **Debat.** **Aşağıdakı fikirlərdən hansı ilə razısınız?**

**1.** *Coğrafi kəşflərin yerli xalqlar üçün faydası oldu.*
**2.** *Coğrafi kəşflərin yerli xalqlar üçün acı nəticəsi oldu.*

- **Mövqeyinizi müəyyənləşdirmək üçün aşağıdakı faktlardan istifadə edin.**

> Xristofor Kolumb Amerikaya ikinci səfəri zamanı yerli qəbilələrdən 1500 nəfəri əsir alaraq qul etdi. Avropaya göndərilən 500 quldan 200-ü yolda həlak oldu.

> Yeni ticarət yolları (məsələn İpək yolu) müəyyən edildi və ölkələr arasında mədəni-ticari əlaqələr genişləndi.

- **Aşağıdakı təlimata uyğun debat keçirin.**

**Təlimat**

| İştirakçılar | Vəzifələr |
|---|---|
| Moderator | • Debatın mövzusunu və ***reqlamenti*** elan edir.<br>• Komandaları, spikerləri, hakimləri təqdim edir.<br>• Reqlamentə riayət olunmasına nəzarət edir. |
| Spiker | • Komandanın mövqeyini əsaslandıran nitqlə çıxış edir.<br>• Qarşı tərəfin arqumentlərini təkzib edən əks-arqumentlər söyləyir. |
| Hakim(lər) | • Tərəfləri dinləyir, haqlı olanı müəyyən edir.<br>• Debatın nəticələrini elan edərkən öz hökmünü əsaslandırır. |
| Komanda üzvləri | • Arqumentlər hazırlamaq üçün spikerə kömək edirlər.<br>• Reqlamentə uyğun olaraq kiçik çıxışlarla debata müdaxilə edirlər. |

**Qlossari**

**Reqlament** – hər hansı tədbirin təşkili və keçirilmə qaydası: çıxışların, sual-cavabların ardıcıllığı, hər bir çıxış üçün ayrılmış vaxt və s.

Laylə

# Feilin şəkilləri (lazım, arzu)

**4 a** **Cümlələrdəki fərqləndirilmiş feilləri nəzərə alaraq uyğunluğu müəyyən edin.**

**1.** Onlar sabah teatra **gedəsidirlər.**
**2.** Kaş biz də kinoteatra **gedək.**
**3.** O da bizimlə səyahətə **getməlidir.**

**a.** Hərəkətin arzu olunduğu bildirilir.
**b.** Hərəkətin vacib olduğu bildirilir.
**c.** Hərəkətin lazım olduğu bildirilir.

**Yadda saxla** Feilin lazım şəkli

**Lazım şəkli** feilin kökünə və ya başlanğıc formasına *-ası*[2] şəkilçisini və şəxs şəkilçilərini artırmaqla düzəlir: *danışasıyam, baxasısınız, oxuyasıdır, görəsisən* və s.
*Həramiz bir mövzu haqqında danışasıyıq.*
Digər şəkillərdən fərqli olaraq, lazım şəklinin inkar forması yalnız “deyil” sözünün köməyi ilə düzəlir: *yazası deyilik, gələsi deyiləm* və s.

**b** **Verilmiş feilləri lazım şəklində tələbə uyğun işlədərək cümlələri tamamlayın.**

**1.** Uşaqlar məktəbin həyətində ağac ... . *(əkmək )* təsdiq
**2.** Bu gün atam işə ... . *(çıxmaq)* inkar
**3.** Axşam güclü yağış ... . *(yağmaq)* təsdiq
**4.** Biz bu yolda mübarizəni ... . *(dayandırmaq)* inkar
**5.** Yayda siz də bizim kənddə ... . *(dincəlmək)* təsdiq
**6.** Mən sabah bütün günü təqdimata ... . *(hazırlaşmaq)* təsdiq

**Yadda saxla** Feilin arzu şəkli

**Arzu şəkli** feilin kökünə və ya başlanğıc formasına *-a*[2] şəkilçisini və şəxs şəkilçilərini artırmaqla düzəlir: *soruşam, soruşasan, soruşa* və s.
*Həmişə toy-bayram içində olasan.*
Feilin arzu şəkli çox vaxt ***kaş, gərək, təki, barı*** ədatları ilə işlənir: *kaş biləsən, gərək gedək, təki oxuya, barı görəsiniz* və s.

**c** **Şeir parçasındakı arzu şəklində olan feillərin hansı şəxsə aid olduğunu müəyyən edin.**

İlləri mənasız ötürən də var,
Qədrini biləsən anın da gərək.
Vətən məhəbbəti, el məhəbbəti
Sel kimi çağlaya qanında gərək.

**ç** **Feillərin işləndiyi şəkli müəyyən edin.**

**1.** Qoy birlikdə qərar ver**ək.**
**2.** Kaş səyahətə birgə ged**ək.**
**3.** Gərək tez-tez görüş**ək.**
**4.** Gəl sabah parkda görüş**ək.**

**Qeyd:** Feilin arzu və əmr şəkilləri I şəxsin cəmində forma etibarilə eynidir.
Arzu şəklində iki *(-a, -ə; -q, -k)*, əmr şəklində isə bir *(-aq, -ək)* qrammatik şəkilçi işlənir. Onları ədatların köməyi ilə və ya kontekstə görə fərqləndirmək olar:
• *Kaş **gəl-ə-k.*** (arzu şəkli)
• *Qoy **gəl-ək.*** (əmr şəkli)

Layihə

**1 a** **“Amerika açmaq” ifadəsi hansı situasiyalarda işlənir? Bu ifadənin yaranması hansı tarixi hadisə ilə bağlıdır?**

## Dinləmə 04

**b** **“Amerikanın kəşfi” mətnini dinləyin və aşağıdakı cədvələ əsasən bu qitənin kəşfində hər bir səyahətçinin tarixi rolunu müəyyən edin.**

| Səyahətçilər | Tarix |
|---|---|
| Leyf Erikson | X əsr |
| Xristofor Kolumb | 1492–1504-cü illər (4 ekspedisiya) |
| Con Kabot | 1497–1498 (1 ekspedisiya) |
| Ameriqo Vespuççi | 1499–1501 (3 ekspedisiya) |

**c** **Amerika qitəsinə çox zaman “Yeni dünya” da deyilir. Sizcə, bunun səbəbi nədir?**

**ç** **Aşağıdakı mətnin başlığına diqqət yetirin. Müəllif hansı suala aydınlıq gətirmək istəyir?**

## Niyə “Amerika”?



Amerika qitəsi kimin adını daşıyır? Bu suala hər kəs tərəddüd etmədən cavab verər: Ameriqo Vespuççinin. Növbəti sualı isə hətta böyüklər belə birmənalı cavablandıra bilmirlər: bu qitənin adı niyə məhz Ameriqo Vespuççinin adı ilə bağlıdır? Bəlkə, ilk dəfə bu qitəyə o ayaq basıb? Xeyr, tarixdən məlumdur ki, materikə ilk ayaq basan səyyahlar Kolumb və Con Kabot olub. Bəlkə, **kartoqrafiya** sahəsində təcrübəsi olan Ameriqo tərtib etdiyi xəritələrdə yeni qitənin üzərində öz adını yazıb? Xeyr, o, iddialı insan olmayıb. Bəs niyə “Yeni dünya” Kolumbiya deyil, Amerika adlandırıldı?

### “Yeni dünya”dan məktublar

1503-cü ildə Avropanın müxtəlif şəhərlərində “Mundus Novus” (“Yeni dünya”) adlı beş-altı vərəqdən ibarət məktublar çap olunurdu. Özünü Alberik Vespuççi adlandıran müəllif məktublarında Portuqaliyadan naməlum torpaqlara etdiyi səyahət haqqında məlumat verirdi. Həmin dövrdə yeni kəşflər haqqında belə xəbərlərdən ibarət nəşrlər geniş yayılmışdı. Demək olar ki, bütün səyyahlar öz səfərləri haqqında qohumlarına və ya hökmdarlara məktublar yazırdılar. Lakin Vespuççinin məktubları daha çox oxucu kütləsi toplayırdı. Onun gözəl təsviretmə qabiliyyəti və cəlbedici üslubu var idi. Səyahət boyu rastlaşdığı hadisələri canlı, dəqiq təsvir etməsi oxucularda maraq yaradırdı. Hər kəs səyyahın növbəti məktubunu səbirsizliklə gözləyirdi. Vespuççinin məktubları tez bir zamanda satılır, dəfələrlə təkrar nəşr edilir, müxtəlif dillərə tərcümə olunurdu.

Layihə

Vespuççi yazırdı ki, Kolumbun qərbə gedərkən çatdığı torpaq Hindistan deyil, Asiya ilə Avropa arasında tamamilə naməlum bir yerdir, yeni dünyadır.

Beləliklə, bu məktublar dünya xəritəsinin dəqiq konturlarını tərtib etməyə imkan verdi. Sonradan bir çox tarixçilər Ameriqonun bu məktublarını Amerikanın ilk "Müstəqillik **Bəyannaməsi**" adlandırdılar.

***Vespuççinin məktubundan:***
*"Atlantik okeanında, ekvatorun cənubunda insanların sıx məskunlaşdığı yeni dünya kəşf etdim. Buranın bizə tanış olan dünyadan daha xoş və mülayim bir iqlimi vardır".*

## "Amerika"ya doğru

1504-cü ildə florensiyalı bir naşir Ameriqo Vespuççinin ekspedisiyalarından bəhs edən məktublarını toplu şəklində çap etdi. Naşir bu kitaba Vespuççinin şəxsiyyəti haqqında dəqiq məlumatlar da əlavə etdi. Beləliklə, insanlar məşhur məktubların müəllifini yaxından tanıdılar.




1507-ci ildə İtaliyada nəşr olunan "Kəşflər haqqında **antologiya**" kitabı Vespuççinin şöhrətini bir pillə də yuxarı qaldırdı. Kitabın mündəricatında Vespuççinin adı qarşısında "Yeni dünyanı kəşf edən" ifadəsi işlədilirdi. Düzdür, kitabda onunla yanaşı Kolumb və digər səyyahların səyahətlərindən də danışılırdı. Lakin "Mundus Novus" məktublarının müəllifi onları kölgədə qoyurdu.

## Amerikanın "ad günü"

1507-ci il aprelin 25-də işıq üzü görən "**Kosmoqrafiyaya** giriş" adlı kitab Vespuççinin adını zirvəyə qaldırdı. Bu kitabda Vespuççinin ekspedisiyaları haqqında geniş məlumat verilir. Doğrudur, kitabın 1-ci fəslində Kolumbun adı ötəri çəkilir, lakin bu böyük kəşf tamamilə Vespuççiyə aid edilir. 2-ci fəsildə qeyd edilir ki, dünyanın sərhədləri bir çox insanlar tərəfindən genişləndirilsə də, bəşəriyyət bu haqda ilk dəfə yalnız Ameriqo Vespuççi sayəsində öyrənib.

Yeddinci fəsildə isə müəllif ilk dəfə olaraq sonradan bəşəriyyətin qəbul edəcəyi bir təklif irəli sürür: *"Dünyanın yeni hissəsini Ameriqo tapdığı üçün bu torpaqlar məhz onun şərəfinə adlandırılmalıdır"*. Bu sətirlər, əslində, Amerikanın doğum şəhadətnaməsidir. 12 oktyabr 1492-ci il, yəni Kolumbun Quanahani adasının dumanlı sahilini gördüyü gün yeni qitənin doğum günü, 25 aprel 1507-ci il – "Kosmoqrafiyaya giriş" kitabının mətbəədən çıxdığı gün isə qitənin ad günü sayıla bilər.

*Avropa və Asiya qitələri qadınların adını daşıdığından mən yeni qitəni onu kəşf edən bu kişinin adı ilə Ameriqo ölkəsi və ya sadəcə, Amerika adlandırmaqda heç bir maneə görmürəm.*
*"Kosmoqrafiyaya giriş" kitabından*

**Söz boğçası**
- bəyannamə
- antologiya
- kartoqrafiya
- kosmoqrafiya

Layihə

Əvvəllər yalnız "Cənubi Amerika" adlandırdığımız qitə "Amerika" adlanırdı. XVI əsrin ortalarına doğru bütün xəritə və qlobuslarda Ameriqo Vespuççinin adı həm Cənubi, həm də Şimali Amerikaya şamil edildi.

Hər bir kəşf, sadəcə, tapıntıya görə dəyərli olmur; tapıntı o vaxt kəşfə çevrilir ki, əsl mahiyyəti məlum olur. Kolumbun tarix qarşısında xidməti yeni torpaqları tapmaq oldu. Vespuççi isə bu tapıntının düzgün mahiyyətini aləmə bəyan etdi.

*Ştefan Svayqın "Ameriqo"*
*kitabı əsasında işlənmişdir.*

## Nə anladın?

**d** **Mətnə aid suallara cavab verin.**

**1.** "Yeni dünya"dan məktubların müəllifi kim idi?
**2.** Bu məktublar nə üçün oxucuların diqqətini cəlb edirdi?
**3.** Ameriqo hansı məsələyə aydınlıq gətirdi?
**4.** Hansı kitabda Vespuççi "Yeni dünya"nı kəşf edən adam kimi təqdim edilir?

**e** **Nümunəyə uyğun olaraq "Yeni dünya"nın "Amerika" adlandırılmasının xronikasını cədvəldə əks etdirin.**

**Qlossari**

**Xronika** – müəyyən müddət ərzində baş vermiş hadisələrin və ya bir prosesin mərhələlərinin ardıcıl qeydə alınması.

**Nümunə**

| Tarix | Nəşr | Yenilik |
|---|---|---|
| 1503 | Mundus Novus | Qərbdə Avropa ilə Asiya arasında yeni naməlum torpaqların olduğu bəyan edildi. |

## Düşün və cavab ver

**2 a** **Sizcə, nə üçün əvvəllər yalnız "Cənubi Amerika" adlandırdığımız qitə "Amerika" adlanırdı? Haşiyələrdə verilmiş məlumatlara istinad etməklə cavabınızı əsaslandırın.**

**b** **Dinlədiyiniz "Amerikanın kəşfi" və oxuduğunuz "Niyə "Amerika?" mətnlərini müqayisə edin. Mətnlərə istinad edərək seçiminizi əsaslandırın.**

**1.** Kim? nə? harada? nə zaman? suallarına cavab axtarılır.
**2.** Necə? nə üçün? suallarına cavab verilir.
**3.** Hadisənin səbəbi izah olunur.
**4.** Hadisənin mərhələlərini təşkil edən faktlar sadalanır.
**5.** Xronoloji ardıcıllıq gözlənilir.

Laylə

**Diqqət et**

Həm informativ, həm də izahedici mətnlər məlumatlandırmaq, öyrətmək məqsədilə yazılır. Lakin informativ mətnlər, sadəcə, faktları təqdim etdiyi halda, izahedici mətnlər onların başvermə səbəbini izah edir.

**c** **Mətnin strukturunu şərh edin.**
- **Müəllif girişdə öz məqsədini necə açıqlayır? Oxucunu necə cəlb edir?**
- **Mətnin sonluğunda müəllifin mühakiməsinə münasibət bildirin. Onunla razısınızmı? Yeni dünyanın Ameriqo Vespuççinin şərəfinə adlandırılması ədalətlidirmi?**

**ç** **Təsəvvür edin ki, eyni mövzuda arqumentativ mətn yazırsınız. Sübut etmək istəyirsiniz ki, Amerikanın Ameriqo Vespuççinin şərəfinə adlandırılması tarixi ədalətsizlikdir.**
- **Bu halda mətni necə adlandırardınız?**
- **Girişdə problemi necə açıqlayardınız?**
- **Bildiyiniz faktlardan arqument kimi necə istifadə edərdiniz?**

## Söz ehtiyatı

**3 a** **Mətndən coğrafi terminləri seçin və izah edin.**

**b** **Kontekstdən çıxış edərək fərqləndirilmiş sözün mənasını təxmin edin.**

*Bəlkə, **kartoqrafiya** sahəsində təcrübəsi olan Ameriqo tərtib etdiyi xəritələrdə yeni qitənin üzərində öz adını yazıb?*

- **Təxmininizi əsaslandırın. Cümlədəki hansı ifadələr bu təxminə imkan yaratdı?**
- **Morfemlərin etimologiyasından çıxış edərək sözün mənasını dəqiqləşdirin.**

**karto** (yun. *xarta* – papirus vərəqi)
**qrafiya** (yun. *grapho* – çəkirəm) – bir çox sözlərə qoşularaq "elm" mənası yaradır: *biblioqrafiya, etnoqrafiya* və s.

**c** **Mətndə "kosmoqrafiya" sözünün işləndiyi cümləyə diqqət yetirin. Bu kontekst həmin sözün mənasını müəyyənləşdirməyə imkan verirmi?**

*1507-ci il aprelin 25-də işıq üzü görən "Kosmoqrafiyaya giriş" adlı kitab Vespuççinin adını zirvəyə qaldırdı.*

- **"Kosmoqrafiya" sözünün tərkib hissələrinin (kosmos, qrafiya) etimologiyasını araşdırın və sözün mənasını müəyyən edin.**

**ç** **"Kartoqrafiya" və "kosmoqrafiya" sözlərinin hiperonimini müəyyənləşdirin və bu sözləri izah edin.**

Layihə

**d** **Aşağıdakı ifadələri müqayisə edin.**

- Kolumbun Amerikanı kəşf etdiyi gün
- Kolumbun Quanahani adasının dumanlı sahilini gördüyü gün

- **İfadələrin mənaları arasında fərq varmı?**
- **Hansı ifadə daha ekspressivdir?**

**Qlossari**

**Ekspressiv** – təsirli, ifadəli.

**Yadda saxla** Məcaz

Mətnlərdə bəzən müəyyən söz və ya ifadə eyni məna verən, həmin anlayışın əsas xüsusiyyətlərini əks etdirən ifadə ilə əvəz olunur. Məsələn, müəllif "mən" əvəzinə "bu sətirlərin müəllifi" ifadəsini işlədir. Məcazın bu növü **perifraz** adlanır.

**e** **Mətndən seçilmiş cümlələri şərh edin. Bu cümlələrdə bədiilik elementləri olduğunu əsaslandırın.**

- Ameriqonun məktubları Amerikanın ilk "Müstəqillik Bəyannaməsi" idi.
- Bu sətirlər, əslində, Amerikanın doğum şəhadətnaməsidir.
- 12 oktyabr 1492-ci il yeni qitənin doğum günüdür.
- 25 aprel 1507-ci il qitənin ad günü sayıla bilər.

**ə** **Mətnin adına və yarımbaşlıqlara diqqət yetirin. Sizcə, hər bir yarımbaşlıqda bəzi sözlərin dırnaq içərisində verilməsinin səbəbi nədir?**

- **Aşağıdakı qaydanı oxuyun və öz versiyalarınızla müqayisə edin.**

**Yadda saxla** Dırnaq içərisində yazılan sözlər

Mətndə söz və ifadələr bəzi hallarda dırnaq içərisində yazılır.

**1. Söz və ya ifadənin mənası, mənşəyi, yazılışı və s. vurğulandıqda:**
*Niyə "Amerika"?* başlığında söhbət qitədən deyil, "Amerika" adının yaranmasından gedir. *"Amerikaya" doğru* başlığında da həmin səbəbdən bu söz dırnaq içərisində yazılmışdır: qitəyə doğru deyil, "Amerika" sözünə doğru.

**2. Söz və ya ifadənin başqa mənbədən götürüldüyü vurğulandıqda:**
*"Yeni dünya"dan məktublar* yarımbaşlığında müəllif "Yeni dünya" ifadəsinin ona deyil, Ameriqo Vespuççiyə aid olduğunu vurğulayır.

**3. Söz və ya ifadə məcazi mənada, yaxud kinayə ilə işləndikdə:**
*Amerikanın "ad günü"* yarımbaşlığında "Amerika" adının yarandığı tarixdən danışılır. Burada "ad günü" ifadəsi məcazi mənada işlənib, çünki bu ifadə qitəyə aid ola bilməz.

**f** **Verilmiş cümlələrdə hansı sözlər dırnaq içərisində yazılmalıdır? Səbəbini izah edin.**

**1.** Onun bu yaxşılığı mənə çox baha başa gəldi.
**2.** Mətnin son abzasından belə çıxır ki, tapıntı sözü kəşfin hiperonimidir.
**3.** Çin mənbələrindən məlum oldu ki, bu yazılar tukyuye (türk) xalqına məxsusdur.

Layihə

# Feilin şəkilləri (şərt, xəbər)

**4 a Şeir parçasında şərt mənası ifadə edən feilləri seçin.**

Bacarsan, hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir əmək.
Sən də əldən düşüb yorulsan əgər,
Sənin də yükünü bütün el çəkər. *(Nizami Gəncəvi)*

**Yadda saxla** Feilin şərt şəkli

**Şərt şəkli** feilin kökünə və ya başlanğıc formasına *-sa*[2] şəkilçisini və şəxs şəkilçilərini artırmaqla düzəlir. Məsələn: *çalışsam, düzəlsə, görsək* və s.
*Əgər keçmişə atəş açsan, gələcək səni topa tutacaqdır.* (Otto fon Bismark)
Feilin şərt şəkli çox zaman **əgər, hərgah** bağlayıcıları ilə işlənir:
*Əgər mübarizə **aparsan,** mütləq qalib gələcəksən.*

**b Şərt şəklində olan feilləri seçin, hansı şəxsə aid olduğunu, təsdiq və yaxud inkarda işləndiyini müəyyən edin.**

**1.** Əziyyət çəkib yaxşılıq etsən, əziyyət keçər, yaxşılıq qalar.
Pislik edib ləzzət çəksən, ləzzət gedər, pislik qalar. *(Nəsirəddin Tusi)*
**2.** Adam öz tayını tapmasa, günü ah-vayla keçər.
**3.** Əgər İskəndər olmasaydım, Diogen olardım. *(Makedoniyalı İskəndər)*
**4.** Qəlb də ayna kimidir, sınsa, yapışdırmaqla düzəlməz. *(Atalar sözü)*

**c Cümlələri elə dəyişdirin ki, fərqləndirilmiş feillər şərt şəklində olsun.**

**1.** Gün ***çıxacaq,*** hava isinəcək.
**2.** Yalan ***danışma,*** doğru sözünə də inanmazlar.
**3.** Yol hərəkəti nişanlarını ***tanıyır,*** qaydaları pozmayacaq.

**ç Zamana görə dəyişə bilən feilləri seçin.**

*gətirəcəklər, qayıtsaq, gedəsisiniz, bilinməyir, dinləyirik, qoşular, keçməliyik, sevindilər*

**Yadda saxla** Feilin xəbər şəkli

**Xəbər şəkli** feilin kökünə və ya başlanğıc formasına zaman və şəxs şəkilçilərini artırmaqla düzəlir. Məsələn: *güldüm, anlayır, gələcəyik* və s.

**d Xəbər şəklində olan feillər artırmaqla cümlələri tamamlayın. Onların neçənci şəxsdə işləndiyini müəyyən edin.**

**1.** Gecədən yağan yağış səhərə yaxın ... .
**2.** Külək əsdikcə güllərin xoş ətri ətrafa ... .
**3.** Görünür, uşaqlar məsələnin şərtini yaxşı ... .
**4.** Bu hörməti sən özün ... .
**5.** Şagirdlərimiz Qarabağa həsr olunmuş bayram tədbirinə ... .

Layihə

# Ümumiləşdirici təkrar

**1 Cümlələrdə fərqləndirilmiş feillərin hansı şəklə aid olduğunu müəyyən edin.**

1. Onlar Vətən uğrunda ***döyüşürdülər.***
2. Bu barədə heç kəsə bir söz ***demə.***
3. O da bizimlə səyahətə ***getməlidir.***
4. Mən ata yurdundan ***gedəsi*** deyiləm.
5. Təki gözəl günlər ***görəsən.***
6. Əgər məqsədyönlü ***çalışsaq,*** uğur qazanarıq.

a. Əmr şəkli
b. Vacib şəkli
c. Lazım şəkli
ç. Arzu şəkli
d. Şərt şəkli
e. Xəbər şəkli

**2 Cümlələrdəki feillərin əmr, yoxsa arzu şəklində olduğunu müəyyənləşdirin.**

1. Dost-düşmən yanında üzüağ olasan.
2. Kölgən üstümüzdən əskik olmasın.
3. Övladlarının xoş gününü görəsən.
4. Evindən həmişə şadlıq səsi gəlsin.
5. Allah səni min budaq etsin.
6. Bədnəzərdən uzaq olasan.

**3 Təsriflənən və təsriflənməyən feilləri fərqləndirin.**

lazım şəkli, feili sifət
a. Gələn il əsgərliyə ***gedəsisən***.
b. ***Gedəsi*** *yerimiz çoxdur.*

vacib şəkli, feili sifət
a. İgid oğulların şəninə nəğmə ***qoşmalıyıq.***
b. Şəninə nəğmə ***qoşmalı*** oğullar azdırmı?

xəbər şəkli, feili bağlama
a. Mətni diqqətlə ***oxuyub*** cavab ver.
b. Görünür, mətni diqqətlə ***oxuyub.***

**4 Fərqləndirilmiş feilləri uyğun qrammatik formada işlətməklə cümlələri tamamlayın.**

1. Barı bu istirahət günü **görüş... .**
2. Xeyr, məsələni bir daha **izah et... .**
3. Yaxşı olardı ki, belə işlərə **qarış... .**
4. Bugünkü tədbirdən sonra yaxşıca **dincəl... .**
5. Gənc həkimlər mütləq müşavirədə **iştirak et... .**

arzu şəkli, təsdiq, I şəxsin cəmi
lazım şəkli, inkar, I şəxsin təki
əmr şəkli, inkar, III şəxsin təki
xəbər şəkli, təsdiq, II şəxsin təki
vacib şəkli, təsdiq, III şəxsin cəmi

**5 Nöqtələrin yerinə uyğun şəkilçi yazın və həmin sözlərin feilin hansı şəklində işləndiyini müəyyən edin.**

1. Od olma..., tüstü çıxmaz.
2. Varsa əgər hünərin, hara get...n, var yerin.
3. Əgər həyatda həmişə xoşbəxt ol..., xəyalını quracaq nəyin qalar? *(F.Dostoyevski)*

Layihə

# bölmə 3 Detektiv

1-ci fəsil

**1 a** **Hansı detektiv əsərləri oxumusunuz? Oxuduğunuz əsərdəki xəfiyyə obrazı hansı xüsusiyyətlərinə görə yadınızda qalıb?**

**b** **Detektiv ədəbiyyat haqqında nə bilirsiniz? Mətni oxuyun və yeni öyrəndiklərinizi qeyd edin.**

## DETEKTİV ƏDƏBİYYAT

1 Latın dilində "detekt" sözü "aşkar etmək" mənasını verir. Sonradan bu sözdən yaranan "detektiv" sözü ingilis dilində **"xəfiyyə"** anlamında işlənməyə başladı. Nəhayət, XIX əsrdə ədəbiyyatşünaslıqda xüsusi ədəbi janrı ifadə edən "detektiv" termini ortaya çıxdı. Bu janrda olan əsərlərin süjet xəttini xəfiyyənin təhqiqatı, cinayətin açılması təşkil edir.

2 Detektiv janrının **kriminal** mövzuda yazılmış digər əsərlərdən müəyyən fərqləri var. Bu əsərlərdə baş qəhrəman – xəfiyyə daha çox döyüşkənliyi ilə deyil, ağlı, məntiqi düşüncəsi, araşdırma bacarığı və müşahidə qabiliyyəti ilə seçilir. Müəllif onun zahiri görkəmi, davranışı və xarakterinin təsvirində elə detallardan istifadə edir ki, oxucuda istər-istəməz bu qəhrəmana dərin maraq oyanır. Təsadüfi deyil ki, bir çox detektiv obrazları məşhurluqda öz müəlliflərini **kölgədə qoyublar.**

3 Detektiv əsərlərin strukturu da özünəməxsus olur. Cinayət hadisəsi haqqında xəbər əsərin düyün nöqtəsini təşkil edir. Cinayətin özü isə əsərin sonunda təsvir olunur. Baş qəhrəmanın təhqiqata başlaması ilə hadisələr həyəcanlı dinamika alır. Başqa janrların heç birində hadisələrin inkişafı oxucunu detektivdə olduğu qədər intizarda saxlamır. İstedadlı detektiv ustaları süjeti elə qururlar ki, oxucu gah bu, gah da başqa obrazdan şübhələnir. Və, nəhayət, gözlənilməz sonluq – sən demə, cinayətkar ilk baxışdan yüz faizlik **alibisi** olan obrazlardan biri imiş.

4 İlk detektiv əsəri ("Morq küçəsində qətl", 1841) Amerika yazıçısı Edqar Allan Po yazmışdır. Onun yaratdığı Ogüst Düpen obrazı ədəbiyyat tarixində ilk detektiv obrazı sayılır. Sonradan bir çox yazıçılar öz detektiv obrazlarını yaradarkən Düpenin xarakterik xüsusiyyətlərindən istifadə etmişlər.

5 Bu gün "detektiv" dedikdə ilk yada düşən ad Şerlok Holms olur. Oxucular ilk dəfə bu obrazla 1887-ci ildə ingilis yazıçısı Konan Doylun "Al-qırmızı etüd" əsərində tanış oldular. Bundan sonra müəllif 40 il ərzində bu obrazın iştirak etdiyi daha 59 əsər yazdı. Beləliklə, Şerlok Holms o qədər məşhurlaşdı ki, bir çoxları onun tarixi şəxsiyyət olduğuna inandılar. Londonda onun muzeyi açıldı, bəzi şəhərlərdə hətta Holmsa heykəl qoydular.



*Şerlok Holmsun heykəli (Riqa)*

Layihə

6 XX əsrdə oxucuların detektiv əsərlərə marağını görən bir çox yazıçılar bu janra müraciət etdilər. Bunların arasında ən məşhurları Erkül Puaro obrazının yaradıcısı Aqata Kristi və komissar Meqre haqqında 100-dən çox əsər yaratmış Jorj Simenon idi.



*Erkül Puaro*

7 Azərbaycan ədəbiyyatında detektiv janrının banisi Cəmşid Əmirov sayılır. Onun “Brilyant məsələsi”, “Qara Volqa” kimi romanları Azərbaycan oxucularının ən çox oxuduğu əsərlər siyahısında olub. Bu əsərlərin baş qəhrəmanı olan mayor Rəsulovu Azərbaycan ədəbiyyatında ilk xəfiyyə obrazı hesab etmək olar.

8 Müasir detektiv ədəbiyyatımızın nümayəndələrindən biri də dünya şöhrətli yazıçı Çingiz Abdullayevdir. Onun əsərləri bir çox dillərə tərcümə olunmuşdur. Ç.Abdullayevin yaratdığı xəfiyyə obrazının – Dronqonun adı dünya ədəbiyyatının ən məşhur detektiv obrazlarının adları ilə yanaşı çəkilir.

Bəzi tənqidçilər elə hesab edirlər ki, detektiv əsərlər, sadəcə, əyləncə üçün yazılır, heç
9 bir mənəvi dəyər və ya dərin fikir daşımır. Bununla belə, qeyd etmək lazımdır ki, bu
əsərlər oxucunun məntiqi təfəkkürünü, təxəyyülünü, analiz
və müqayisə bacarığını inkişaf etdirir.

**Söz boğçası**
- xəfiyyə • kriminal
- alibi • kölgədə qoymaq

## Söz ehtiyatı

**c** **Kontekstdən çıxış edərək izahları “Söz boğçası”nda verilmiş sözlərlə uyğunlaşdırın.**

**1.** Müstəqil şəkildə və ya polisin tapşırığı ilə cinayəti araşdıran agent.
**2.** Şübhəli bilinən şəxsin təqsirsiz olduğunu sübut edən danılmaz fakt.
**3.** Cinayətkarlığa aid olan; cinayət işi

## Nə anladın?

**ç** **Uyğunluğu müəyyən edin.**

1 Konan Doyl  2 Edqar Po  3 Aqata Kristi  4 Çingiz Abdullayev  5 Jorj Simenon

a Dronqo  b Komissar Meqre  c Şerlok Holms  ç Erkül Puaro  d Ogüst Düpen

## Düşün və cavab ver

**d** **Mətnin əsas hissəsinə aid yarımbaşlıqların ardıcıllığını və hansı abzasları əhatə etdiyini müəyyənləşdirin.**

**a.** Detektiv ədəbiyyatının yaranması və inkişafı
**b.** Azərbaycan ədəbiyyatında detektiv janrı
**c.** Detektiv janrının xüsusiyyətləri

- **Mətnin giriş və sonluq hissələrini uyğun yarımbaşlıqlarla adlandırın.**

**Qlossari**

**Təhqiqat** – baş vermiş hadisənin araşdırılması
**Tədqiqat** – müəyyən bir varlığın, prosesin xüsusiyyətlərini öyrənmək məqsədilə aparılan elmi araşdırma

Layihə

**2 a** **Konan Doylun neçə əsəri Şerlok Holmsun macəralarından bəhs edir?**

**b** **Şerlok Holms haqqında məlumat vərəqi ilə tanış olun və dünya şöhrətli detektiv haqqında rabitəli mətn qurub danışın.**

## Şerlok Holms kimdir?



**Prototipi:** Cozef Bell – Artur Konan Doylun iş yoldaşı.

**Zahiri görünüşü:** boyu 180 sm-dən çoxdur, arıq bədənlidir, baxışları kəskin və nüfuzedicidir, çənəsi bir qədər qabağa çıxır, nazik burnu, ağıllı siması var.

**İntellekti:** analitik zəkası, müşahidə qabiliyyəti və güclü məntiqi təfəkkürü ilə seçilir. Fakt və dəlillər əsasında cinayətin tam mənzərəsini yarada bilir.

**Hobbisi:** skripkada çalır, boksla məşğul olur.

**Yaşayış yeri:** London, Beyker küçəsi, 221B (Əslində, bu küçədə belə bir ünvan olmayıb).

**Dostu:** doktor Vatson. Şerlok Holms haqqında əsərlər bu obrazın dilindən nəql olunur.

**Qlossari**

**Siluet** – kölgəni xatırladan birrəngli təsvir.

**Profil** – üzün və ya əşyanın yandan görünüşü.

**Məşhurluğu:**
- Şerlok Holms adı dərin müşahidə qabiliyyəti və zəkanı təcəssüm etdirən rəmzi ada çevrilmişdir;
- Əlində lupa, başında ovçu papağı çəkilmiş profil silueti çox məşhurdur;
- Haqqında 200-dən çox film çəkilmişdir. İlk film 1903-cü ildə nümayiş etdirilib, indiyədək Holms rolunu 75 aktyor ifa etmişdir.

**Bu, maraqlıdır**

Fransız yazıçısı Moris Löblan 1906-cı ildə yazdığı “Şerlok Holms çox gec gəlir” hekayəsində dünyanın ən yaxşı xəfiyyəsi ilə ən fərasətli oğrusunu qarşılaşdırır. Bundan hiddətlənən Artur Konan Doyl Löblanı müəllif hüquqlarını pozmaqda ittiham edir. Bundan sonra Löblan Holmsun adını “Herlok Şolms” və Vatsonun adını “Vilson” olaraq dəyişdirir.



**c** **Şerlok Holms haqqında hər hansı filmə baxın.**
**Filmdə Şerlok Holms obrazının hansı xüsusiyyətləri öz əksini tapıb?**

**Təlimat**
1. Filmin adını göstərin.
2. Rejissorun və kinostudiyanın, eləcə də aparıcı aktyorların adını qeyd edin.
3. Filmə maraq oyadan bir şüar yazın.
4. Filmdən cəlbedici bir epizodun fotosunu verin.

## Yazı

**ç** **Baxdığınız filmin afişasını hazırlayın.**

Layihə

**3a Tədqiqatçılar Şerlok Holms haqqında danışarkən onun dərin müşahidə qabiliyyətini və analitik təfəkkürünü vurğulayırlar. Bu keyfiyyətlər haqqında nə deyə bilərsiniz? Mətni oxuyun və fikirlərinizi tamamlayın.**

## Şerlok Holms və doktor Vatson

Mən yuxudan oyananda Şerlok Holms artıq süfrə arxasında idi. Masadan bir jurnal götürüb vərəqləməyə başladım. Jurnaldakı məqalələrdən birinin altından qələmlə xətt çəkilmişdi. Bu, marağıma səbəb oldu və yazını oxumağa başladım.

Məqalə müəllifi iddia edirdi ki, üz ifadələrindən, əzələlərin ən xırda hərəkətlərindən, yaxud adi baxışlardan qarşındakı insanın düşüncələrini təxmin etmək olar. O yazırdı: "İnsanın dırnaqlarına, paltarının qollarına, ayaqqabılarına, şalvarının dizlərindəki qatlara, üz ifadəsinə baxmaqla onun peşəsini təxmin etmək mümkündür..."



Bu yerdə daha dözə bilmədim və jurnalı masanın üzərinə ataraq ucadan dedim:

– Ömrümdə belə cəfəngiyyat oxumamışdım.

Şerlok Holms mənə baxıb təəccüblə soruşdu:

– Nədən danışırsınız?

– Bu məqalədən. Altından qələmlə xətt çəkilibsə, deməli, onu siz də oxumusunuz. Bu məqalə müəllifini bir metro vaqonuna mindirəsən, sonra da içəridəki sərnişinləri göstərib deyəsən: "Hə, buyur, tap görək, bu adamların peşəsi nədir?" Mərc gəlməyə hazıram ki, onun mülahizələri heç bir nəticə verməyəcək!

– Uduzarsınız, doktor Vatson, – Holms sakitcə dedi. – Məqaləni mən yazmışam.

– Siz?!

– Bəli. Mənim müşahidə və analiz etmək bacarığım var. Yadınızdadır, ilk görüşümüzdə Əfqanıstandan gəldiyinizi söyləmişdim. Deyəsən, onda yaman təəccüblənmişdiniz.

– Məncə, bunu sizə kimsə demişdi...

– Qətiyyən. Bu, müşahidəmin nəticəsində gəldiyim qənaət idi. Bəzən başqalarına əhəmiyyətsiz görünən bir detal mənə doğru nəticə çıxarmaq imkanı verir. İlk görüşümüzdə insan anatomiyası üzrə biliklərinizi nümayiş etdirdiniz. Mən də öz-özümə dedim: "Bu adam, böyük ehtimalla, həkimdir, lakin duruşundan hərbçiyə oxşayır. Deməli, hərbi həkimdir. Sifəti qaralıb, ancaq bu onun dərisinin əsl rəngi deyil, çünki biləkləri ağdır. Çox güman ki, cənub ölkələrindən təzəlikcə qayıdıb. Sol qolundan yaralanıb, çünki həmin qolunu, demək olar, hərəkət etdirmir, hərəkət etdirərkən isə ağrı çəkir. İndiki vaxtda İngiltərə ordusu Əfqanıstanda döyüşlər aparır, məhz orada hərbi həkimlərə daha çox ehtiyac var. Deməli, bu adam Əfqanıstandan gəlib". Bütün bu fikirlər beynimdən cəmi bir neçə saniyədə keçdi. Ona görə də Əfqanıstandan gəldiyinizi deyəndə sizi təəccübləndirdim.

Layihə

– Maraqlıdır, – deyə təəccübümü gizlətmədim. – Siz mənə Ogüst Düpeni xatırlatdınız. Mən elə bilirdim, bu cür adamlar ancaq romanlarda olur.

Mən pəncərənin qarşısına keçib küçəyə baxdım. Küçənin əks tərəfi ilə yekəpər bir adam tələsmədən addımlayaraq binaların nömrəsinə baxırdı. Əlində iri, mavi zərf vardı, yəqin, qasid idi. Mən bu adamı Holmsa göstərib soruşdum:

– Maraqlıdır, görəsən, o nə axtarır?

– İstefada olan hərbi dəniz donanması çavuşunu deyirsiniz? – deyə Şerlok Holms növbəti dəfə məni təəccübləndirməyə çalışdı.

Elə bu zaman həmin adam yaşadığımız evin qapısı üzərindəki nömrəni görüb tələsik binaya daxil oldu. Öncə bərk tappıltı, ardınca kobud bir səs, sonra da addım səsi eşidildi. Pilləkənlə ağır-ağır yuxarı, yanımıza qalxan naməlum qonaq əlindəki zərfi otaq yoldaşıma uzadıb dedi:

– Cənab Şerlok Holms sizsiniz? Bu məktub sizə çatacaq.

Bu, çavuş yox, poçt işçisi idi. Mən fürsəti qaçırmaq istəmədim və Şerloku pərt eləmək üçün qasiddən soruşdum:

– Zəhmət olmasa, deyin görək, nə işlə məşğul olursunuz?

– Qasidlik eləyirəm, – adam qaşqabaqlı tərzdə cavab verdi.

– Bəs əvvəllər?.. – mənalı nəzərlərlə Holmsa baxıb yenidən soruşdum.

– Kral ordusunun dəniz qoşunlarında çavuş olmuşam, cənab.

Bundan sonra qasid dabanlarını yerə vurub yüngülcə təzim edərək getdi.

Otaq yoldaşımın nəzəriyyəsi özünü doğrultduqca heyrətim artırdı. Onun istedadı, doğrudan da, hörmətə layiq idi. Amma hərdən də ağlıma gəlirdi ki, bütün bunlar məni təəccübləndirmək üçün əvvəlcədən hazırlanmış bir oyundur...



Şerlok Holms qasidin gətirdiyi məktubu oxuyub bitirdikdən sonra gərgin düşüncələrə qərq oldu. Mən sakitcə soruşdum:

**Söz boğçası**
- tatu
- bakenbard

– Necə bildiniz?

– Nəyi? Hə, onun istefaya çıxmış hərbi donanma çavuşu olduğunu?.. Mənim üçün bunu müəyyənləşdirmək su içmək kimi asandır. Qasidə baxarkən onun qolundakı döyməni – iri, göy lövbər **tatusunu** gördüm. Üstəlik, o, hərbçi qaməti ilə gəzirdi, bundan başqa, hərbçilərə xas **bakenbardı** vardı. Bəyəm bundan sonra hər şey aydın deyilmi?!

– Möcüzədir! – mən ucadan səsləndim.

*Artur Konan Doylun "Al-qırmızı etüd" əsərindən*

Layihə

## Söz ehtiyatı

**b** **Mətnə aid illüstrasiyadan və kontekstdən çıxış edərək "tatu" və "bakenbard" sözlərinin mənasını izah edin.**

## Nə anladın?

**c** **Mətndə hansı suala cavab yoxdur?**

**a.** Vatsonun oxuduğu məqalənin müəllifi kim idi?
**b.** Vatson nədən bildi ki, Holms da məqaləni oxuyub?
**c.** Vatson nə üçün məktub gətirən qasidi sorğu-suala tutdu?
**d.** Qasidin gətirdiyi məktubda nə yazılmışdı?

**ç** **Mətnə əsasən doğru və yanlış fikirləri müəyyən edin.**

**1.** Holms öz müşahidələrindən məntiqi nəticələr çıxarırdı.
**2.** Vatson Holmsun qeyri-adi bacarıqlarına inana bilmirdi.
**3.** Holms qasidi əvvəldən tanıyırdı.
**4.** Vatson Edqar Ponun yaradıcılığına bələd idi.
**5.** Holms həmsöhbətini qəsdən əsəbiləşdirirdi.

## Düşün və cavab ver

**4 a** **Şerlok Holmsun düşüncələrindən çıxış edərək onun doktor Vatson haqqında fikirlərini tamamlayın.**

**1.** Doktor Vatson insan anatomiyası üzrə dərin biliklərə malikdir, deməli, ... .
**2.** ..., deməli, hərbi həkimdir.
**3.** Sol qolunu hərəkət etdirmir, etdirəndə isə ağrı çəkir, deməli, ... .
**4.** Sifəti qaralıb, amma biləkləri ağdır, deməli, ... .
**5.** ..., deməli, Əfqanıstandan gəlib.

**b** **Mətn kimin dilindən nəql olunur?**

**a.** əsərin müəllifinin
**b.** Şerlok Holmsun
**c.** doktor Vatsonun

**c** **Əsəri oxuyarkən sizi daha çox hansı epizod cəlb etdi? Səbəbini izah edin.**

**ç** **Holms Vatsonun məqalə haqqında tənqidi fikirlərinə necə reaksiya verdi? Bu epizodda xəfiyyənin davranışı onun xarakterini necə səciyyələndirir?**

**d** **Keçən dərsdə aldığınız məlumatlardan və digər mənbələrdən çıxış edərək mətndə göy rənglə verilmiş adla bağlı haşiyə xarakterli məlumat yazın.**

Layihə

**e** **Sizcə, oxuduğunuz hissə "Al-qırmızı etüd" əsərinin hansı struktur elmentini təşkil edir? Fikrinizi əsaslandırın.**

**a.** kulminasiya **b.** ekspozisiya **c.** final **d.** düyün **e.** açılma

**ə** **Oxuduğunuz hissənin son epizodlarından çıxış edərək mətnin davamını təxmin edin.**

## Dinləmə 05

**5 a** **Qeydlər götürməklə "Şerlok Holmsun bilik dairəsi" mətnini dinləyin. Qeydlərinizə əsasən suallara cavab verin.**

**1.** Vatsonun təəccübünün səbəbi nə idi?
**2.** Holms hansı məlum faktları bilmirdi?
**3.** Nə üçün o bəzi şeyləri unutmaq istəyirdi?
**4.** Vatson Holms barədə hansı nəticəyə gəldi?

**b** **Şerlok Holmsun hansı sahələrdə dərin bilik və bacarıqları var? Sizcə, bu biliklərin onun peşə fəaliyyəti üçün hansı faydaları ola bilər?**

***1.*** *Ədəbiyyat və fəlsəfə*
***2.*** *Astronomiya*
***3.*** *Botanika*
***4.*** *Kimya*
***5.*** *Geologiya*
***6.*** *Anatomiya*
***7.*** *Cinayət xronikası*
***8.*** *Musiqi*
***9.*** *İdman*
***10.*** *Hüquq*



**c** **Şerlok Holms və doktor Vatsonun zəruri biliklərlə bağlı fikir ayrılığı nədən ibarət idi?**

**ç** **Doğrudanmı hər bir insan yalnız seçdiyi peşəyə dair biliklərə malik olmalıdır? Sualı cavablandırmaqla Şerlok Holmsun və doktor Vatsonun mövqeyinə münasibət bildirin. Həyatdan nümunələr gətirməklə fikrinizi əsaslandırın.**

**d** **Qruplarla iş.** **Aşağıdakı fənlər üzrə elə vacib biliklər var ki, onları hər bir yaşıdınız bilməlidir. Bu biliklərə aid beş sual hazırlayın. Sualları digər qruplara ünvanlayın və həmin biliklərin nə üçün vacib olduğunu əsaslandırın.**

**1.** Azərbaycan dili
**2.** Ədəbiyyat
**3.** Riyaziyyat
**4.** Tarix
**5.** Təbiət

Layihə

## Vurğu

**6 a Sözləri düzgün tələffüz edin. Hansı hecalar daha qüvvətli deyilir?**

*Şerlok, Vatson, London, alibi, astronomiya, botanika, kimya, geologiya, xronika,*

**Yadda saxla** Vurğulu heca

Sözdəki hecalardan birinin daha qüvvətli tələffüz edilməsi **vurğu** adlanır. Vurğu qəbul edən hecaya **vurğulu heca** deyilir. Azərbaycan dilində vurğu, əsasən, sözün son hecasına düşür. Məsələn: *buláq, günéy, bulúd* və s. Lakin elə sözlərimiz də var ki, vurğu ilk hecaya düşür. Məsələn: *áncaq, báyaq, sónra* və s. Bir çox alınma sözlərdə isə vurğu ilk və ya orta hecaya düşür: *rádio, diréktor, monitórinq* və s.

**b Vurğulu hecaya görə dördündən biri fərqlidir:**

**a.** yaylaq **b.** dünən **c.** gerçək **d.** düzgün
**a.** antonim **b.** prototip **c.** papirus **d.** perimetr
**a.** kompas **b.** aktyor **c.** atom **d.** termin
**a.** diskussiya **b.** televizor **c.** repetitor **d.** pianino

**c Fərqləndirilmiş sözləri tələffüz edin. Onların deyilişi və mənaları arasındakı fərqi müəyyənləşdirin. Bu sözləri omonim hesab etmək olarmı?**

**1.** "Molla Nəsrəddin" ilk Azərbaycan **satirik** jurnalıdır.
**2.** Böyük **satirik** Mirzə Ələkbər Sabir özünəməxsus poeziya məktəbi yaratmışdır.

**Yadda saxla** Vurğusu dəyişməklə mənası dəyişən sözlər

Elə sözlər var ki, eyni cür yazılır, lakin vurğuya görə fərqli tələffüz edilir. Belə sözlərin mənası fərqli olur. Məsələn: *qızártma* (inkar feil), *qızartmá* (isim), *qóvun* (feil), *qovún* (isim), *qálın* (feil), *qalín* (sifət) və s.

**ç Altından xətt çəkilmiş sözlərdə vurğunun yerini tapın və həmin sözlərin mənalarını aydınlaşdırın. Uyğunluğu müəyyən edin.**

**a.** Feildən isim düzəldən şəkilçi qəbul edib.
**b.** Feilin inkar şəkilçisini qəbul edib.
**c.** Feilin əmr şəklini bildirən şəkilçi qəbul edib.

**1.** Müəllim uşaqlara **vurma** cədvəlini öyrətdi. a b c
**2.** Posteri o divara **vurma**. a b c
**3.** Kəndlilər **əkin** sahələrində çalışırdılar. a b c
**4.** Yaşıl gələcək üçün ağac **əkin**. a b c
**5.** Qırmızı **çəkmə** balaca Nigarın xoşuna gəldi. a b c
**6.** Rəsmləri bu karandaşla **çəkmə**. a b c
**7.** Bir azdan hər yerdə **biçin** başlanacaq. a b c
**8.** Bağdakı yabanı otları **biçin**. a b c

Layihə

**1a Mətnin adına və epiqrafa diqqət yetirin. Sizcə, onların detektiv əsər və ya xəfiyyə obrazı ilə hansı bağlılığı ola bilər?**

# QUBA KAPRİÇÇİOSU

*Kapriççio elə bir musiqi əsəridir ki, orada təxəyyül gücü sənət qaydalarından daha böyük rola malikdir.*
Antuan Füretyer

## I hissə. "Şah Abbas" almazı



Soyuq və yağışlı payız günü idi. Dronqo görüş təyin etdiyi adamın gəlməsini gözləyirdi. Çox keçmədən Boris adlı bir nəfər gəlib çıxdı. 35-36 yaşı olardı, sarışın, ortaboylu gənc idi.

Tanış olduqdan sonra o, ailəsinin başına gələn əhvalatı danışmağa başladı:

– Mən məşhur zərgərlər ailəsi İzmaylovların nümayəndəsiyəm. Biz Qubada, Qırmızı Qəsəbədə yaşayırıq. Üç ay bundan əvvəl əmim Semyon İzmaylov ağır xəstəlikdən vəfat etdi. Onun uşaqları yox idi, ona görə də var-dövlətinin böyük hissəsini mənə və böyük qardaşım Asifə vəsiyyət etmişdi. Lakin əmimin ölümündən sonra məlum oldu ki, onun bizə miras qoyduğu ən dəyərli əşya – "Şah Abbas" almazı evdən yoxa çıxıb.

Daha sonra Boris "Şah Abbas" almazının tarixçəsini danışdı. Sən demə, bu almaz Nadir şahın xəzinəsinə aid üç dəyərli daşdan biri imiş. Vaxtilə Semyon İzmaylov böyük pul hesabına onu əldə edibmiş.

– **Bəlkə, əminiz almazı satıb?** – deyə Dronqo soruşdu. – Deyirsiniz ki, ağır xəstə idi, müalicə üçün pul lazım ola bilərdi.

– Xeyr, əmim onu satmayıb. Buna əminəm, çünki o, kifayət qədər zəngin adam idi, müalicə üçün pulu var idi. "Şah Abbas" almazı isə ailəmiz üçün çox dəyərli idi.

**– Yaxşı, bəs əminiz vəfat edəndə yanında kim vardı?**

– Qardaşım Asif əmimin evində qalırdı. Ondan başqa, həmin vaxt onun yanında həkimi, xalası qızı, biz ona xala deyirik, qulluqçumuz olub. Evdə başqa adamlar da var idi: bağban, sürücü, əmimin köməkçisi, xalanın oğlu.

– Şübhəlilərin sayı getdikcə çoxalır. Bu, təhqiqatı çətinləşdirəcək. Qiymətli daşın oğurlanması üçün bir motiv ola bilər – varlanmaq. Bu istək isə hər kəsə xasdır. Deyin görüm, **əminiz bu adamlara öz var-dövlətindən nəsə vəsiyyət edibmi?**

– Əlbəttə. Bunlar bizim yaxın adamlarımızdır. Əmim onların hər birinə müəyyən qədər

Layihə

miras qoyub. – Boris bir qədər susub yalvarıcı nəzərlərlə Dronqoya baxdı. – Sizi mənə mahir xəfiyyə kimi tövsiyə ediblər. Deyirlər, açmadığınız cinayət yoxdur. Xahiş edirəm, almazı tapmağa kömək edin.

**– Almazın itdiyini sizdən başqa kim bilir?**

– Mən və qardaşım. Başqa heç kim.

Dronqo iki gün sonra Borislə Qubaya – əminin evinə getməyə qərar verdi. Amma səfərdən bir gün əvvəl başqa bir xoşagəlməz hadisə baş verdi. Boris xəbər verdi ki, kimsə əmisinin Bakıdakı mənzilini qarət edib. Amma oğru evdəki pula, daş-qaşa toxunmayıb. Görünür, daha qiymətli bir şey axtarırmış.

Ertəsi gün mərhumun sürücüsü İsa Aşurov onları Qubaya apardı. Söhbət əsnasında Dronqo və Boris sürücüdən öyrəndilər ki, bağban bir gün əvvəl Bakıya gəlib, sonra təcili Qubaya qayıdıbmış...



## Söz ehtiyatı

**b** **Kontekstdən çıxış edərək “motiv” sözünün mətndəki mənasını müəyyənləşdirin.**

**a.** Süjetin ana xətlərindən biri
**b.** Hər hansı hərəkətə təhrik edən səbəb
**c.** Musiqi əsərində aparıcı melodiya

**c** **Nümunələr gətirməklə “təhqiqat” və “tədqiqat” sözləri arasındakı fərqi izah edin və cümlədə işlədin.**

## Düşün və cavab ver

**ç** **Dronqonun Borisə verdiyi suallara diqqət yetirin.**
- **Sizcə, cinayətin araşdırılması üçün bu sualların hansı əhəmiyyəti ola bilər?**
- **Siz xəfiyyə olsaydınız, başqa hansı suallar verərdiniz?**

**d** **Sizcə, Dronqo təhqiqat üçün hansı addımlar atacaq? Oxuduğunuz detektiv əsərlərdə xəfiyyə təhqiqata nədən başlayır?**

**e** **Əsərin davamı ilə bağlı təxəyyülünüzə uyğun süjet qurun və nəql edin.**

Layihə

**2a Mətnin davamını oxuyun və qurduğunuz süjetlə müqayisə edin.**

## II hissə. Qırmızı Qəsəbədə

Qırmızı Qəsəbədəki evdə hələ də matəm əhvali-ruhiyyəsi hökm sürürdü. Bütün söhbətlər Semyon İzmaylovun ölümü və evinin qarət olunması haqqında idi.

İşlə bağlı Moskvada səfərdə olan Asifdən başqa hamı evdə idi. Boris Dronqonu köhnə dostu kimi təqdim etdi. O, qonağı əmisinin otağına apardı, almazın saxlandığı gizli seyfi göstərdi. Otağın pəncərələrində dəmir barmaqlıqlar var idi, yad adamın bura gizlin girməsi mümkünsüz görünürdü. “Oğru evdəkilərdən biridir”, – Dronqonun ağlından keçən ilk fikir bu oldu.

Dronqo və Boris söhbət edərkən xala və onun oğlu gəlib çıxdılar. Xala qonaqdan utanıb-çəkinmədən Borisə mərhum Semyondan gileyləndi, bir qohum kimi ona və oğluna var-dövlətdən heç nə düşmədiyini dedi.



– Eviniz haqda əfsanələr gəzib-dolaşır, neçə yerdə gizli dolablarınız var, içi daş-qaşla doludur, – deyə xala getdikcə coşurdu. – Hətta bir dənə çox bahalı brilyantınız var. Bunu hamı bilir.

Hiss olunurdu ki, xala bu evdə hamıya nifrət edir. O, gedəndən sonra Boris Dronqonun eşidəcəyi səslə mızıldandı:

– Utanmır, hələ bir danışır! Əmim ona xeyli pul vəsiyyət edib. Oğlu üçün Bakıda biznes açıb, indi dükanları var, yaxşı qazanır.



Bir azdan Semyon İzmaylovun zərgər köməkçisi gəlib çıxdı və Dronqo onunla da tanış oldu. Köməkçi Semyon İzmaylovun işlərinə, sirlərinə yaxşı bələd idi. Birdən o, nədənsə, “Şah Abbas” almazından söhbət açdı, Semyonun bu daşı necə almasından danışdı. Sən demə, illər öncə bu almazla başqa bir nəfər də maraqlanırmış. Köməkçinin dediyinə görə, bu, Qacarlar nəslindən bir iranlı imiş. Nadir şahdan sonra Qacarlar sülaləsi bu almazın sahibi olub, sonra daş əllərindən çıxıb. Amma həmin adamın almazı almağa pulu çatmayıb. Daş Semyona nəsib olub.



Dronqo baş vermiş hadisələrin mənzərəsini beynində canlandırmağa, hər bir şübhəli şəxsi götür-qoy etməyə çalışırdı. Hələ ki bir işıq ucu görünmürdü. O, qulluqçu Fatma ilə də söhbət etmək qərarına gəldi. Fatma evin ən yaxın adamlarından sayılırdı. İllər boyu Semyon İzmaylova qulluq etmişdi. Həmin gecə Asif, həkim və Fatma daim xəstənin yanında olmuşdular. Arada Asif və Fatma dincəlməyə getmiş, səhərə qədər həkim keşik çəkmişdi.

– Asif əmisinə görə çox pis olmuşdu, – deyə Fatma kövrəldi. – Uşaq kimi ağlayırdı. Həkimlə mən otaqdan çıxanda özündən getmişdi. Axı onun ürəkkeçməsi var idi. Nədir onun adı?..

Layihə



– Epilepsiya, – Boris dilləndi.

– Hə, epilepsiyası var. Qayıdanda Asifi döşəmədə gördük. Bayılmışdı. Birtəhər özünə gətirdik. Qardaşımın balaca qızı Nəzrin də yanımda idi.

Bu söhbətdən sonra Dronqo aldığı məlumatları həzm etmək üçün bağa düşüb ağacların arası ilə gəzişməyə başladı. Hasarın yanında ağacları budayan bağbanı görüb ona yaxınlaşdı. Salam verib hal-əhval tutdu, ünsiyyət yaratmaq üçün ağaclar haqqında ağlına ilk gələn bir-iki sual verdi. Bağban qaraqabaq adama oxşayırdı. Onların söhbəti çox çəkmədi. Dronqo dolayı yolla öyrənməyə çalışsa da, bağban şəhərə getməsinin səbəbini açıqlamadı. Ona görə də xəfiyyə çarəsiz halda evə qayıtmalı oldu. Dronqonun təhqiqatını çətinləşdirən o idi ki, xəfiyyə olduğunu gizlətməli, almaz haqqında birbaşa suallar verməməli idi.

Dronqo tez-tez telefonla zənglər edirdi. O, İsa Aşurov, bağban, eləcə də Qacarlar nəslinin Bakıdakı üzvləri ilə bağlı xeyli məlumat toplamışdı.



Ertəsi gün Dronqo Fatmadan xahiş etdi ki, onu balaca Nəzrinlə görüşdürsün. Fatma bunun səbəbini anlamasa da, razılaşdı. Onlar birlikdə Fatmanın bacısıgilə getdilər. Yolüstü Dronqo dükandan gözəl bir gəlincik də aldı. Əvvəlcə söhbət alınmadı. Dörd yaşlı Nəzrin suallara könülsüz cavab verirdi. Elə bu vaxt Dronqo gəlinciyi qutudan çıxarıb uşağa verdi. Qız heyranlıqla oyuncağa baxırdı. Yavaş-yavaş Dronqo suallarına cavab tapmağa başladı. Qızcığaz arada digər otağa keçib yenə Dronqonun yanına qayıtdı. Dronqo söhbətini bitirib Fatma ilə evə qayıtdı. Fatma hiss etdi ki, Dronqoda bir dəyişiklik var, əhvalı yaxşılaşıb.

Nəhayət, Asif də gəlib çıxdı. Onun özü ilə gətirdiyi balaca qutunu Borisə verməsi heç kəsin diqqətindən yayınmadı.

Səhər Dronqo yüngül tappıltı səsinə oyandı. Dəhlizə çıxanda Asiflə qarşılaşdı. Asif mətbəxə su dalınca getmişdi. Bu anda inilti səsi gəldi. Tez Borisin otağına getdilər. Kimsə onun başına küt alətlə zərbə endirib qaçmışdı. Dünən Asifin Borisə verdiyi mücrü yoxa çıxmışdı. Tez həkim çağırdılar. Bir azdan Boris özünə gəldi.

## Nə anladın?

**b** **Mətnə istinad etməklə sualları cavablandırın.**

- **Nə üçün Dronqo oğrunun evdəkilərdən biri olduğunu düşünürdü?**
- **Semyonun köməkçisi Dronqoya almaz haqqında əlavə hansı məlumatı verdi?**
- **Asif hansı xəstəlikdən əziyyət çəkirdi?**
- **Dronqonun təhqiqatını çətinləşdirən nə idi?**

Layihə

**C** **Aşağıdakı suallarla bağlı sinifdə sorğu keçirin və nümunəyə uyğun diaqram qurun.**

- **İzmaylovun şəhərdəki evini kim qarət etmişdi?**
- **Borisə kim qəsd etmişdi?**
- **“Şah Abbas” almazını kim oğurlamışdı?**




**3 a** **Mətnin davamını oxuyun və qurduğunuz süjetlə müqayisə edin.**

## III hissə. Sirlər açılır

Borisə hücumdan sonra prokuror, polis rəisi, Bakıdan gələn əməkdaşlar Semyon İzmaylovun evinə toplaşdılar. Dronqo onların və evdəkilərin böyük otağa yığışmasını xahiş etdi. Bildirdi ki, təhqiqatın nəticələrini açıqlayacaq.

Hamı yerini rahatladıqdan sonra Dronqo üzünü sürücüyə tutub uca səslə dilləndi:

– İsa Aşurov! Sizin əsl soyadınız Aşuridir, deyilmi? Faid xanın nəvəsi İsa Aşuri!

Sürücünün rəngi ağardı, əlinin titrəməsini gizlətmək üçün bərk-bərk dizlərindən yapışdı.

– Sürücü üçün çox ziyalı nitqiniz var. Diqqətimi cəlb edən də elə bu oldu. Haqqınızda məlumat topladım. Məlum oldu ki, ali təhsil almısınız, baş mühəndis işləmisiniz. Sonra hər şeyi atıb Semyon İzmaylovun sürücüsü olmusunuz. Niyə? Yalnız ona görə ki vaxtilə atanızın ala bilmədiyi “Şah Abbas” almazını oğurlayasınız. Semyonun vəfatından sonra onun şəhərdəki evinə soxulmusunuz. Amma orada almazı tapa bilməmisiniz. Bu cinayəti bağbanın üstünə atmaq üçün həmin gün onun Bakıda olduğunu dediniz. Bağban, doğrudan da, o gün şəhərdə olub. Amma başqa səbəblə: maşınla qəza törətdiyinə görə onu Yol Polis İdarəsinə çağırıblarmış. Ev sahiblərinin qəzəbindən qorxub bunu mənə demədi. – Dronqo başını aşağı dikmiş bağbana bir anlıq nəzər salıb sözünə davam etdi. – Nəhayət, Asif Borisə mücrünü verəndə elə bilmisiniz ki, almaz bu mücrüdədir. Ona görə də Borisə qəsd etmisiniz. Yenə cəhdiniz boşa çıxıb...



Sürücü dözə bilməyib yerindən dik atıldı:

– Hamınıza nifrət edirəm! Bəli, mən – Faid xanın nəvəsi bu adamlara nökərlik etmişəm ki, babalarıma – böyük Qacarlar nəslinə aid olanı geri qaytarım...

– Sən Qacar deyilsən! – Dronqo onun sözünü kəsib ikrahını bildirmək üçün “sən”ə keçdi. – Baban Qacarlar xanədanının sonuncu nümayəndəsi Əhməd şahın arvadı tərəfdən qohumu olub. Sənin damarlarından zadəgan qanı axmır.

Sonra Dronqo üzünü polis rəisinə çevirdi:

– Cənab rəis, mən hələlik sözümü bitirdim. Cinayətkar sizindir.

Polislər İsanı qandallayıb apardılar. Hamı cinayətkarın tapılmasına çox sevindi. Amma eyni zamanda hər kəsi düşündürən bir sual vardı: bəs almaz hardadır?

*Çingiz Abdullayevin “Quba kapriççiosu” əsəri əsasında işlənmişdir.*



## Dinləmə 06

**b** **Mətnin davamını dinləyin və sualları cavablandırın.**

**1.** Dronqo İzmaylov qardaşlarına nə barədə məlumat verdi?
**2.** Asif nəyə görə Dronqonun sözlərindən əsəbiləşdi?
**3.** Asifin emosionallığı və rasionallığı özünü nədə göstərdi?
**4.** Almazın yoxa çıxmasını oğurluq adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.

**Qlossari**

**Emosional** – tez həyəcanlanan, hisslərini cilovlaya bilməyən.
**Rasional** – ağıl və məntiqə əsaslanan.
**Potensial** – mümkün ola bilən, gizli şəkildə qalan.

**c** **“Potensial” sözünü cümlələrdə isim və sifət kimi işlədin.**

**ç** **“Quba kapriççiosu” mətninin struktur elementlərinə uyğun epizodları müəyyən edin.**

Ekspozisiya: *Dronqo Boris adlı gənclə tanış olur.*
Düyün (konflikt): ____________________
Hadisələrin inkişafı: ____________________
Kulminasiya (zirvə): ____________________
Açılma: ____________________
Final: ____________________

**d** **“Quba kapriççiosu” mətninin finalı:**

**a.** gözlənilməzdir **b.** düşündürücüdür **c.** nəsihətamizdir

Layihə

## Mürəkkəb sözlərin yaranma yolları

**4 a** **Verilmiş cümlələrdə mürəkkəb sözləri tapın və uyğunluğu müəyyən edin.**

**1.** Şagirdlər bir-bir sinfə daxil olurdular.
**2.** Gec-tez bu məsələni hamı biləcək.
**3.** Baba kənddən süd-qatıq gətirdi.
**4.** Hamı bilir ki, Tural ağıllı-kamallı uşaqdır.

**a.** hiponimlərin birləşməsi
**b.** sinonimlərin birləşməsi
**c.** eyni sözün təkrarı
**d.** antonimlərin birləşməsi

**Xatırla**

Eyni sözün təkrarı ilə yaranan bəzi mürəkkəb sözlərin tərəfləri qrammatik şəkilçi ilə işlənir. Cümlələrdə yanaşı gələn eyni sözlərdən fərqli olaraq, belə sözlər birlikdə vahid məna bildirir və defislə yazılır:
*Bu əfsanə dildən-dilə düşərək yayıldı.*

**b** **Hansı cümlələrdə fərqləndirilmiş sözlər defislə yazılmalıdır? Səbəbini izah edin.**

**1. Əldən ələ** keçir vəfasız həyat. *(Səməd Vurğun)*
**2.** Zalın döşəməsi **başdan başa** xalça ilə örtülmüşdü.
**3. Adamdan adama** fərq var.
**4.** Onunla **üz üzə** oturub söhbət etmək lazımdır.

**c** **Aşağıdakı sözləri tərkib hissələrinə ayırın. Hansı sözlər defislə yazılmalıdır?**

*fotokamera, eksçempion, supermarket, qeyridəqiq, makromolekul*
*əkssəda, artbiznes, videoklip, vitsespiker, multimilyoner, subtropik*

**Xatırla**

Tərkibində **art-, eks-, əks-, kontr-, qeyri-, ober-, veb-, vitse-** morfemləri olan mürəkkəb sözlər defislə yazılır.

**ç** **Nöqtələrin yerinə *a, ha, ba, bə* morfemlərindən uyğun gələnini müəyyən edin.**

**1.** Festival iştirakçıları şəhər...şəhər gəzirdilər.
**2.** Güclü külək qapıları tay...tay açdı.
**3.** Zəng vurulan kimi qaç...qaç düşdü.
**4.** Sərnişin axını stansiyada bas...bas yaratdı.
**5.** Qarışıqlıq düşdü, vur...vur başlandı.

**Qlossari**

**Morfem** – sözün tərkib hissəsi: kök, şəkilçi və ya bitişdirici hissəcik.

Layihə

**Yadda saxla** Bitişik yazılan mürəkkəb sözlər

Bitişik yazılan mürəkkəb sözlər aşağıdakılardır:
**1.** Eyni feil kökünün təkrarı və *a, ə, ha* bitişdiriciləri vasitəsilə əmələ gələn mürəkkəb isimlər: *qaçaqaç, kəsəkəs, yazhayaz*. Sözün kökü kar samitlə bitdikdə *a, ə,* cingiltili samitlə bitdikdə ***ha*** bitişdiricisi yazılır: *tutatut, qovhaqov. Gethaget* sözü istisnadır.
**2.** Eyni ismin təkrarı və ***ba, bə*** bitişdiriciləri vasitəsilə əmələ gələn mürəkkəb zərflər və sifətlər: *aybaay, günbəgün*, *rəngbərəng*.
**3.** Müxtəlif mənalı sözlərin birləşməsindən yaranan mürəkkəb sözlər: *sülhsevər, arabir, stolüstü.*

**d Cümlələrdə fərqləndirilmiş eyni ifadələri müqayisə edin.**
- **Hansı cümlələrdə bu sözlər bitişik yazılmalıdır? Fikrinizi əsaslandırın.**
- **Hansı ifadələrin komponentlərinə ayrı-ayrılıqda sual vermək olar?**
- **Hansı ifadələr bir vurğu ilə deyilir?**

**1.** Qonşumuz Fəridə xala çox **şirin dil** insandır.
**2.** **Şirin dil** ilanı yuvasından çıxarar.
**3.** **Gülər üz** xoş münasibət yaradır.
**4.** Həkimlərin fikrincə, **gülər üz** insanlar daha az xəstələnir.
**5.** Mağazadan yeni **paltar yuyan** maşın aldıq.
**6.** Qızlar çayda **paltar yuyan** qadına kömək etdilər.

**Yadda saxla** Mürəkkəb sözlər və söz birləşmələri

Müxtəlif mənalı sözlərin birləşməsindən əmələ gələn mürəkkəb sözlər quruluşuna görə söz birləşmələrinə bənzəyir:
- *beş mərtəbə – beşmərtəbə;*
- *ad qoymaq – adqoyma.*

Lakin söz birləşməsindən fərqli olaraq, mürəkkəb sözlər:
- vahid məna bildirir: *günəbaxan* – tumundan yağ alınan birillik bitki
- bir vurğu ilə deyilir: *günə´ baxán – günəbaxán*

Bir çox söz birləşmələrinin əsas tərəfinə şəkilçi artırmaqla mürəkkəb söz yaratmaq olur:
*on bir il – onbirillik, üç otaq – üçotaqlı*

**e Verilmiş söz birləşmələrini mürəkkəb söz kimi cümlələrdə işlədin.**

Nümunə **üç rəng –** *Şuşada* ***üçrəngli*** *bayrağımız qürurla dalğalanır.*

üç rəng, əl-üz yumaq, and içmək, ağıla batmaq, uzun boğaz, qırmızı yanaq, nəfəs vermək, hündür mərtəbə, göz ucu, qara toyuq, yer altı, göydən düşmək

Layihə

**1a** **Müşahidəçi insan dedikdə nə başa düşürsünüz? Sizdə müşahidə qabiliyyəti nə dərəcədə güclüdür?**

# QATARDA SÖHBƏT

Səhər yenicə açılmışdı. Astara-Bakı qatarı paytaxta yaxınlaşırdı. Vaqon bələdçisi sərnişinləri yuxudan oyatdı:

– Yoldaş sərnişinlər, qalxın, Bakıya az qalıb. Tez olun, yorğan-döşəyi təhvil verin.

7-ci kupenin qapısı açıq idi. Arıq, eynəkli kişi diqqətlə kitab oxuyur, tez-tez qələmlə qeydlər edirdi. Kupenin digər sərnişinləri – ortaboylu, **qarabəniz** kişi, başına kəlağayı örtmüş gənc qız və kök qadın vaxt öldürmək üçün söhbət edirdilər.



Bu zaman dəhlizdən keçən **milis** leytenantı kupenin qapısı ağzında ayaq saxladı, salam verib diqqətlə sərnişinlərə nəzər saldı. Sonra yoluna davam etdi.

O gedəndən sonra eynəkli kişi **dodaqaltı** mızıldandı:

– Xeyir ola, görəsən, bu milis zabiti nə üçün gəlmişdi?

– Yəqin, vaqonda oğurluq-zad olub, oğrunu axtarır, – deyə dolu qadın cavab verdi.

Eynəkli kişi milis işçilərindən şikayətləndi:

– Belə də oğru axtararlar? Bəlkə, elə oğru mənəm. Niyə o, kupemizi yoxlamadı. Milis belə işləyəndə, əlbəttə, oğru tapılmaz, **əliəyri** adamlar da istədiklərini edərlər.

Dolu qadın onun sözünü təsdiqlədi:

– Haqlısınız. Bir ay bundan əvvəl qonşumuzun evini **yarmışdılar.** Milis işçiləri gəlib şahidləri dindirdilər, **başdansovdu protokol** yazdılar. Ancaq oğru tapılmadı.

Özünə həmfikir tapan eynəkli kişi bir az da coşdu:

– Bilirsiniz, milis nə üçün pis işləyir? Çünki onlarda peşəkarlıq çatışmır. Adam gərək öz sənətinin mahir ustası olsun. Qabaqlar Şerlok Holms adlı məşhur bir ingilis xəfiyyəsi varmış. Adama baxan kimi onun xasiyyətini, sənətini, cinayətkar olub-olmadığını müəyyən edə bilirmiş. İndi belələri tapılmaz.

Qarabəniz kişi etiraz etdi:

– Niyə elə düşünürsünüz? İndi də belələri var. Baxın, mən sizi birinci dəfədir, görürəm, elə deyilmi?

– Elədir, məncə, biz tanış deyilik, – eynəkli kişi diqqətlə həmsöhbətinə baxdı.

– Amma sizin haqqınızda bəzi şeylər deyə bilərəm.

– Buyurun görək, cənab Şerlok Holms, – kişi istehza ilə dedi.

– Sizin mədəniz xəstədir, hərdən böyrəklərinizdən şikayətlənirsiniz, uzun müddətdir ki, **hesabdar** işləyirsiniz, həm də subaysınız.

Layihə

Eynəkli kişinin bayaqkı istehzalı baxışından əsər-əlamət qalmadı:

– Biz dəqiq tanış deyilik? – deyə heyrətlə soruşdu.

– Xeyr, mən sizin nə adınızı, nə də soyadınızı bilirəm. Bütün bunları yalnız müşahidələrim əsasında dedim. Dilinizin üstündəki ağ ləkələr göstərir ki, mədəniz xəstədir, gözlərinizin altındakı şiş isə böyrəklərinizin xəstə olmasından xəbər verir.

– Hə, anladım. Siz həkimsiniz, ona görə də xəstəliyimi təyin edə bildiniz.

– Xeyr, siz səhv edirsiniz. Həkim qarşınızda oturan bu xanımdır, – deyib qızı göstərdi.

Bayaqdan söhbəti maraqla dinləyən gənc qız təəccüblə dilləndi:

– Düz tapmısınız. Siz bunu necə bildiniz?

Qarabəniz kişi qızın sualını cavabsız qoyub eynəkli ilə söhbətinə davam etdi:

– Pencəyiniz qara rəngdədir, amma yuxarıdan ikinci düyməsi ağ sapla tikilib. Görünür, düyməni özünüz tikibsiniz. Əgər evli olsaydınız...

– Aydındır, – deyəsən, düymə söhbəti kişiyə xoş gəlmədi. – Bəs hesabdar olmağım...

– Bayaqdan mühasibatlıq üzrə kitab oxuyursunuz. Bu o deməkdir ki, peşəniz **maliyyə** ilə bağlıdır. Kitabı elə vərəqləyirsiniz, sanki çötkə ilə işləyirsiniz. Sağ əlinizdə barmaqlarınızın ucları qabardır. Deməli, **mühasib** yox, hesabdarsınız.

– Mənim daha sözüm yoxdur, – kişi təslim olurmuş kimi əllərini yuxarı qaldırdı.

Həkim qız dilləndi:

– Bəs mənim həkim olduğumu necə təyin etdiniz?

– Bu da çətin olmadı. Sağ əlinizin barmaqları yoda batıb. Düşündüm ki, ya tibb bacısı, ya da həkimsiniz. Sonra çantanızı açanda oradakı **fonendoskop** gözümə sataşdı. Fonendoskopla xəstələrə yalnız həkimlər qulaq asırlar.

– Bəs bu bacı haqqında nə deyə bilərsiniz? – deyə eynəkli kişi dolu qadını göstərdi.

– Çox şey. Ancaq bacı icazə versə, mən onun bir sirrini açaram.

– Maraqlıdır, – qadın bir az tutuldu. – Yaxşı, deyin görək, mənim nə sirrim var?

– Siz lotereyada min manat pul udmusunuz. Bayaqdan cibinizdəki qəzetdə uduş cədvəlinə baxırsınız. Orada 01226 nömrəsinin altından xətt çəkilib. Şübhəsiz, bu sizin qismətinizə düşmüş lotereyanın nömrəsidir. Həmin lotereya bileti isə çantanızdakı pulqabındadır. Bir neçə dəfə pulqabını açıb onun yerində olub-olmadığını yoxlamısınız.

– Əcəb yaddaşınız var! Mən üç gündür, bu nömrəni yadımda saxlaya bilmirəm.

– Mən buna vərdiş etmişəm. Hər şeyə diqqət etməyə, yadımda saxlamağa alışmışam. Peşəm bunu tələb edir.

– Sizin peşəniz nədir ki? – sərnişinlər bir ağızdan soruşdular.

– Əgər bunu təxmin edə bilmədinizsə, icazə verin, özümü təqdim edim: milis mayoru Rəsulov.

*Cəmşid Əmirovun "Brilyant məsələsi" əsəri əsasında işlənmişdir.*

**Söz boğçası**

- milis
- protokol
- hesabdar
- maliyyə
- mühasib
- fonendoskop

Layihə

## Söz ehtiyatı

**b** **Mətndə mavi rəngdə verilmiş ifadə hansı cümlədə mətndəki mənasında işlənib?**

**1.** Əsgərlər hücuma keçib mühasirəni yardılar.
**2.** Gəmi dalğaları yarırdı.
**3.** Görəsən, dükanı kim yarıb?
**4.** Ata həyətdə odun yarır.

## Nə anladın?

**c** **Şəkillərin hansı obrazlara aid olduğunu müəyyən edin və mətnə əsasən onlar haqqında danışın.**






## Düşün və cavab ver

**ç** **Mayor Rəsulov hansı müşahidələr əsasında aşağıdakı nəticələrə gəlmişdi?**

• Eynəkli kişi:
– hesabdardır;
– böyrəkləri xəstədir;
– mədəsi xəstədir;
– subaydır.
• Gənc xanım həkimdir.
• Dolu qadın lotereyada 1000 manat pul udub.

**d** **Uyğunlaşdırma aparmaqla mətndəki mürəkkəb sözlərin yaranma yolunu müəyyən edin.**

**a.** dodaqaltı
**b.** qarabəniz
**c.** əliəyri
**ç.** başdansovdu

**1.** Sözün 1-ci komponenti mənsubiyyət şəkilçisi qəbul edib.
**2.** Sözün 2-ci komponenti mənsubiyyət şəkilçisi qəbul edib.
**3.** Sözün hər iki komponenti qrammatik şəkilçi qəbul edib.
**4.** Sözün heç bir komponenti şəkilçi qəbul etməyib.

Layihə

**2 a Hər hansı nümunə əsasında detektiv əsərin strukturunu şərh edin.**

**1.** əsas obrazlar haqqında məlumat **2.** hadisə haqqında xəbər
**3.** təhqiqat **4.** sirlərin açılması

**b Aqata Kristinin "Müəmmalı vəsiyyətnamə" əsərindən verilmiş parçanı oxuyun. Sizcə, bu hissə mətnin süjetində hansı mərhələni təşkil edir? Fikrinizi əsaslandırın.**

**a.** ekspozisiya **b.** düyün **c.** kulminasiya **d.** açılma

**Müəmmalı vəsiyyətnamə**

Bir gün Vayolet Marş adlı gənc xanım Puaroya müraciət edir. Məlum olur ki, o, əmisi Endrü Marşın himayəsində böyüyüb. Mister Marş Vayoletin ali təhsil almasını istəməyib. Onun fikrincə, həyat təcrübəsi və fərasət universitet təhsilindən daha vacib imiş. Buna baxmayaraq, Vayolet oxuyub, universiteti bitirib. Əmisi vəfat edərkən bütün var-dövlətini ona vəsiyyət edib. Amma vəsiyyətnamədə bir şərt qoyulub: Vayolet o zaman mirasa sahib ola bilər ki, əminin ölümündən sonrakı bir il ərzində ağıllı və fərasətli olduğunu sübuta yetirsin. Əks halda, bütün var-dövlət xeyriyyə təşkilatına veriləcək.

– Axı mən ağıllı olduğumu necə sübut edim? – deyə Vayolet çarəsiz halda Puaroya müraciət etdi. – Əgər bunu etməsəm, xeyriyyə təşkilatı mirası əlimdən alacaq.

Puaro bütün faktları götür-qoy etdikdən sonra qıza dedi:

– Görünür, əminiz çox ağıllı adam olub. O, əlinizdəki vəsiyyətnamədən başqa birini də hazırlayıb, haradasa gizlədib. Fərasət göstərib onu tapmanız üçün sizə bir il vaxt verib. Çox güman ki, həmin sənəddə əminiz mirası qeydsiz-şərtsiz sizə vəsiyyət edib. İkinci vəsiyyətnaməni tapsanız, əminizin şərtinə əməl etmiş olarsınız, problem də öz-özünə həll olunar.

– Mister Puaro, xahiş edirəm, sənədi tapmaqda mənə kömək edin.

Puaro razılıq verdi və ertəsi gün Endrü Marşın malikanəsinə yollandı...

## Düşün və cavab ver

**c Hekayənin əsasında hansı hadisə durur?**

**ç Endrü Marş obrazına, onun təhsillə bağlı fikirlərinə münasibət bildirin.**

**d Mətnin davamını öz təxəyyülünüzə əsasən nəql edin.**

- Puaronun təhqiqatını təsvir edin: malikanədə axtarış, şahidlərin dindirilməsi və s.
- Əsəri gözlənilməz sonluqla bitirin.

## Dinləmə 07

**e Mətnin davamını dinləyin və öz variantınızla müqayisə edin.**

**ə Mister Marşın vəsiyyətnamə ilə bağlı hərəkətini necə qiymətləndirirsiniz?**

Layihə

## Ayrı yazılan mürəkkəb sözlər

**3 a Hansı cümlələrdə fərqləndirilmiş ifadələr bir suala cavab verir və bir cümlə üzvü kimi çıxış edir?**

**1.** Mən sizin nə adınızı, nə də **soyadınızı bilirəm.**
**2.** Amma sizin haqqınızda bəzi şeylər **deyə bilərəm.**
**3. Bu gün** Tarix muzeyinə ekskursiyaya gedəcəyik.
**4. Bu gün** heç vaxt yaddaşlardan silinməyəcək.

**Yadda saxla** Ayrı yazılan mürəkkəb sözlər

Elə mürəkkəb sözlər var ki, ayrı yazılır. Məsələn:
Saylar: *iyirmi iki, yetmiş üçüncü, bir çox, bir qədər, beşdə bir* və s.
Əvəzliklər: *kim isə, hər kim, hər biri, heç kim, heç nə* və s.
Feillər: *şad olmaq, kömək etmək, görə bilmək* və s.
Zərflər: *hər an, bu gün, bir dəfə, bir qədər* və s.
Bağlayıcılar: *yəni ki, belə ki, həm də, o cümlədən, madam ki* və s.
Modal sözlər: *şübhəsiz ki, yəqin ki, doğrudan da, bəlkə də* və s.
Nidalar: *ay aman, ey vay, ay haray, ay can* və s.

**b Ayrı yazılan mürəkkəb sözləri tapın və hansı nitq hissəsi olduğunu müəyyən edin.**

**1.** Bir zaman onlar yaxın dost idilər.
**2.** Sənin xəttini oxuya bilmirəm.
**3.** İcazəsiz heç yerə getmə.
**4.** Bacımın on iki yaşı var.

**c Hansı sözlərə *bir* sözünü əlavə etməklə mürəkkəb söz yaratmaq olar?**

• ağızdan • anda • qələm • ara • adam • tapşırıq • azdan • qədər • zaman • kərə

**ç Nöqtələrin yerinə uyğun gələn mürəkkəb sözləri yazın və hansı nitq hissəsi olduğunu müəyyən edin.**

*yəqin ki, ona görə də, daha da, ay haray*

**1.** Qızlar ... səylə çalışmağa başladılar.
**2.** ..., dostumun mövqeyini dəstəkləyəcəyəm.
**3.** ..., köməyə gəlin!
**4.** Yağış yağırdı, ... çətir götürdüm.

**Diqqət et**

“Etmək”, “olmaq” sözləri ilə işlənən bəzi mürəkkəb feillərdə əsas söz ayrılıqda işlənə bilmir: *bəxş etmək, cəzb etmək, peyda olmaq* və s.

Layihə

# Ümumiləşdirici təkrar

**1** **Verilmiş sözlərdə vurğunun yerini müəyyənləşdirin və cədvəlin uyğun sütunlarına yazın.**

*dünən, komediya, coğrafiya, lampa, qalereya, stansiya, fayton, həmişə, qəhrəmancasına, defis, bəzi, zoologiya*

| vurğusu 1-ci hecaya düşənlər | vurğusu 2-ci hecaya düşənlər | vurğusu 3-cü hecaya düşənlər |
|---|---|---|
| | | |

**2** **Verilmiş sözləri vurğunun yerini dəyişməklə cümlələrdə işlədin.**

*alın, süzmə, gəlin, dondurma, səpin, bölmə*

**3** **Sütunlarda verilmiş sözlərin köməyi ilə mürəkkəb sözlər düzəldin və yaranma yollarına görə qruplaşdırın:**
**1) yaxın mənalı 2) hiponim 3) eyni sözün təkrarı 4) müxtəlif mənalı**

| | |
|---|---|
| qayda | deyinə |
| dərə | köynək |
| asta | gəliş |
| şalvar | qatıq |
| adət | təpə |
| gediş | qanun |
| süd | ənənə |
| deyinə | asta |

**4** **Hansı nümunələr həm mürəkkəb söz, həm də söz birləşməsi kimi işlənə bilər?**

ildönümü, düzbucaq, yeniyetmə, qısasaç, ağcaqanad, anadangəlmə, gəzhagəz, otbiçən, qaragöz, tozsoran

**5** **Hansı cümlədə fərqləndirilmiş ifadə bir suala cavab verir və bir cümlə üzvü kimi çıxış edir?**

1. *Bu saat* yanıma gəl, səni gözləyirəm.
2. *Bu saat* mənim xoşuma gəlir.
3. O *bir balaca* nəfəsini dərib sonra sözə başladı.
4. *Bir balaca* ağaca xeyli quş qonmuşdu.

**6** **Hansı sözlər həm *etmək,* həm də *olmaq* sözləri ilə işlənərək mürəkkəb sözlər yarada bilir?**

ram, göz-qulaq, riayət, biabır, var-gəl, darmadağın, dərk, bais, xahiş, halbahal

Layihə

bölmə 4

# Tarix, yoxsa mif?

1-ci fəsil

**1 a** **“Mif” sözünün həqiqi və məcazi mənasını izah edin.**

## DOĞRUDANMI?...

Geniş yayılmış bir sıra fikirlər var ki, dərindən araşdırdıqda onların həqiqət olmadığı və ya şübhə doğurduğu ortaya çıxır. Azərbaycan dili dərslərində mətnləri oxuyarkən siz dəfələrlə bunun şahidi olmusunuz. Məsələn:

- *Doğrudanmı Qədim Misir hökmdarlarına firon deyirdilər?*
- *Doğrudanmı Homerin gözləri görməyib?*
- *Doğrudanmı Magellan dünya ətrafına səyahət edib?..*



**Bəs siz müəyyən məlumatlarla qarşılaşdıqda “Doğrudanmı belədir?” – deyə özünüzə sual verirsinizmi? Əksəriyyətin həqiqət kimi qəbul etdiyi stereotipləri qırmağa cəhd edirsinizmi?**

**Qlossari**

**Stereotip** – müəyyən hadisələrlə bağlı şüurlarda kök salmış, daşlaşmış təsəvvürlər.

**b** **Araşdırma apararkən və ya müəyyən bir suala aydınlıq gətirmək üçün hansı informasiya mənbələrinə müraciət edirsiniz?**
**Bu haqda şifahi sorğu keçirin.**

**1.** İnternetdə yerləşdirilmiş məqalələri oxuyuram.
**2.** Müəllim və ya valideynimə müraciət edirəm.
**3.** Kitabxanalara və kitab mağazalarına üz tuturam.
**4.** Sosial şəbəkələrdən (feysbuk, votsap, teleqram və s.) istifadə edirəm.
**5.** Çatbotdan (internet istifadəçisi ilə süni intellektin ünsiyyəti üçün yaradılmış onlayn proqram) istifadə edirəm.






Layihə

# Uşaqlara Şaxta baba haqqında həqiqəti deyəkmi?



Aytən beş yaşlı oğlunu Yeni il şənliyinə apardı. Şaxta baba və Qar qızla şəkil çəkdirən Murad çox sevinirdi. Qayıdarkən yolda durmadan anasına suallar verirdi:

– Ana, Şaxta baba harada yaşayır?.. Qonaq çağırsaq, bizə gələr?..

Aytən Muradın suallarına cavab verməkdə çətinlik çəkirdi. Evə qayıtdıqdan sonra o qərara gəldi ki, sosial şəbəkədə üzvü olduğu "Analar və balalar" qrupuna müraciət etsin.

**Analar və balalar**

**Aytən Nuriyeva** · 29 dekabr · 19:03

**Salam, dostlar. 7 yaşlı oğlum Şaxta baba haqqında suallar verir. Məsələn, soruşur ki, niyə Şaxta baba yalnız Yeni ildə gəlir? Sizcə, ona həqiqəti söyləyim?**

Samirə92, Psixoloq Nərmin və daha 38 — 9 şərh

Bəyən | Cavabla | Paylaş

**Solmaz**
Niyə də yox. Nə vaxtadək uşaqlara həqiqət əvəzinə nağıl söyləyəcəyik?

**Psixoloq Pərvin**
Bu cür həqiqətlər uşaqlarda xəyal qırıqlığı yarada bilər. Siz deyə bilərsiniz ki, Şaxta baba şimalda, Laplandiya deyilən ölkədə yaşayır. Ora həmişə soyuq olur, ona görə də Şaxta baba istilər düşən kimi öz vətəninə qayıdır.

**Aynur**
Bu fidan balalardan hərdən elə suallar çıxır ki. O gün Ömərim soruşur ki, ana, məni bazardan almısınız? Allah hamısını saxlasın.

**Solmaz**
Psixoloq Pərvin, özünüz bilirsiniz ki, bu günün yeddi yaşlı uşağı bizim vaxtımızdakından xeyli fərqlənir. Bu yaşda uşaqlara məktəbdə həyat bilgisi keçirlər. Nəyə görə biz onların beynini uydurmalarla doldurmalıyıq?

Layihə



**Samirə92**
Tarixdə Şaxta baba obrazının prototipi olub. Amma Laplandiya deyilən yer mövcud deyil, uydurmadır.



**Psixoloq Pərvin**
Mən demirəm ki, Laplandiya ölkəsi var. Sadəcə, uşaqlara "Şaxta baba adi adamdır, saqqal taxıb" demək olmaz.



**Aynur**
Aaa... Doğrudanmı Laplandiya yoxdur?!



**Samirə92**
Şaxta baba obrazını "Koka-Kola" (Coca-Cola) şirkəti yaradıb.



**Solmaz**
Aytən xanım, məsləhət görürəm, özünüz Şaxta baba haqqında məlumat toplayasınız və uşağınıza həqiqəti onun yaş səviyyəsinə uyğun izah edəsiniz.

**c** **Sizcə, Aytən öz sualı ilə bağlı hansı iştirakçıların fikirlərindən daha çox faydalandı?**

**ç** **Fikir söyləyən iştirakçılardan birinin sözlərinə başqa iştirakçılar reaksiya vermirlər. Bu kimdir və nəyə görə digərləri ona əhəmiyyət vermirlər?**

**d** **Aytənin qaldırdığı sualla bağlı hansı iştirakçıların mövqeləri bir-birinə ziddir? Onların fikirləri arasındakı ziddiyyəti şərh edin.**

**2** **a** **Aşağıdakı faktlar hansı iştirakçıların mövqeyini dəstəkləyə bilər?**

1. Araşdırmalar göstərir ki, 7-8 yaşına qədər uşaqlar öz həyatının mifoloji təsəvvürlər dövrünü yaşayırlar. Onlar üçün Şaxta baba, küpəgirən qarı və s. qonşuluqda yaşayan adamlar kimi realdır.

2. Bir çox müasir uşaq ensiklopediyalarında insanın necə doğulması haqqında danışılır, ana bətnində uşağın inkişafını əks etdirən şəkillər verilir.

- Psixoloq Pərvinin
- Samirə92-nin
- Solmazın
- Aynurun

**b** Debat. **Həyatdan nümunələr gətirməklə müzakirədə qaldırılmış məsələ ilə bağlı debat keçirin.**

I qrup: Uşaqlara Şaxta baba haqqında həqiqəti söyləmək lazımdır.
II qrup: Uşaqlara Şaxta baba haqqında həqiqəti söyləmək olmaz.

Layihə

## Diqqət et

**Fikir** – müəyyən məsələ ilə bağlı müəllifin qənaəti, mühakiməsi və ya münasibətidir. O, subyektin, yəni insanın şəxsi düşüncələri, dünyagörüşü və həyata baxışı ilə bağlıdır. Ona görə də fikir subyektiv xarakter daşıyır.

I subyektin fikri: Şokolad ən dadlı şirniyyatdır.
II subyektin fikri: Tort şokoladdan dadlıdır.

**Fakt** elə bir məlumatdır ki, onun həqiqiliyi və ya yanlışlığını müəyyən dəlillərlə əsaslandırmaq, sübuta yetirmək mümkündür. Məsələn:

Fakt: Şokoladın tərkibinə kakao, yağ, şəkər, quru süd daxildir.

Bu faktın həqiqiliyini yoxlamaq üçün şokolad fabrikinə gedib istehsal prosesini izləmək olar.

### Qlossari

**Subyektiv** – şəxsə (subyektə) aid olan, onun fikirlərini, təəssüratını əks etdirən; şəxsi, fərdi.

**Obyektiv** – şəxsdən, onun düşüncə və mövqeyindən asılı olmayan, reallıqda mövcud olan.

**C** **“Analar və balalar” səhifəsindəki məlumatlardan fakt və fikirləri seçin.**

**1.** Kiçikyaşlı uşaqlara Şaxta baba haqqında həqiqəti söyləmək lazımdır.
**2.** Tarixdə Şaxta babanın prototipi olub.
**3.** 7 yaşlı uşaqlara məktəbdə həyat bilgisi keçirlər.
**4.** Dünyada Laplandiya deyilən yer yoxdur.
**5.** Bəzi həqiqətlər var ki, uşaqlardan gizlətmək daha məqsədəuyğundur.
**6.** Şaxta baba obrazını “Koka-Kola” şirkəti yaradıb.

### Faydalı məsləhət

Qarşılaşdığımız məlumatlardan düzgün nəticə çıxarmaq üçün faktları fikirlərdən fərqləndirməyi bacarmalıyıq. Başqalarının fikirləri maraqlı, inandırıcı ola bilər. Lakin şəxsi qənaətlərimizi, ilk növbədə, faktlar əsasında formalaşdırmalıyıq.

Mətnlərdə yalnız fikirlər deyil, faktlar da yanlış ola bilər. Ona görə də şübhəli faktlarla bağlı başqa informasiya mənbələrinə müraciət etmək vacibdir.

Layihə

**3a** **Mətni oxuyun. Ad və tarixləri qeyd edin.**

# ŞAXTA BABA LAPLANDİYADANDIR?



Avropada ona “Santa Klaus”, Rusiyada “Ded Moroz” (Şaxta baba), Türkiyədə “Noel baba” deyirlər. Bir çox xalqlar onu özününküləşdirmək üçün müxtəlif rəvayət və əfsanələr yaradıblar. Əlbəttə, kim istəməz ki, dünyada bütün uşaqların sevimlisi olan bir obraz onun millətindən olsun?

Uşaqlıqdan bizə deyiblər ki, Şaxta babanın vətəni Laplandiyadır. Laplandiya Finlandiyanın şimalında bir vilayətdir. Buradakı parklardan birində “Santa Klausun koması” yerləşir. Deyilənə görə, hər il Milad bayramında Santa Klaus buradan dünya səyahətinə çıxır, marallara qoşulmuş xizəklə uşaqlara hədiyyə aparır.

Bütün bunlar balacalar üçün düşünülmüş şirin nağıllardır. Ən azı ona görə ki Laplandiyada Santa Klausun “ofis”i 1985-ci ildə əyləncə və turizm məqsədilə yaradılıb. Əslində isə, Santa Klausun tarixçəsi daha qədimdir.



Miladdan sonra III–IV əsrlərdə indiki Türkiyədə yerləşən Patara şəhərində **Müqəddəs Nikolas** (Saint Nicolas) adlı bir keşiş yaşayırmış. Bu ruhani bayram günlərində qırmızı libas geyinər, qapı-qapı gəzər, uşaqlara şirniyyatlar paylayarmış. Xristian dinində Müqəddəs Nikolas uşaqların himayədarı sayılır. Şaxta babanın tarixi prototipi də məhz odur.

Bəs nəyə görə Şaxta babanı “Saint Nicolas” yox, “Santa Klaus” adlandırırlar? Əslində, bunlar eyni addır; hər ikisində birinci söz “müqəddəs” mənasını verir, ikinci söz isə eyni adın müxtəlif formalarıdır.



1823-cü ildə Amerikada **Klement Mur** (1779–1863) adlı bir ədəbiyyat müəllimi uşaqlar üçün “Milad gecəsi” adlı mənzum nağıl yazdı. Bu əsər Nyu-Yorkun “Sentinel” qəzetində dərc olundu. Nağılın qəhrəmanı Milad bayramında uşaqlara hədiyyə paylayan Santa Klaus adlı xeyirxah qoca idi. 2000-ci illərdə ABŞ-nin “History Channel” (Tarix Kanalı) telekanalının çəkdiyi tarixi-sənədli filmdə deyilir: “Klement Murun əsəri nəşr olunduqdan sonra Müqəddəs Nikolas hamı üçün Santa Klausa çevrildi... Bir neçə ildən sonra artıq bütün amerikalılar Santa Klausu tanıyırdılar”.

1931-ci ildə **Haddon** adlı rəssam bu gün hamının tanıdığı Şaxta babanın zahiri obrazını yaratdı: şişman, ağ saqqal, qırmızı kürk və papaq. O bu rəsmi “Koka-Kola”nın reklamı üçün çəkmişdi. Amma onun yaratdığı obraz Santa Klausun “vizit vərəqi”nə çevrildi.

Layihə

**b** **Bu məqaləni yazmaqla müəllif hansı suala aydınlıq gətirmək istəyir? Mətnə istinad etməklə fikrinizi əsaslandırın.**

**a.** Uşaqlara Şaxta baba ilə bağlı həqiqəti söyləmək lazımdırmı?
**b.** Şaxta baba, Noel baba və Santa Klaus eyni obrazlardır?
**c.** Santa Klaus obrazı necə yaranıb?
**d.** Doğrudanmı Laplandiya deyilən ölkə var?

**c** **"Şaxta baba Laplandiyadandır?" mətnindən çıxış edərək Samirə92-nin fikirlərinə münasibət bildirin.**

**a.** Doğrudur.
**b.** Qismən doğrudur.
**c.** Yanlışdır.

| | | | |
|---|---|---|---|
| **1.** Laplandiya deyilən yer mövcud deyil, uydurmadır. | **a** | **b** | **c** |
| **2.** Tarixdə Şaxta baba obrazının prototipi olub. | **a** | **b** | **c** |
| **3.** Şaxta baba obrazını "Koka-Kola" yaradıb. | **a** | **b** | **c** |

**ç** **"Şaxta baba Laplandiyadandır?" mətnindən seçilmiş ifadələrin fakt, yoxsa fikir olduğunu əsaslandırın.**

**1.** Laplandiya Finlandiyanın şimalında bir vilayətdir.
**2.** Bütün bunlar balacalar üçün düşünülmüş şirin nağıllardır.
**3.** Deyilənə görə, hər il Milad bayramında Santa Klaus buradan dünya səyahətinə çıxır.
**4.** Bu əsər həmin il Nyu-Yorkun "Sentinel" qəzetində dərc olundu.
**5.** 1931-ci ildə Haddon adlı rəssam Şaxta babanın zahiri obrazını yaratdı.

**d** **Santa Klaus obrazının yaranma tarixi ilə bağlı düzgün fikri seçin və mətnə istinad edərək əsaslandırın.**

**a.** III–IV əsrlər
**b.** XIX əsrin əvvəlləri
**c.** 1931-ci il
**d.** 1985-ci il
**e.** 2000-ci illər

**e** **Sizcə, mətndə aşağıdakı ifadələr nə üçün dırnaq içərisində yazılıb?**

**a.** "History Channel"
**b.** "ofis"
**c.** "Milad gecəsi"

| | | | |
|---|---|---|---|
| **1.** Məcazi mənada işləndiyinə görə | **a** | **b** | **c** |
| **2.** Əsər adı olduğuna görə | **a** | **b** | **c** |
| **3.** Televiziya kanalının adı olduğuna görə | **a** | **b** | **c** |

Layihə

## Nida

**4 a Cümlələri oxuyun. Göy rənglə verilmiş söz cümləyə hansı məna çalarını qatır?**

**1.** Doğrudanmı Laplandiya adlı ölkə yoxdur?
**2.** Aaa... Doğrudanmı Laplandiya adlı ölkə yoxdur?!

**Yadda saxla** Nidanın məna növləri

Dilimizdə elə sözlər var ki, danışarkən hisslərin (sevinc, qorxu, çağırış, həyəcan və s.) ifadəsinə kömək edir. Belə sözlər nida adlanır. Məsələn:

Qorxu: ***Vay!*** *Bu uşaq hara yoxa çıxdı!*
İstehza: ***Ay-hay,*** *buna çətin iş deyirsiniz?!*
Sevinc: ***Ay can, ay can,*** *axşam gəzməyə gedirik!*

Çağırış nidaları xitabla birlikdə işlənir.
***Ay*** *oğul, gəl bu daşı ətəyindən tök!*
***Ey*** *Vətən! Torpağın əzizdir mənə. (S.Rüstəm)*
Bu nidalardan bəziləri ayrılıqda da müraciət ifadə edə bilər:
***Ey,*** *kimsən orda, aç qapını! (Ü.Hacıbəyli)*

**b Uyğunluğu müəyyən edin.**

**1.** Of, ürəyimdən tikan çıxdı!
**2.** Ax, əvvəlcədən bilsəydim, bu işə razılıq verməzdim!
**3.** Xox, qorxdum səndən.
**4.** Ay aman, bu nə iş idi, mən düşdüm!

**a.** qorxu, narahatlıq
**b.** istehza, kinayə
**c.** razılıq, məmnunluq
**ç.** təəssüf, peşmanlıq

**Yadda saxla** Nidaların çoxmənalı olması

Bəzi nidaların ifadə etdiyi hiss, duyğu cümlədən asılı olaraq dəyişə bilir:
***Paho,*** *gör bizə kim gəlib!* (şadlıq)
***Paho,*** *deyəsən, yolu azdıq.* (təşviş)

**c Cümlələrdə "ah" nidasının ifadə etdiyi hissləri müəyyən edin.**

**a.** qəm, kədər, nisgil **b.** heyranlıq **c.** təəssüf

**1.** Ah, o xoşbəxt günlər indi mənə yuxu kimi gəlir!
**2.** Ah, bilsəydim, heç gəlməzdim!
**3.** Ah, bu yerlərin necə də gözəl havası var!

Layihə

**Yadda saxla** **Nidanın qrammatik omonimliyi**

Bir sıra nidalar digər nitq hissələri ilə qrammatik omonimlik yarada bilir.
***Ay haray,*** *qoymayın, qurd sürünü apardı!*
*Camaat çobanın* ***harayını*** *eşidib dərəyə tərəf üz tutdu.*

**ç** **Hansı cümlələrdə fərqləndirilmiş söz nida deyil? Həmin sözün nida ilə məna əlaqəsini müəyyənləşdirin.**

**1. a. Ahına** anan qurban, ay bala!
**b. Ah,** biz bir daha görüşməyəcəyik!
**2. a. Vayda** da, toyda da əskik olmaz.
**b. Vay,** nə yaman qəzəblə baxır!
**3. a. Ay aman,** uşağın qızdırması var!
**b.** Ondan **aman** gözləmə.

**Orfoqrafiya**

Bir sıra nidaların orfoqrafik norması sabitləşməyib. Mətnlərdə onların müxtəlif yazılışına rast gəlmək olar. Məsələn:

- *bəh-bəh, pəh-pəh*
- *bıy, buy, boy*
- *oxay, oxqay* və s.

**d** **Hansı cümlədə "aha" sözü hiss-həyəcan bildirmir? Həmin sözü hansı ədatla əvəz etmək olar?**

**a.** Aha, indi əlimdən qaça bilməzsən!
**b.** Aha, səninlə tamamilə razıyam.
**c.** Aha, deməli, bu sənin işindir!

**Yadda saxla** **Nidalarda durğu işarələri**

Nida cümləyə hiss, həyəcan qatdığından onun iştirak etdiyi cümlələr çox zaman nida cümləsi olur və sonunda nida işarəsi qoyulur.
Nida, əsasən, cümlənin əvvəlində, bəzən isə ortasında və ya sonunda işlənir. Bu zaman ondan əvvəl və sonra müxtəlif durğu işarələrindən istifadə olunur.

**e** **Cümlələrdən çıxış edərək qaydanı tamamlayın.**

**1.** Nələr gördün, **aman,** Vaqif?! *(Səməd Vurğun)*
**2. Ay-hay,** mənə badalaq gələnə bax.
**3. Ura!** Biz yenə birinciyik!
**4.** Nə gözəl havadır, **bəh-bəh!**
**5. Ax!..** Necə kef çəkməli əyyam idi... *(M.Ə.Sabir)*
**6. Ay** qardaş, bir bax gör, hara sürürsən.

Nida aid olduğu cümlənin əvvəlində işlənəndə ... .
Nida cümlənin ortasında işlənəndə ... .
Nida cümlənin sonunda işlənəndə ... .

Layihə

**1 a** **“Kitabi-Dədə Qorqud” eposu haqqında nə bilirsiniz? Bu dastanın hansı boylarını oxumusunuz?**

**b** **Mətnin başlığına və illüstrasiyalara diqqət yetirin. Sizcə, bu mətn nədən bəhs edir?**

**c** **Qeydlər götürməklə mətni oxuyun. 4-6-cı hissələr üzrə qeydlərinizi aşağıdakı nümunəyə uyğun qruplaşdırın.**

**Nümunə**

| Araşdırılan sual | İrəli sürülən fikir | Mənbə (tədqiqatçı) |
|---|---|---|
| *Dastan nə vaxt yaranıb?* | *XIII əsrdən sonra* | *Maykl Meker* |

## BİR EPOSUN İZİ İLƏ



1 2015-ci ildə Bakıda “Kitabi-Dədə Qorqud. Basat Təpəgözü öldürdüyü boyu bəyan edər” adlı kitab nəşr olundu və bir çox dillərə tərcümə edildi. Kitaba yazılmış ön sözdə alman alimi Fridrix Fon Dits “Kitabi-Dədə Qorqud”dakı Təpəgözü Homerin “Odisseya”sındakı Polifemlə müqayisə edirdi.

Nəyə görə məhz “Basatın Təpəgözü öldürməsi” boyu və nəyə görə Fon Dits? Məsələ burasındadır ki, adı çəkilən alman şərqşünası bu kitabı ilk dəfə 1815-ci ildə alman dilində nəşr etdirmiş, ona elmi şərhlər yazmış, bununla da qorqudşünaslığın əsasını qoymuşdur. Bakıdakı nəşr isə bu hadisənin 200 illiyinə həsr olunmuşdu.

2 “Kitabi-Dədə Qorqud” qədim türk dilinin zənginliyindən xəbər verən möhtəşəm xalq eposudur. Bu dastan qədim Oğuz elinin qəhrəmanlığından, məişətindən və adət-ənənələrindən bəhs edir. Artıq iki yüz ildən çoxdur ki, dünyanın bir çox türkoloqları “Kitabi-Dədə Qorqud” dastanını və Dədə Qorqud şəxsiyyətini araşdırırlar.

3 Alimləri ən çox düşündürən suallar bunlardır:
- Dədə Qorqud boyları nə vaxt yaranmış və qələmə alınmışdır?
- Dastandakı hadisələr hansı dövrü əhatə edir?
- Dədə Qorqud kimdir: əsərin müəllifi, yoxsa obrazlardan biri?

4 “Kitabi-Dədə Qorqud” eposunun bir neçə əlyazma nüsxəsi günümüzə qədər gəlib çatmışdır. Bu nüsxələrin XV–XVI əsrlərdə qələmə alındığı güman edilir. Alimlər öz araşdırmalarını daha çox Drezden və Vatikan kitabxanalarında tapılmış nüsxələr əsasında aparmışlar. 154 səhifəlik Drezden nüsxəsi bir müqəddimə və 12 boydan, 109 səhifəlik Vatikan nüsxəsi isə 6 boydan ibarətdir. Azərbaycan türkoloqu Fərhad Zeynalovun fikrincə, Drezden nüsxəsinin dili o dövrün Azərbaycan dilinə, Vatikan nüsxəsinin dili isə Osmanlı türkcəsinə daha yaxındır. Vatikan nüsxəsini aşkar etmiş italyan alimi Ettore Rossi də bu fikirlə razıdır.

Layihə

5 “Kitabi-Dədə Qorqud” dastanının yazılı mətnləri XV əsrə aid edilsə də, şifahi xalq yaradıcılığı nümunəsi kimi bu eposun yaranma tarixi daha qədim dövrə gedib çıxır. Amerika alimi Maykl Meker iddia edir ki, bu dastan XIII əsrdən tez yarana bilməzdi. Türkiyəli alim Faruk Sümer isə Dədə Qorqud boylarının ilkin variantının IX–X əsrlərdə yarandığını bildirir. O, dastanı ən qədim oğuz qəhrəmanlıq nəğmələri ilə müqayisə edərək göstərir ki, bu epos əvvəlcə Orta Asiyada, oğuzların sıx məskunlaşdığı ərazilərdə meydana gəlmişdir. Sonradan Qafqazda və Anadoluda yaşayan oğuzlar tərəfindən bir qədər dəyişdirilmiş, yeni hadisələr, qəhrəmanlar əlavə edilmişdir.

6 Rus alimi Bartoldun fikrincə, dastanın bizə çatmış variantında bəzi hadisələr Ağqoyunlular dövründə baş verir. Əsərdə oğuzlarla “kafirlərin” qarşıdurmasından danışılır. Bu isə Ağqoyunlu tayfaları ilə gürcülər, abxazlar və Trapezund yunanları arasındakı savaşların bədii təcəssümü ola bilər. Məsələn, “Qanlı Qoca oğlu Qanturalı boyu”nda “təkur” sözü (təkfur – xristian şəhər valisi) işlənir. Bu sözə qədim əlyazmalarda XIII əsrdən sonra rast gəlinir. Dastanın bəzi boylarında oğuzların qıpçaqlarla, eləcə də qəhrəmanların Təpəgöz kimi mifoloji varlıqlarla qarşıdurmasından danışılır. İngilis türkoloqu Cefri Luis buna əsaslanaraq bildirir ki, həmin boylarda təsvir olunan hadisələr daha qədim dövrə aiddir.

7 Bütün bu araşdırmalardan belə bir nəticəyə gəlmək olar ki, dastanın boyları bir neçə əsr ərzində müxtəlif ozanlar tərəfindən yaradılmış və XV–XVI əsrlərdə naməlum şəxslər tərəfindən yazıya alınmışdır. Belə çıxır ki, dastan “Kitabi-Dədə Qorqud” adlansa da, Dədə Qorqud bu eposun yeganə müəllifi deyil.

“Kitabi-Dədə Qorqud”la bağlı araşdırmalar davam edir. Yeni tarixi sənədlər, əlyazmalar üzə çıxır. 2022-ci ildə Türkiyənin Bursa şəhərində “Quran və Əlyazmalar muzeyi”ndə dastanın 12 boydan ibarət yeni nüsxəsi aşkar edilmişdir. Bu o deməkdir ki, qorqudşünaslıqda hələ son söz deyilməyib. İrəlidə bizi daha mühüm və maraqlı elmi kəşflər gözləyir.



## Nə anladın?

**Ç Məqalədə hansı suala cavab yoxdur?**

**a.** “Kitabi-Dədə Qorqud” haqqında araşdırmalar nə vaxt başlanıb?
**b.** Dastanın hansı əlyazmaları daha çox məşhurdur?
**c.** Drezden əlyazmasını kim aşkar edib?
**d.** Vatikan əlyazmasını kim aşkar edib?
**e.** “Kitabi-Dədə Qorqud”un Bursa əlyazması neçə boydan ibarətdir?

**Qlossari**

**Məqalə** – müasir ictimai-siyasi prosesləri və ya elmi problemləri əks etdirən mətn.

**Epos** – xalqın tarixində müəyyən bir dövrü əks etdirən irihəcmli folklor janrı.

**Müqəddimə** – əsərin başlanğıcı, giriş hissəsi.

Layihə

## Düşün və cavab ver

**d** **Sizcə, "Kitabi-Dədə Qorqud"un hansı əlyazmasını dastanın tam variantı hesab etmək olar: Drezden, yoxsa Vatikan?**

**e** **Mətni yazmaqda müəllifin məqsədi nədir? Mətnə istinad etməklə fikrinizi əsaslandırın.**

**a)** "Kitabi-Dədə Qorqud"un türk xalqlarına aid bir epos olduğunu sübut etmək
**b)** sözügedən eposun dil-üslub xüsusiyyətlərini araşdırmaq
**c)** mənbələrə istinad edərək qədim eposla bağlı bəzi suallara aydınlıq gətirmək
**d)** "Kitabi-Dədə Qorqud"a istinad edərək orta əsrlər tariximizi araşdırmaq

**ə** **Mətnin 4-6-cı hissələrini məzmuna uyğun olaraq yarımbaşlıqlarla adlandırın.**

**• Bu hissələrdə müəllif "Kitabi-Dədə Qorqud"la bağlı hansı suallara aydınlıq gətirməyə çalışır? Qeydləriniz əsasında həmin məsələlərlə bağlı alimlərin fikirlərini və müəllifin gəldiyi nəticələri şərh edin.**

**• Bu hissələrin hər birində məqalə müəllifi iki mənbəyə istinad edir. Hansı hissələrdə istinad olunan alimlərin fikirləri:**
**• bir-birini təkzib edir?**
**• üst-üstə düşür?**
**• bir-birini istisna etmir?**

**2 a** **Təqdimat.** **Oxuduğunuz mətndən və aşağıdakı məlumatlardan istifadə etməklə "Bir əlyazmanın izi ilə" mövzusunda təqdimat edin.**
**• Mənbələrdəki məlumatları şərh edin: uyğunsuzluğu aşkar edin və öz qənaətinizi söyləyin.**
**• Təqdimatınızın giriş və nəticə hissələrini hazırlayın.**

"Hazırda Drezden nüsxəsi sayılan əlyazma Azərbaycanda yaradılmış, 1578–1585-ci illərdə Türkiyəyə aparılmışdır".

*Şamil Cəmşidov. "Dədə Qorqud dastanları" kitabı (1980)*

"XVIII əsrin sonlarında Prussiyanın Türkiyədə nümayəndəsi olan Fridrix Fon Dits əlyazmanı İstanbuldan Almaniyaya aparmış və Drezden kitabxanasına hədiyyə etmişdir".

*Vikipediya saytı (Azərbaycan dilində), "Kitabi-Dədə Qorqud" məqaləsi*

"1817-ci ildə vəfat edən Dits 17000 cilddən ibarət şəxsi kitabxanasını Berlin Dövlət kitabxanasına vəsiyyət etdi".

*Vikipediya saytı (ingilis dilində), "Henrix Fridrix Fon Dits" məqaləsi*

Layihə

**b** **Mətnə istinad edərək sübut edin ki, “Bir eposun izi ilə” qeyri-xronoloji mətndir.**
**Əgər siz bu mövzuda xronoloji mətn yazsaydınız, məzmun və strukturda hansı dəyişikliklər edərdiniz?**

**Xatırla**

**Xronoloji** mətndə mövzu ilə bağlı fakt və fikirlər zaman ardıcıllığı ilə sadalanır. **Qeyri-xronoloji** mətn mövzuya aid sual və problemlər üzrə qurulur.

**c** **“Bir eposun izi ilə” mətninin giriş hissəsi hansı cümlə ilə bitir?**

**Diqqət et**

Qeyri-bədii mətnin girişində, adətən, mövzu haqqında ümumi məlumat verilir və mətndə toxunulacaq məsələlər (problemlər) qeyd olunur.

Lakin bəzən müəllif mətnə maraqlı bir fakt və ya hadisə ilə başlayır. Burada məqsəd ilk sətirlərdən oxucuda mövzuya maraq oyatmaqdır. Ona görə də mətnin bu hissəsi **motivasiya** adlanır. Mətn strukturu baxımından motivasiya girişin bir hissəsi sayılır.

Gəlin “Bir eposun izi ilə” mətninin girişinə nəzər salaq.

**Mətnin mövzusu:** “Kitabi-Dədə Qorqud” dastanı ilə bağlı araşdırmalar

**GİRİŞ**

**Motivasiya**
Mövzu ilə bağlı əlamətdar fakt: qorqudşünaslıqda ilk addım

**Ümumi məlumat**
“Kitabi-Dədə Qorqud”un dili və mövzusu

**Qorqudşünaslıqda əsas problemlər**
Mətndə toxunulacaq üç problem


BİR EPOSUN İZİ İLƏ

1 2015-ci ildə Bakıda “Kitabi-Dədə Qorqud. Basat Təpəgözü öldürdüyü boyu bəyan edər” adlı kitab nəşr olundu və bir çox dillərə tərcümə edildi. Kitaba yazılmış ön sözdə alman alimi Fridrix fon Dits “Kitabi-Dədə Qorqud”dakı Təpəgözü Homerin “Odisseya”sındakı Polifemlə müqayisə edirdi.

Nəyə görə məhz “Basatın Təpəgözü öldürməsi” boyu və nəyə görə fon Dits? Məsələ burasındadır ki, adı çəkilən alman şərqşünası bu kitabı ilk dəfə 1815-ci ildə alman dilində nəşr etdirmiş, ona elmi şərhlər yazmış, bununla da qorqudşünaslığın əsasını qoymuşdur. Bakıdakı nəşr isə bu hadisənin 200 illiyinə həsr olunmuşdu.

2 “Kitabi-Dədə Qorqud” qədim türk dilinin [illegible] eposudur. Bu dastan qədim Oğuz elinin [illegible] ənənələrindən bəhs edir. Artıq iki yüz ildən çoxdur ki, dünyanın [illegible] “Kitabi-Dədə Qorqud” dastanını və Dədə Qorqud şəxsiyyətini araş[illegible]

3 Alimləri ən çox düşündürən suallar bunlardır:
- Dədə Qorqud boyları nə vaxt yaranmış və qələmə alınmışdır?
- Dastandakı hadisələr hansı dövrü əhatə edir?
- Dədə Qorqud kimdir: əsərin müəllifi, yoxsa obrazlardan biri?

**ç** **Mətni məzmun-struktur baxımından təhlil edin. Mətnin əsas hissəsini girişdə qeyd olunmuş problemlərlə əlaqələndirin.**
- **Müəllif girişdə toxunduğu problemlərə əsas hissədə aydınlıq gətirə bildimi?**
- **Bu problemlərə əsas hissənin hansı abzaslarında toxunulur?**

**d** **Mətnin 5-ci hissəsini abzaslara bölsək, ikinci abzas hansı cümlə ilə başlaya bilər?**

Layihə

## Dinləmə 08

**3 a** **Oxuduğunuz mətndə Dədə Qorqudun kimliyi ilə bağlı verilən informasiya sizi qane etdimi?**
- **Bu haqda fikir yürütmək üçün sizə daha hansı məlumatlar lazımdır?**
- **Bu məlumatları haradan əldə etmək olar?**

**b** **"Kitabi-Dədə Qorqud"un müqəddiməsində Dədə Qorqud haqqında verilmiş məlumatı dinləyin. Bu şəxsin müdrikliyi onun söylədiklərində öz əksini necə tapır?**

## Yazı

**c** **Verilmiş mənbələrdən və təlimatdan istifadə etməklə Dədə Qorqudun kimliyi haqqında məqalə yazın.**

**Fəzlullah Rəşidəddin.** "Oğuznamə" (XIV əsr):
*"Bayat boyundan Qara Xocanın oğlu Qorqud çox ağıllı, bilikli və kəramət sahibi olan bir insan idi. O, VI-VII əsrlərdə yaşayıb-yaradıb... O, səxavətli bir vali olmuşdur, onun çoxlu dastanları vardır".*



**Həsən Mahmud oğlu Bayati.** "Cami-Cəm ayin" əsəri (XV əsr):
*"Dədə Qorqudun atası Qara xan çox mömin olduğu üçün Dədə Qorqudu Mədinəyə göndərmişdi. Dədə Qorqud Mədinədə Məhəmməd Peyğəmbərlə görüşmüş və oğuzlar arasında İslam dinini yaymaq üçün Səlman Farisi ilə birlikdə geri qayıtmışdı".*

**Əbülqazi Bahadır xan.** "Şəcərei-Tərakimə" (Türkmənlərin soyu) kitabı (XVII əsr):
*"Peyğəmbərimizin anasının kiçik qardaşı Abbasın hökmranlığı dövründə bütün Oğuz eli yığışdı və Qayı boyundan İnal Yavını hökmranlığa yüksəltdi. Onun vəziri Qorqud Ata oldu. Qorqud Ata nə desə idi, İnal Yavı onun sözündən kənara çıxmazdı... Qorqud üç hökmdarın yanında vəzir oldu və 295 il yaşadı".*

**Aleksandr Yakubovski.** "Kitabi-Dədə Qorqud" (1962):
*"Belə bir fikir var ki, Dədə Qorqudun prototipi XII əsrin ortalarında Boz Oq tayfalarının əmiri olmuş Qorqud ibn Əbdülhəmiddir. Lakin bu fikir inandırıcı görünmür".*

Layihə

**Tofiq Hacıyev.** "Azərbaycan ədəbi dili tarixi" (1976):

*"Bəlkə, ən qədimlərdə Qorqud adında bir el müdriki olub, getdikcə ümumiləşərək rəmzə çevrilib".*

**Bəhlul Abdullayev.** "Kitabi-Dədə Qorqud" (2004)

*"Farsca Oğuz dastanında bildirilir ki, İnal Yabqu xan Qorqud Atanı Həzrət Məhəmməd peyğəmbərin yanına göndərmiş, o da orada İslam dinini qəbul etmişdir".*

**Məhərrəm Qasımlı.** "Folklor və ədəbiyyat araşdırmaları" (2017-ci il)

*"Məşhur alman səyyahı Adam Olearinin 1638-ci ildə Dərbənddə olarkən qələmə aldığı yol qeydləri Dədə Qorqudun tarixi kimliyi, qəbrinin coğrafi koordinatları barədə qiymətli ipucları verir. Adam Olearidən on bir il sonra Osmanlı səyyahı Övliya Çələbi də Dədə Qorqudun qəbrinin Dərbənddə olmasını və ziyarətgah sayılmasını qeydə almışdır".*

**Əli Sultanlı.** "Kitabi-Dədə Qorqud" və qədim yunan dastanları" (1999-cu il)

*"Dədə Qorqud adi iştirakçı, adi personaj deyildir. O, Dədə Qorqud dastanının ilk yaradıcısıdır. Dastanın ilk nəğməsini o söyləmişdir".*

**Təlimat**

**Mətnin planı.** Oxucuda motivasiya yaratmaq üçün mənbələrdən maraqlı fakt seçin. Girişdə motivasiyadan sonra mövzunu və problemləri qeyd edin. Əsas hissənin planını tutun: çatdırmaq istədiyiniz məlumatları altbaşlıqlar üzrə qruplaşdırın. Məsələn:

**1.** Dədə Qorqud tarixi şəxsiyyət kimi

**2.** Dastanın yaranmasında Dədə Qorqudun rolu və s.

**Mənbələrə istinad.** Araşdırdığınız mənbələrdəki ziddiyyətli, məntiqsiz fikirlərə diqqət yetirin. Onlara münasibət bildirin.

Mətninizi sitatlarla yükləməyin. Bəzi mühakimələri öz fikriniz kimi təqdim edib sonra elmi mənbəyə istinad edə bilərsiniz. Məsələn: "Dədə Qorqud VI-VII əsrlərdə yaşamışdır (Fəzlullah Rəşidəddin)". Mənbədəki məlumatları ümumiləşdirib tezis şəklində çatdırmaq da olar. Məsələn: "Əli Sultanlının fikrincə, bu eposun ilk yaradıcısı Dədə Qorqud olmuşdur".

**Ç** **Bu fəsildə "Kitabi-Dədə Qorqud" haqqında əldə etdiyiniz məlumatları tezislər şəklində təqdim edin.**

Layihə

# Sual, əmr və nida cümlələrinin yaranma yolları

**4 a Hansı cümlələri intonasiyanın köməyi ilə sual cümləsinə çevirmək mümkündür?**

**1.** Qalib gəlmək üçün oyunda iştirak etmək lazımdır.
**2.** Dilinə yalan söz gətirmə, oğlum. *(Süleyman Rüstəm)*
**3.** Çaylar birləşəndə dənizə dönür! *(Söhrab Tahir)*
**4.** Qoy həmişə sülh olsun.

**Yadda saxla** Sual intonasiyası, sual ədatları və sual əvəzlikləri

Sual cümlələri müxtəlif yollarla yaranır:
1. Yalnız intonasiya ilə: *Babanın səsini eşitmirsiniz?*
2. Sual ədatları ilə: *Bəs babanın səsini eşitmirsiniz?*
3. Sual əvəzlikləri ilə: *Babanın səsini niyə eşitmirsiniz?*

İntonasiya və sual ədatı ilə yaranan sual cümlələrində müəyyən fikrin təsdiq və inkarı soruşulur. Belə cümlələrə *bəli, hə, yox, xeyr* ədatları ilə cavab vermək olur: *Yola çıxmaq üçün hər şey hazırdır(**mı**)? – Bəli (Xeyr).*

Sual əvəzlikəri ilə yaranan sual cümləsi isə yeni informasiya verən konkret cavab tələb edir:
*Dastanın Drezden nüsxəsi neçə boydan ibarətdir? – On iki.*

**b Cümlələrdəki uyğun sözləri sual əvəzlikləri ilə əvəz etməklə sual cümlələri yaradın.**

**1.** On beş gündən sonra tətil başlayır.
**2.** Biz böyüyə hörmət etməyi ulu babalardan öyrənmişik.
**3.** Böyük zalda yeddi-səkkiz nəfər məşq edirdi.

**Yadda saxla** Əmr və nida cümlələrində ədatın rolu

Cümlənin məqsəd və intonasiyaya görə növlərinin yaranmasında ədatın xüsusi rolu var. ***Qoy, qoysana*** və s. əmr ədatları I və III şəxsə aid feillə işlənərək əmr cümlələrinin yaranmasında iştirak edir:
*Qoy ucalsın haqqın səsi. Qoysana bir nəfəsini dərsin.*
***Nə, necə*** ədatları nida cümləsinin yaranmasında iştirak edir:
*Nə gözəl yaraşır Muğana ceyran! (Səməd Vurğun)*
*Fikirləriniz necə maraqlıdır!*

**c Ədatları dəyişməklə cümlələrin məqsəd və intonasiyaya görə növünü dəyişin.**

**1.** İnsanları tanımaq *necə də* çətindir! — *nida cümləsi ------- sual cümləsi*
**2.** *Bəs* toplantının sonunda qətnamə oxunsun? — *sual cümləsi ------- əmr cümləsi*
**3.** *Qoy* ürəyindən keçənləri söyləsin. — *əmr cümləsi ------- sual cümləsi*
**4.** *Bəli,* siz bu layihəni uğurla həyata keçirərsiniz. — *nəqli cümlə ------- sual cümləsi*

Layihə

**1 a** **Kainat və Günəş sistemi haqqında bildiklərinizi xatırlayın və cümlələri tamamlayın.**
- Günəş sistemində ... planet var: Merkuri, Venera, Yer, ..., Yupiter, ..., Uran, Neptun
- ... Yerin təbii peykidir.
- Yer ... saat ərzində öz oxu ətrafında fırlanır.
- Yer bir il ərzində ... ətrafında fırlanır.

**b** **Aşağıdakı izahlardan çıxış edərək "geosentrizm" və "heliosentrizm" sözlərinin mənalarını təxmin edin.**
- yun. *helios* – Günəş
- yun. *geo* – Yer
- lat. *centrum* – mərkəz
- lat. *isma* – sözlərə "elmi cərəyan, istiqamət, nəzəriyyə" mənası gətirən şəkilçi

## Dinləmə 09

**c** **Qeyd götürməklə "Astronomiya tarixində ən böyük sual: heliosentrizm, yoxsa geosentrizm?" mətnini dinləyin.**
**• Aşağıdakı nümunəyə uyğun cədvəl tərtib edin və qeydlərinizi cədvəlin müvafiq xanalarında yazın.**
**• Vaxta qənaət etmək üçün qeydlərinizi yazarkən ixtisarlardan istifadə edin.**

| Alim | Dövr, məkan | Elmə töhfəsi |
|---|---|---|
| Pifaqor | M.ö. VI əsr. Yunan. | Yer kürə formasındadır. |

**ç** **Qeydlərinizə əsasən aşağıdakı məlumatların doğru, yanlış, yoxsa ehtimal olduğunu müəyyən edin.**

**1.** Aristotel elə hesab edirdi ki, Yer Günəş ətrafında fırlanır.
**2.** Klavdi Ptolemey "Əl-Məcisti" əsərini 140-cı illərdə yazıb.
**3.** Qədim Yunanıstanda heliosentrizmin tərəfdarları olub.
**4.** Uluqbəyin rəsədxanası Səmərqənddə yerləşirdi.
**5.** Cordano Bruno dünyanın heliosentrik sisteminin əsasını qoydu.

**d** **Mətnə əsasən astronomiya tarixinin dövrləri haqqında ən vacib məlumatları sadalayın.**
**1.** Qədim Yunanıstanda astronomiya elmi
**2.** İslam dünyasında astronomiya
**3.** XVI–XVII əsrlərdə astronomiya

**e** **Qeydlərinizə əsasən sübut edin ki, dinlədiyiniz mətn:**
**• informativ xarakter daşıyır;**
**• xronoloji struktura malikdir;**
**• arqumentativ mətn deyil.**

Layihə

**2 a** **Aşağıdakı mətnin başlığına diqqət yetirin. Sizcə, bu mətn qeyri-bədii mətnlərin hansı növünə aiddir: informativ, yoxsa arqumentativ?**

**b** **Mətni oxuyarkən aşağıdakı məqamlara diqqət yetirin:**
- **Başlıqda qoyulmuş sualla bağlı müəllifin mövqeyi nədən ibarətdir?**
- **Müəllif mövqeyini əsaslandırmaq üçün hansı arqumentlərdən istifadə edir?**

## Heliosentrizmin əsasını kim qoyub: Aristarx, yoxsa Kopernik?





Bunu kimdən soruşsanız, yəqin ki, suala sualla cavab verəcək: “Aristarx kimdir?” Çünki Koperniki hamı tanıyır, onun adına bir çox dərsliklərdə rast gəlmək olar. Aristarx isə unudulub. Bu da bir tarixi ədalətsizlikdir.

Amma Kopernik özü Aristarxın kim olduğunu yaxşı bilirdi. “Göy cisimlərinin fırlanması haqqında” (1543) kitabının əlyazmasında o, qədim yunan aliminə istinadlar da etmişdi. Lakin, nədənsə, kitabın nəşri zamanı bu istinadlar yoxa çıxdı. Bəlkə, Kopernik... Nə isə, çox dərinə getməyək.

Qədim Yunanıstanın Samos adasından olan Aristarxın (M.ö. 310–230) bizə gəlib çatan yeganə əsəri “Günəş və Ayın ölçüləri və məsafələri” adlanır. Aristarxa qədər alimlər göy cisimləri haqqında fikir yürüdərkən, sadəcə, məntiqə və fərziyyələrə əsaslanırdılar. Aristarx isə bu əsərində elmi müşahidələrdən (Günəş tutulması, Ayın **fazaları** və s.) və riyazi hesablamalardan çıxış edir. Gəlin bu hesablamalar nəticəsində onun gəldiyi qənaətlərə diqqət yetirək:

- Ay Günəşin işığını əks etdirir;
- Ay Yer ətrafında fırlanır;
- Yer Aydan 3 dəfə, Günəş isə Yerdən 6 dəfə böyükdür;
- Yerdən Günəşə qədər olan məsafə Yerdən Aya qədər olan məsafədən 20 dəfə çoxdur.

Bu fikirlərdən çıxış edərək belə bir nəticəyə gəlmək olar: böyük cisim kiçik cisim ətrafında fırlana bilməz, deməli, Günəş Yer ətrafında deyil, Yer Günəş ətrafında fırlanır.

“Günəş və Ayın ölçüləri və məsafələri” Aristarxın yeganə əsəri olmayıb. Onun heliosentrik ideyalarını müdafiə edən ardıcılları öz yazılarında astronom alimin başqa əsərlərinə də istinad edirlər. Məsələn, Plutarx yazır: “Samoslu Aristarx özünün “Ehtimallar” əsərində göy cisimləri üzərində müşahidələrindən çıxış edərək bildirir ki, Günəş hərəkətsiz dayanıb, Yer isə onun ətrafında, eləcə də öz oxu ətrafında fırlanır”.

Layihə

Beləliklə, demək olar ki, Samoslu Aristarx Kopernikdən 1800 il əvvəl heliosentrik sistemin əsasını qoyub. Lakin o dövrdə riyaziyyat, mexanika, fizika elmləri kifayət qədər inkişaf etməmişdi. İnsanlar kosmos haqqında fikirlərində daha çox gördüklərinə əsaslanırdılar. Onlar görürdülər ki, Günəş hər gün şərqdən çıxır və qərbdə batır, ona görə də bu göy cisminin Yer ətrafında fırlandığını güman edirdilər.

Bu səbəblərdən həmin dövrdə Aristarxın mütərəqqi fikirləri geniş yayılmadı. Lakin bütün bunlar Samoslu Aristarxın elm və tarix qarşısında xidmətlərini kiçiltmir. Əksinə, onu antik dövrün ən böyük astronomu hesab etmək olar.

**C** **Başlıqda qoyulmuş sualla bağlı müəllifin mövqeyini bildirən ilk cümləni müəyyən edin.**

**Ç** **Mətnin girişini müəyyən edin. Onu aşağıdakı variantla müqayisə edin.**

**MÖVZU**

Kosmos haqqında ilkin təsəvvürlər yaranandan bəri insanları bir məsələ düşündürüb: Yer Günəş ətrafında fırlanır, yoxsa Günəş Yer ətrafında? Beləliklə, astronomiyada iki nəzəriyyə yaranıb: geosentrizm və heliosentrizm. Əvvəllər alimlər daha çox geosentrizmi müdafiə edirdilər. Lakin fizika, riyaziyyat elmləri inkişaf etdikcə onlar bu qənaətə gəldilər ki, Yer Günəş ətrafında fırlanır.

**MƏSƏLƏ (PROBLEM)**

Bəs dünyanın heliosentrik sisteminin əsasını kim qoyub?

**MÖVQE (MÜNASİBƏT)**

Elm tarixində geniş yayılmış bir fikir var ki, Yerin Günəş və öz oxu ətrafında fırlandığını ilk dəfə XVI əsrdə polyak alimi Nikolay Kopernik əsaslandırıb. Lakin unutmaq olmaz ki, hələ Miladdan öncə Qədim Yunanıstanda bu fikri irəli sürənlər olub. Onlardan biri – Samoslu Aristarx hətta riyazi hesablamalarla heliosentrizmi əsaslandırıb.

- **Hansı variantda mövzu və problemlə bağlı daha ətraflı məlumat verilir?**
- **Hansı variant daha cəlbedicidir və mətni oxumağa motivasiya yaradır?**

**Diqqət et**

Arqumentativ mətnin girişi, adətən, aşağıdakı hissələrdən ibarət olur:

**1. Mövzu** (ümumi məlumat)

**2. Məsələ** (mövzu ilə bağlı mövcud problem)

**3. Mövqe** (müəllifin problemlə bağlı fikri, münasibəti)

Belə girişi şərti olaraq **3M** və ya **MMM** adlandırmaq olar.

Lakin bəzən müəllif mövzu və problemlə bağlı informasiyanı mətnin başlığında əks etdirir. Məsələn, oxuduğunuz mətnin başlığından görünür ki, mövzu – heliosentrizm, məsələ isə bu nəzəriyyənin əsasını qoyan alimi müəyyən etməkdir. Ona görə də müəllif mətnə birbaşa 3-cü M-lə, yəni probleme münasibətini bildirməklə başlayır. Daha sonra əsas hissədə öz mövqeyini əsaslandırmağa çalışır.

Layihə

**3a** **“Heliosentrizmin əsasını kim qoyub...” mətnində müəllifin gətirdiyi arqumentlər sizi inandırdımı? Aşağıdakı məlumatlardan çıxış edərək əks-arqumentlər hazırlayın və müəllifin opponenti qismində çıxış edin.**

**1. Müasir hesablamalara əsasən Aristarxın hesablamalarındakı xətaları müəyyən edin.**
• Günəşin diametri: 1 400 000 km
• Yerin diametri: 12 742 km
• Ayın diametri: 3 476 km
• Yerdən Aya qədər olan məsafə: 384 467 km
• Yerdən Günəşə qədər olan məsafə: 150 000 000 km

**2. Müəllif Aristarxın hesablamalarından çıxış edərək yazır:** *“... belə bir nəticəyə gəlmək olar: böyük cisim kiçik cisim ətrafında fırlana bilməz”*. Sizcə, bu, yunan aliminin, yoxsa məqalə müəllifinin gəldiyi nəticədir?

**3. Plutarxdan gətirilən sitatda Aristarxın əsərinin adına diqqət yetirin: “Ehtimallar”. Sizcə, dəqiq hesablamalar və arqumentlər olan əsər belə adlandırıla bilərdimi?**

**4. “Göy cisimlərinin fırlanması haqqında” kitabında Kopernikin gəldiyi nəticələri Aristarxın fikirləri ilə müqayisə edin.**
• Yer Kainatın mərkəzi deyil, Ayın dövr etdiyi orbitin mərkəzidir;
• Planetlər Günəşin mərkəz olduğu orbitlər boyu hərəkət edir, ona görə də Günəş dünyanın mərkəzidir;
• Yerdən Günəşə qədər olan məsafə ulduzlara qədər olan məsafədən xeyli azdır;
• Günəşin sutka ərzində Yer ətrafında fırlanması fikri təxəyyülümüzün məhsuludur; bu təxəyyülü doğuran səbəb Yerin öz oxu ətrafında 24 saat ərzində fırlanmasıdır.

**b** **Mətnin 2-ci abzasının son cümlələrinə diqqət yetirin:**
*Bəlkə, Kopernik... Nə isə, çox dərinə getməyək.*
• **Sizcə, müəllif bu cümlələrlə nə demək istəyir, nəyə eyham vurur?**

**Diqqət et**

Bəzən arqumentativ mətndə müəllif oxucunu öz fikirlərinə inandırmaq üçün emosional ifadələrdən, eyhamlardan, ritorik suallardan, hətta ironiyadan istifadə edir. Məsələn, oxuduğunuz mətndə ilk abzasın sonunda müəllif deyir: “Bu da bir tarixi ədalətsizlikdir”. Buna **emosional arqumentlər** deyilir.
Yaxşı oxucu emosional arqumentlərin təsiri altında qalmamalı, faktlardan çıxış edərək problemlə bağlı öz fikrini formalaşdırmalıdır.

**Qlossari**

**Eyham** – fikri üstüörtülü şəkildə çatdırmaq üsulu; kinayəli söz, incə işarə.

**Ritorik sual** – cavab almaq məqsədilə deyil, emosionallıq yaratmaq, nitqin təsirini artırmaq məqsədilə verilən sual.

Layihə

**4a** **Cordano Bruno, Qalileo Qaliley haqqında nə bilirsiniz? Aşağıdakı mətni oxuyun və yeni öyrəndiyiniz ən vacib məlumatları qeyd edin.**

# FƏDAİ ALİMLƏR

Tarix boyu elmin inkişaf yolu heç də hamar olmayıb. Bu gün danılmaz həqiqət kimi qəbul olunan bir çox ideyaları sübut etmək üçün alimlər bəzən məşəqqətlərə sinə gərməli, hətta həyatlarını qurban verməli olublar.

Astronomiya tarixinin ən çətin dövrü XVI–XVII əsrlərə təsadüf edir. Bu dövrdə Avropada inkvizisiya **tüğyan edirdi.** İnkvizisiya XIII əsrdə Roma katolik kilsəsi tərəfindən yaradılmış məhkəmə və cəza sistemi idi. Onun əsas vəzifəsi xristian dini görüşlərinə zidd fikirləri təqib etmək, bu fikirləri yayan insanları cəzalandırmaq idi.

XVI əsrin ortalarında Nikolay Kopernikin məşhur əsəri nəşr olunduqdan sonra heliosentrizm tərəfdarları təqibə məruz qaldılar. Bu nəzəriyyə İncildə yazılanları təkzib edirdi. Axı dini kitabda deyilir: "Tanrı Yeri dayaqlar üzərində yaratdı ki, tərpənməz olsun". Başqa bir yerdə İsa Məsihin möcüzəsindən söz açılır: "O (İsa Məsih) göydə Günəşi dayandırdı və Günəş bir sutka ərzində yerindən tərpənmədi". Belə çıxır ki, Günəş hərəkət edirmiş.

## Cordano Bruno



Ensiklopedik biliklərə malik olan Cordano Bruno şair, filosof, alim olmaqla yanaşı, həm də din xadimi idi. Lakin o, xristian dinindəki bir çox **ehkamlarla** razılaşa bilmir, dində **islahatlar** aparmağa çalışırdı. Böyük italyan **mütəfəkkiri** minilliklər ərzində bəşəriyyətin qazandığı elmi yenilikləri dinə gətirmək istəyirdi.

Bruno anadan olanda artıq beş il idi ki, Kopernikin "Göy cisimlərinin fırlanması haqqında" kitabı **işıq üzü görmüşdü.** İtalyan mütəfəkkiri öz **sələfinin** heliosentrizmlə bağlı ideyalarını alqışlayır, Avropa şəhərlərini gəzərək bu haqda mühazirələr oxuyurdu.

Cordano Bruno, sadəcə, Koperniki təkrar etmirdi, onun ideyalarını inkişaf etdirir və astronomiya elminə yeni töhfələr verirdi. Öz əsərlərində alim-filosof yazırdı ki, kainat sonsuzdur, göydə seyr etdiyimiz ulduzlar uzaq günəşlərdir və onların da ətrafında görmədiyimiz, tanımadığımız planetlər fırlanır. Bruno həmçinin başqa planetlərdə həyatın mövcud olma ehtimalını da irəli sürürdü.

1592-ci ildə Cordano Brunonun Covanni adlı bir tələbəsi inkvizisiya məhkəməsinə məktub yazaraq müəlliminin xristianlığa zidd görüşləri haqqında məlumat verdi. Beləliklə, filosof həbs olundu. 8 il ərzində dəfələrlə məhkəmə quruldu, alimə işgəncələr verildi. İnkvizisiya tələb edirdi ki, o, dini ehkamlara zidd ideyalarından imtina etsin. Lakin Bruno fikirlərindən dönmədi.

1600-cü il fevralın 9-da Roma inkvizisiya məhkəməsi italyan mütəfəkkiri Cordano Bruno haqqında hökmünü elan etdi: "Qanı tökülmədən edam edilsin". Bir həftə sonra 52 yaşlı Bruno tonqalda yandırıldı. Dünya tarixində bu dəhşətli qətl alim fədakarlığının təcəssümü, eyni zamanda Roma katolik kilsəsinə utanc gətirən bir hadisə kimi dəyərləndirilir.

Layihə

## Qalileo Qaliley



Cordano Brunonun ölümündən 33 il sonra inkvizisiya başqa bir italyan alimi – 69 yaşlı Qaliley üzərində məhkəmə qurdu.

İtalyan alimi Qalileo Qaliley ixtira etdiyi teleskopla göy cisimlərini müşahidə edirdi. O, Ayda dağları, Günəşdə ləkələri və s. kəşf etmişdi. Riyaziyyat və fizika üzrə dəyərli əsərlərin müəllifi olan Qaliley heliosentrizm tərəfdarı idi.

1632-ci ildə böyük alim "İki dünya sistemi haqqında dialoq" adlı əsər yazdı. Bu əsər çoxlarının başa düşə biləcəyi **populyar** üslubda – üç nəfərin dialoqu şəklində yazılmışdı. Bu üç nəfərdən biri heliosentrizm, o biri geosentrizm tərəfdarı idi. Onlar arqumentlər irəli sürməklə bu üçüncü şəxsi öz fikirlərinə inandırmağa çalışırdılar. Geosentrizm tərəfdarı olan Simpliçio elmi məntiqdən uzaq sadəlövh adam kimi təqdim olunmuşdu. Bir çox xüsusiyyətlərinə görə o həmin dövrdə Roma papası olmuş VIII Urbana bənzəyirdi. Kitabla tanış olan Urban Simpliçioda özünü tanımışdı. Sözsüz ki, bu onu çox hiddətləndirmişdi.

Beləliklə, inkvizisiya Qalileyi **küfrdə** ittiham etdi. Santa-Mariya kilsəsində keçirilən məhkəməyə Roma papası şəxsən təşrif buyurmuşdu. Qaliley başa düşürdü ki, yazdıqlarından imtina etməsə, onu Cordano Brunonun taleyi gözləyir. Buna görə də ona təqdim edilən imtina mətnini oxudu. Bundan sonra məhkəmə hökm çıxardı. Alimin fikirlərindən yazılı surətdə imtina etməsini nəzərə alan inkvizisiya ona həbs cəzası kəsdi. Deyilənə görə, Qaliley hökmü dinlədikdən sonra ayağını yerə vuraraq sakitcə demişdi: "Hər halda, o fırlanır".

Sonralar bu ifadə **zərbi-məsələ** çevrildi, həqiqət uğrunda mübarizədə inadkarlığın rəmzi kimi qəbul olundu.

**Söz boğçası**
- ehkam • islahat
- tüğyan etmək
- neytral • populyar
- küfr • zərbi-məsəl
- sələf • mütəfəkkir

## Düşün və cavab ver

**b** **Misallar qurmaqla suallara cavab verin.**

**Nümunə**

**Sual:** Cordano Bruno nə vaxt anadan olub?
**Cavab:** Mətndə deyilir ki, 1600-cü ildə edam edilərkən Brunonun 52 yaşı var idi.
**Misal:** 1600 – 52 = 1548

**1.** Kopernikin "Göy cisimlərinin fırlanması haqqında" kitabı neçənci ildə nəşr olunub?
**2.** Qaliley neçənci ildə anadan olub?
**3.** Qaliley üzərində məhkəmə neçənci ildə qurulub?

**c** **"Fədai alimlər" mətninin mövzusu və strukturu haqda fikir yürüdün. Sizcə, bu mətni yazmaqda müəllifin məqsədi nədir: oxucuya məlumat vermək, yoxsa onu hər hansı fikrə inandırmaq?**

**Xatırla**
Arqumentativ mətndə, adətən, müzakirə edilən məsələ ilə bağlı zidd fikirlər təqdim olunur. Müəllif öz fikrini əks fikirlə qarşılaşdırır və arqumentlərlə əsaslandırır.

Layihə

## Yazı

**5a** Cütlərlə iş. **Faktlardan istifadə edərək arqumentativ mətn yazın. Bir-birinizin mətnini oxuyun və müzakirə edin.**

**1. Cordano Brunonu heliosentrizm ideyalarına görə edam ediblər?**

1. Cordano Brunonun tələbəsi Covanni Moçeniqonun məktubundan (arxiv sənədi):
*"Mən, Covanni Moçeniqo, vicdanımın səsinə qulaq asaraq yazıb sizə bildirirəm ki, Cordano Bruno mənimlə söhbəti zamanı deyib ki, İsa Məsih heç bir möcüzə yaratmayıb, o, sadəcə, sehrbaz olub. Bu adam deyir ki, bizim keşişlər dinimizi biabır edirlər.*
*Tarix: 23 may 1592-ci il".*

2. Cordano Bruno üzərində məhkəmənin protokolundan (arxiv sənədi):
*Müttəhim: "Bəli, mən "Tanrının oğlu", "Müqəddəs Ruh" anlayışlarını qəbul etmirəm, çünki bunlar xristianlıq yarandıqdan sonra bəzi keşişlərin uydurmalarıdır".*

3. Roma papası V Pavel başda olmaqla katolik kilsəsi Kopernik ideyalarını yaymağı rəsmən 1616-cı ildə qadağan etdi.

4. XIX əsrdə xristian kilsəsi heliosentrizmə münasibətini dəyişdi və onun təqibinə son qoydu. Bunun nəticəsi olaraq Qalileyə bəraət qazandırıldı. Lakin Cordano Brunonun edamı ilə bağlı kilsə indiyə qədər susur.

**2. Doğrudanmı Qaliley "Hər halda, o fırlanır" deyib?**

1. Qalileyin şagirdi və ardıcılı Vinçenso Vivianinin yazdığı "Qalileyin bioqrafiyası"nda alimin bu ifadəsi haqda heç nə deyilmir.

2. Qalileyin vəfatından 4 il sonra yepiskop Pikkolomininin sifarişi ilə ispan rəssamı Murilyo alimin portretini çəkib. Portretin çərçivəsinin altında çox maraqlı detal gizlədilib. Orada Yerin Günəş ətrafında fırlandığını göstərən eskizin fonunda "Eppur Si Muove!" ("Hər halda, o fırlanır") sözləri yazılıb.

3. 1757-ci ildə italyan jurnalisti Cüzeppe Barettinin "İtalyan kitabxanası" adlı kitabı nəşr olundu. Qalileyin məhkəmə önündə "Hər halda, o fırlanır" deməsi haqda rəvayətə ilk dəfə bu kitabda rast gəlinir.

- **Bir-birinizin mətnini aşağıdakı meyarlar əsasında qiymətləndirin.**

– Mətnin başlığı cəlbedicidirmi, oxumağa sövq edirmi?
– Giriş mətnin mövzusu, problem haqqında kifayət qədər məlumat verirmi?
– Mətnin hissələri arasında keçid cümlələrdən istifadə olunurmu?
– Arqumentlərin təqdim olunmasında məntiqi ardıcıllıq gözlənilirmi?
– Müəllif sizi problemlə bağlı öz mövqeyinə inandırdımı?

Layihə

# Mürəkkəb adların yazılışı

**6 a Hansı cümlədə mürəkkəb ad işlənmişdir?**

**1.** Fəsillər Yerin Günəş ətrafında hərəkəti nəticəsində yaranır.
**2.** İlk dəfə kosmosdan baxanda Yer kürəsi su içində görünüb.

**b Verilmiş xüsusi isimləri mürəkkəb ada çevirərək cümlədə işlədin.**

Azərbaycan, Kür, Mərmərə, Mars, Gəncə

**Yadda saxla** **Səma cismi bildirən adların yazılışı**

Səma cismi bildirən mürəkkəb adların tərkibində *planet, bürc, qalaktika* və s. sözləri kiçik hərflə yazılır: *Yer planeti, Böyük Ayı bürcü, Qütb ulduzu, Süd Yolu qalaktikası.*
*Yer* və *ay* sözləri astronomik ad bildirmədikdə kiçik hərflə yazılır:
*Gələn ay sınaq imtahanına gedəcəyəm. Bu yerin havası çox gözəldir.*

**c Orfoqrafik səhvləri müəyyən edin.**

**1.** Planetlərin günəş ətrafında hərəkət yolu orbit xətti adlanır.
**2.** Yerin yeganə təbii peyki aydır.
**3.** Bala kərtənkələ Yerdə sürünürdü.
**4.** 1781-ci il martın 13-də Uran Planeti kəşf olundu.
**5.** Dumanlı andromeda qalaktikasında ulduzların sayı Süd Yolu Qalaktikasından çoxdur.

**Yadda saxla** **Tarixi gün və bayram adlarının yazılışı**

**Bayram adlarında** birinci sözün ilk hərfi böyük yazılır: *Novruz bayramı, Qurban bayramı* və s.
**Əlamətdar gün** adlarında "gün" sözünün də ilk hərfi böyük yazılır: *Müstəqillik Günü, Zəfər Günü, Dövlət Bayrağı Günü* və s. Həmin adlarda tarix rəqəmlə və ya sözlə yazıla bilər:
*20 Yanvar Ümumxalq Hüzn Günü,*
*İyirmi yanvar Ümumxalq Hüzn Günü.*
*28 May Müstəqillik Günü,*
*İyirmi səkkiz may Müstəqillik Günü.*

**ç Hansı cümlələrdə bütün sözlər orfoqrafik normaya uyğun yazılmışdır?**

**1.** Bütün dünya müsəlmanları Qurban Bayramını təntənə ilə keçirirlər.
**2.** Azərbaycanda 22 iyul Milli Mətbuat və jurnalistika günü kimi qeyd olunur.
**3.** "Xəbərlər" proqramında Ramazan bayramı ilə əlaqədar qeyri-iş günləri açıqlandı.
**4.** Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir.

Layihə

# Ümumiləşdirici təkrar

**1** **Cümlələrdə "paho" nidasının ifadə etdiyi hissləri müəyyən edin.**

a. sevinc b. narahatlıq c. heyranlıq

1. Paho, indi gəl bu soyuq havada avtobus gözlə!
2. Paho, xoş gəldin, səfa gətirdin!
3. Paho, insan əməyinin qüdrətinə bir bax!

**2** **Cümlələrdə fərqləndirilmiş sözlərin qrammatik mənasını müəyyən edin.**

1. a. *Ax*, necə kef çəkməli əyyam idi... *(Mirzə Ələkbər Sabir)*
   b. Arazım, ax, ax, qanıma *ax*! *(Cabir Novruz)*

2. a. Dedi: "Doktor, *aman*, doktor! Sağlığıma güman yoxdur..." *(Səməd Vurğun)*
   b. Get, düşmənə *aman* vermə davada. *(Səməd Vurğun)*

3. a. Getdikcə Ataşın *heyi* kəsilir, dili çətinliklə tərpənirdi. *(Əli Vəliyev)*
   b. Vurun, *hey,* igidlər, bizimdir zəfər*! (Abdulla Şaiq)*

**3** **Ədatların növünü dəyişməklə sual cümlələri yaradın.**

1. Axşamtərəfi sərin olanda parka gedək **də.**
2. **Axı** hamı səni lider kimi qəbul edib.
3. Tale ilə razılaşa bilməmək **çox** böyük bəladır.
4. **Xeyr,** onların içində sənin kimi düşünənlər azdır.

**4** **"Qoy" ədatını hansı feillərlə işlətmək mümkün deyil?**

a. baxaq, gəlsin, yoxlayım
b. otur, danışın, soruş
c. aparım, desinlər, öyrənək
d. gətirsin, oxuyum, yazsınlar

**5** **Hansı cümlələrdə xüsusi isimlərin və mürəkkəb adların yazılışında səhvə yol verilib?**

1. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.
2. Araşdırmalara görə, hər il ay yerdən dörd santimetr uzaqlaşır.
3. Bu gün Silahlı Qüvvələr Günü münasibətilə əsgər və zabitlərimizi təbrik etdik.
4. Günəş sistemindəki ən böyük planet Yupiterdir.
5. Beynəlxalq Sülh günü insanları barışa, birliyə səsləyir.

Layihə

# İZAHLI SÖZLÜK

İxtisarlar: *is. – isim; sif. – sifət; z. – zərf, f. – feil, fr. – frazeoloji birləşmə*

**alibi** *is.* – şübhəli bilinən şəxsin təqsirsiz olduğunu sübut edən danılmaz fakt.

**antologiya** *is.* – müxtəlif müəlliflərin müəyyən prinsip üzrə seçilmiş əsərlərinin və ya folklor nümunələrinin toplusu.

**bakenbard** *is.* – çənə və buxaq qırxılmaqla üzdə saxlanan saqqal.

**bəyannamə** *is.* – hökumətin və ya təşkilatın əsas prinsiplərinin rəsmi surətdə elan edilməsi forması.

**biblioqrafiya** *is.* – kitab, jurnal, məqalə və s.-nin xüsusi qaydalarla tərtib olunmuş siyahısı.

**bloq** *is.* – internet şəbəkəsində müntəzəm informativ qeydlərin və yazışmaların aparıldığı virtual gündəlik.

**ehkam** *is.* – mütləq və inkaredilməz həqiqət kimi qəbul olunan, dəyişməz qalan fikir, müddəa, qanun.

**farfor** *is.* – ağ gildən hazırlanmış çini qab.

**fiziologiya** *is.* – orqanlar sisteminin, hüceyrə və toxumaların iş prinsipini öyrənən elm sahəsi.

**fond** *is.* – mədəniyyət, təhsil və digər sosial məqsədlər üçün könüllü ianələr hesabına yaradılan qeyri-kommersiya təşkilatı.

**fonendoskop** *is.* – ürək və ciyərlərə qulaq asmaq üçün tibb aləti.

**hesabdar** *is.* – müəssisə və təşkilatlarda pul dövriyyəsini hesablayan işçi, maliyyə mütəxəssisi.

**xəfiyyə** *is.* – müstəqil şəkildə və ya polisin tapşırığı ilə cinayət araşdıran agent, detektiv.

**iddia** *is.* – 1) irəli sürülmüş fikir; 2) məhkəmə qarşısında qaldırılmış tələb.

**islahat** *is.* – bir şeyi yaxşılaşdırmaq məqsədilə edilən əsaslı dəyişiklik.

**kartoqrafiya** *is.* – coğrafiya xəritələrinin tərtibi və bu işin qaydalarından bəhs edən elm.

**kosmoqrafiya** *is.* – kainatın, dünyanın quruluşu, yaranması haqqında elmi və mifoloji təsəvvürlərin məcmusu.

**kölgədə qoymaq** *fr.* – irəli keçmək, müəyyən sahədə başqasına üstün gəlmək.

**kriminal** *is.* – cinayətkarlığa aid olan, cinayət işi.

**küfr** *is.* – möminlər tərəfindən geniş qəbul olunmuş və müqəddəs sayılan inancları inkaretmə, dinsizlik.

**qubernator** *is.* – bəzi ölkələrin siyasi-inzibati sistemində quberniya (vilayət) rəisi; vali.

**laureat** *is.* – elm, texnika, incəsənət sahəsində xüsusi mükafata layiq görülmüş şəxs.

**maliyyə** *is.* – pul vəsaiti.

Layihə

**milis** *is.* – sovet dövründə ictimai asayişi və əmniyyəti qoruyan hüquq-mühafizə orqanı, polis.

**militarist** *is.* – müharibə tərəfdarı olan, hərbi gücün durmadan artırılmasına çalışan şəxs.

**mühasib** *is.* – idarə və ya müəssisənin maliyyə-uçot işlərini aparan işçi.

**müşavir** *is.* – məşvərətçi, məsləhətçi.

**mütəfəkkir** *is.* – dərin fəlsəfi fikir sahibi olan adam.

**nekroloq** *is.* – kiminsə vəfatı ilə əlaqədar onun həyat və fəaliyyətini əks etdirən məqalə.

**neytral** *sif.* – mübahisə edən, mübarizə aparan tərəflərdən heç birinə qoşulmayan, mübahisələrdən kənar duran.

**nominasiya** *is.* – müsabiqələrdə fəxri adların və mükafatların verilməsi üçün təyin olunmuş fəaliyyət istiqaməti.

**optimist** *sif.* – optimizmə mail adam; nikbin.

**pasifist** *is.* – müharibələrə qarşı çıxan və yer üzündə sülhün olmasını istəyən adam.

**patent** *is.* – ixtiraçının müəlliflik hüququnu təsdiq edən vəsiqə, sənəd.

**pessimist** *sif.* – həyatda hər şeyə ümidsiz baxan, bədbin.

**populyar** *sif.* – məşhur, geniş yayılmış, hamıya məlum olan; tanınan.

**protokol** *is.* – hər hansı bir faktı, hadisəni təsdiq edən sənəd.

**salnamə** *is.* – hər hansı prosesin, hadisənin tarixçəsi.

**sensasiya** *is.* – hər hansı qeyri-adi, gözlənilməz hadisənin, xəbərin, yeniliyin cəmiyyətdə doğurduğu əks-səda, həyəcan.

**sələf** *is.* – hər hansı bir sahədə fəaliyyəti başqalarından daha qabaq olmuş adam.

**sivil** *sif.* – mülki, qeyri-hərbi; mədəni, müasir ictimai dəyərlərə uyğun olan.

**sui-qəsd** *is.* – birinin canına qəsd etmək, öldürmək və ya yaralamaq cəhdi.

**tatu** *is.* – döymə üsulu ilə bədənə həkk olunmuş şəkil və yazı.

**terror** *is.* – müəyyən məqsədə çatmaq üçün qətl, partlayış törətmək, adam oğurlamaq və s. zorakı hərəkətlər.

**təhdid** *is.* – qorxutma, hədələmə, hədə-qorxu.

**təhrif** *is.* – hər hansı sözün, fikrin yanlış və ya fərqli ifadə olunması, mahiyyətinin dəyişdirilməsi.

**təxəllüs** *is.* – yazıçıların və başqa yaradıcı şəxslərin öz əsərlərində imza kimi istifadə etdikləri ad.

**tüğyan etmək** *f.* – hər yeri bürümək, şiddətlənmək, coşmaq.

**zərbi-məsəl** *is.* – mənşəyi müəyyən əhvalatla bağlı olan və ona bənzər situasiyanı səciyyələndirmək üçün işlədilən məşhur ifadə, məsəl.

Layihə

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün*
***Azərbaycan dili (tədris dili) fənni üzrə***
***dərslik (I hissə)***

**Tərtibçi heyət:**

Müəlliflər **Rafiq İsmayılov**
**Şəhla Zahidova**
**Ülkər Nurullayeva**
**Reyhan Həbibli**

Redaktorlar **Nəriman Abdulov**
Rəyçi **Cəbrail Həşimov**
Texniki redaktor **Rəşad Nəbiyev**
Dizayner **Səbinə Vəzirova**
Rəssam **Elçin Cabarov**
Korrektor **Fidan Məmmədova**

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Fiziki çap vərəqi 12. Səhifə sayı 96.
Kağız formatı 57×90 1/8. Kəsimdən sonra ölçüsü: 22,0×27,5.
Şriftin adı və ölçüsü: Calibri, 14 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tirajı 1700. Bakı – 2024.

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
“CN Poliqraf” MMC (Bakı ş., A.M.Şərifzadə küç., 29/31).

Layihə

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



Layihə